# Coğrafiya

9

2-ci hissə

DƏRSLİK

Layihə





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Layihə


Layihə

**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

Layihə

Famil Ələkbərov
Nərminə Seyfullayeva
Şərafət Hüseynli
Mahir Sərkərli
Ramil Rzayev

# Coğrafiya

Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün coğrafiya fənni üzrə dərslik (2-ci hissə)

©Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

9

2-ci hissə

layihə

# MÜNDƏRİCAT


**BÖLMƏ 4** **QLOBALLAŞMA** 5

4.1. Dünya – ortaq məkanımızdır 6
4.2. Qloballaşma nədir? 8
4.3. Qloballaşma necə baş verir? 10
4.4. İqtisadi qloballaşma 12
4.5. Sosial və ekoloji qloballaşma 14
4.6. Müasir qloballaşmanın nəticələri 16
4.7. Qloballaşmanın perspektivləri 18
4.8. Azərbaycan qloballaşan dünyada 20
**Azərbaycanda texnoloji qloballaşma** **22**
**Dəyərləndirmə** **23**
**Ümumiləşdirici tapşırıqlar** **24**

**BÖLMƏ 5** **QLOBAL PROBLEMLƏR** 25

5.1. İqtisadi fəaliyyət 26
5.2. İqtisadi fəaliyyətin inkişafı 28
5.3. İqtisadi sektorlar 30
5.4. Təbii amillər 32
5.5. İqtisadi fəaliyyətdə insan amili 34
5.6. İqtisadi fəaliyyət məkanda necə paylanır? 36
**Azərbaycanda istehsalın məkan miqyası** **38**
**Dəyərləndirmə** **39**
5.7. Bəşəriyyətin problemləri 40
5.8. Qlobal problem nədir? 42
5.9. Qlobal problemlər necə yaranır? 44
5.10. Ətraf mühitin çirklənməsi 46
5.11. Qlobal iqtisadi problemlər 48
5.12. İnflyasiya və yoxsulluq 50
5.13. Qlobal siyasi problemlər 52
5.14. Qlobal sosial problemlər 54
5.15. Qlobal texnoloji problemlər 56
5.16. Qlobal problemlər və Azərbaycan 58
**Rəqəmsal informasiya təhlükəsizliyi** **60**
**Dəyərləndirmə** **61**
**Ümumiləşdirici tapşırıqlar** **62**

**BÖLMƏ 6** **DAYANIQLI İNKİŞAF** 63

6.1. Gələcəyə miras 64
6.2. Dayanıqlı inkişaf nədir? 66
6.3. İqtisadi dayanıqlılıq 68
6.4. Ekoloji dayanıqlılıq 70
6.5. Sosial dayanıqlılıq 72
6.6. Dayanıqlı inkişafın gələcəyi 74
6.7. Azərbaycanda iqtisadi və ekoloji dayanıqlılıq 76
6.8. Azərbaycanda sosial dayanıqlılıq 78
**Ailə biznesinə qayğı** **80**
**Dəyərləndirmə** **81**
**Ümumiləşdirici tapşırıqlar** **82**
**SÖZLÜK** **83**


Layihə



# 4 QLOBALLAŞMA

**Qloballaşma dünya ölkələrinə necə təsir edir?**

Bir zamanlar insanlar yalnız öz ölkələrinin sərhədləri daxilində yaşayır və ondan kənara çıxmırdılar. Zaman keçdikcə ölkələri ayıran okeanlar və qitələr onları birləşdirən körpülərə çevrildi. Bu gün ticarət, mədəniyyət, texnologiya və ekologiya dünyada ölkələri bir-birinə bağlayan yeni “ipək yolu”na çevrilib. Müasir dövrdə müxtəlif ölkələrdə yaşayan insanları bir-birinə daha sıx bağlayan amil isə internet şəbəkəsidir. Bu gün hər hansı bir ölkədə kiminsə söylədiyi fikir internet vasitəsilə saniyələr içində bütün dünyaya yayılır. Beləliklə, müxtəlif xalqlar internetin köməyi ilə bir-birinə enerji, bilik, mədəniyyət və ideyalar ötürürlər. İnternet dünyanı sanki bir-birinə bağlı olan milyonlarla damardan ibarət “canlı orqanizm"ə çevirmişdir.

1. Şəkildə nə təsvir edilmişdir?
2. Bu əlaqə hansı xüsusiyyətlərinə görə fərqlənir?
3. Ölkələrin bir-biri ilə daha hansı əlaqələri ola bilər?
4. Azərbaycanın dünya ölkələrinə inteqrasiyası ilə bağlı hansı işlər görülmüşdür?

# 4.1 DÜNYA – ORTAQ MƏKANIMIZDIR

## DƏRSƏ BAŞLARKƏN

Bu gün telefonlar vasitəsi ilə dünyanın istənilən ərazisində yaşayan insanlarla əlaqə qurmaq mümkündür. Mobil telefon yaratmaq ideyası bir zamanlar dünya nəhəngi olan "Nokia" şirkəti tərəfindən həyata keçirilmişdir.



**A.** Nokianvirta çayının sahilində yerləşən kağız fabriki



**B.** 1985-ci ildə istehsal olunan telefon

Hər şey 1865-ci ildə Finlandiyada, kiçik bir çayın kənarında kağız fabrikinin yaradılması ilə başladı. Bir müddət sonra şirkət kağızla yanaşı, rezin, kabel və elektronika məhsulları da istehsal edərək fəaliyyətini genişləndirdi. 1980-90-cı illərdə ilk mobil telefonların istehsalı isə şirkət üçün əsl inqilab oldu. "Nokia" şirkəti uğurlu başlanğıcı davam etdirib daha sonra ölkədən kənarda – Avropa, Asiya və Amerikada zavodlar açdı və bütün dünyada tanındı.

Müxtəlif ölkələrdə minlərlə əməkdaş bir şüarla çalışırdı: "Connecting People", yəni "İnsanları birləşdirmək". Bu şüar, sadəcə, reklam deyildi. Bu ideya, kapital və texnologiya getdikcə sərhədləri aşaraq ölkələri bir-birinə bağlayan körpüyə çevrilirdi. Dünyanın ən ucqar kəndlərində yaşayan insanlar "Nokia" sayəsində bir-biri ilə artıq sürətli əlaqə yarada bilirdilər. Qlobal miqyasda fəaliyyət "Nokia" üçün böyümə, əməkdaşlıq və yenilik demək idi.

2003-cü ildə satılan hər üç telefondan biri "Nokia" olub. Bu dövrdə şirkət əldə etdiyi uğurla dünya miqyasında beynəlxalq əməkdaşlığın, bazara inteqrasiyanın və texnoloji mübadilənin canlı nümunəsinə çevrilmişdi.

İqtisadi artım və texnoloji inkişaf getdikcə ekoloji problemlərin sayını çoxaldırdı. "Nokia" da bu prosesdən kənarda qalmırdı. Belə ki, şirkətin geniş istehsal fəaliyyəti təbii resurslardan istifadəni artırır, eyni zamanda elektron tullantıların *(e-waste)* çoxalmasına səbəb olurdu. Buna görə "Nokia" ekoloji məsuliyyət sahəsində də mühüm addımlar atdı. Şirkət təkrar emal proqramları, enerji səmərəliliyi təşəbbüsləri və s. layihələr həyata keçirdi. "Nokia"nın məqsədi texnoloji inkişafla yanaşı, ətraf mühitin qorunmasını da təmin etmək idi.

"Nokia" şirkətinin dünya əhalisi arasında populyarlığı 2013-cü ilə qədər davam etdi. Amma dünya markası olmaq yalnız maddi imkanlarla ölçülmür, həm də rəqabətə davamlı olmaq tələb edirdi. Dünyada texnologiya sürətlə inkişaf etdiyinə görə digər




**C.** İrlandiyada "Nokia" şirkətinin zavodu

Layihə

yeni smartfon şirkətləri meydana çıxdı və "Nokia" müasir dövrün texnoloji yenilikləri ilə ayaqlaşa bilmədi. Şirkət bu səbəbdən qısa müddət ərzində dünya bazarındakı payını itirməyə başladı. Şirkətin nüfuzunu itirməsi bir daha onu göstərdi ki, zamanın tələblərinə biganə qalmaq geriliklə nəticələnir.

"Nokia" dünyanın bütün regionlarında yaşayan insanları bir-birinə bağlasa da, özü dünyanın dəyişən ritminə uyğunlaşa bilmədi. Bir tərəfdə beynəlxalq əməkdaşlıq və inkişaf, digər tərəfdə isə rəqabət və dəyişiklik zərurəti yaranmışdı. Şirkət smartfon yarışından çəkildi və fəaliyyət istiqamətini dəyişərək telekommunikasiya, həmçinin 5G şəbəkə texnologiyaları sahəsinə yönəldi. Hazırda "Nokia" dünyada tanınmış şəbəkə avadanlığı istehsalçılarından biridir.

"Nokia" telefon brendinin istehsalı hazırda Finlandiyada yerləşən başqa bir şirkət tərəfindən davam etdirilir. Kiçik çay kənarında fəaliyyətə başlayan fabrikdə meydana gələn uğurlu bir ideya milyonlarla insanı beləcə birləşdirdi və onların arasında sürətli ünsiyyət vasitəsinə çevrildi.

Texnologiyanın, rabitənin və informasiya axınının bu qədər sürətlə inkişaf etdiyi bugünkü dövrdə artıq heç bir hadisə və proses təkcə bir ölkənin sərhədləri ilə məhdudlaşmır. Məhz bu dəyişikliklər bəşəriyyəti qloballaşma adlanan yeni bir mərhələyə gətirib çıxarıb. Qloballaşmanın əsl gücü isə məsafələri azaltmaq və insanları bir-birinə daha çox yaxınlaşdırmaqdır.




**D.** Mobil şirkətlərin bazar payları



*2012-ci ilin yayında Finlandiyanın cənub-qərbində yerləşən Salo şəhərindəki zavodda son "Nokia" telefonları istehsal olundu və şirkət zavodda telefon istehsalının dayandırılacağını təsdiqlədi. Şirkətin rəhbərliyi bildirdi ki, bu qərar qlobal struktur dəyişikliyi strategiyasının bir hissəsidir. Zavodda çalışan işçilərlə məsləhətləşmələrdən sonra ixtisar şərtləri və onlara göstəriləcək yardım proqramları müzakirə edildi.*

**27 iyul 2012-ci il**



**E.** Finlandiyada mətbuat xəbəri

## FƏALİYYƏT

1. A şəklindəki təsvirin "Nokia" şirkəti ilə hansı əlaqəsi var?
2. B şəklinə və mətnə əsasən suallara cavab verin.
   a) Mobil cihaz hansı məqsədlər üçün hazırlanıb?
   b) Şəkildəki telefonu müasir dövrdə işlətsək, hansı problemlərlə qarşılaşarıq? Nə üçün?
   c) Cihaz müasir smartfonlardan qiymətinə, satışına və populyarlığına görə necə fərqlənir?
3. C şəklində təsvir edilənlərlə şirkət dünyaya hansı mesajı vermək istəyirdi?
4. D qrafikinə əsasən tapşırıqları yerinə yetirin.
   a) Şirkətlərin illik bazar paylarındakı dəyişiklikləri müqayisə edin.
   b) "Nokia"nın satışda geriləməsinin səbəblərini izah edin.
5. E məqaləsində verilən informasiyaya görə şirkət rəhbərliyi hansı addımları atmağa məcbur olmuşdu?

Layihə

# 4.2 QLOBALLAŞMA NƏDİR?

## İZAHETMƏ

Gündəlik həyatda istifadə etdiyimiz ərzaq məhsulları, geyimlər, mobil telefonlar, kompüterlər və s. mallar dünyanın müxtəlif ölkələrində istehsal olunur. İstehsal olunan məhsullar ayrı-ayrı ölkələrdə fərqli şirkətlər tərəfindən hazırlanaraq bütün dünyada satılır. Bu, ölkələr arasında sıx qarşılıqlı əlaqələrin olmasının, yəni qloballaşmanın təzahürüdür. **Qloballaşma** dünya ölkələri və regionları arasında iqtisadi, siyasi və sosial sahələrdə baş verən inteqrasiya prosesidir. Bu proses 3 mərhələyə ayrılır.

XV əsrə qədər — XV–XX əsrlər — XXI əsrin əvvəlindən indiyə qədər





1. Erkən mərhələ — 2. Böyük coğrafi kəşflər və sənaye inqilabı mərhələsi — 3. Müasir mərhələ

**A.** Qloballaşmanın mərhələləri

Qloballaşmanın erkən mərhələsində dünya bazarının ilkin forması yaranmağa başladı. Onun formalaşmasında Böyük İpək yolu əsas rol oynamışdı. Bu ticarət marşrutu uzun müddət Asiya, Avropa və Afrika ölkələri arasında əlaqələr yaratmışdı. Böyük İpək yolu vasitəsilə Çin ipəyi, Hindistan ədviyyatı və Mərkəzi Asiyanın qiymətli daşlarının Avropa məhsulları ilə mübadiləsi təmin edilirdi. Böyük İpək yolu sosial baxımdan xalqlar arasında ünsiyyət körpüsü rolunu oynayırdı. Bu yolun təsiri nəticəsində Səmərqənd, Buxara, Təbriz, İstanbul şəhərləri çoxmillətli və çoxdilli qlobal mərkəzlərə çevrilmişdi.

Böyük İpək yolu ilə Çindən kağız, barıt, kompas və s. digər Şərq ölkələrindən isə riyaziyyata və təbabətə aid kitablar Avropaya ötürülmüşdü. Nəticədə İpək yolu elmi, iqtisadi və mədəni inteqrasiyanı formalaşdıraraq qloballaşmanın başlanğıcını qoydu.

### COĞRAFİ FAKT

*Tarixi İpək yolunda yola çıxan karvanlarda bəzən minlərlə dəvə olurdu. Bu karvanlarla təkcə tacirlər deyil, musiqiçilər, həkimlər, aşpazlar və sənətkarlar səyahətə çıxırdı. Səhraları keçərkən öz sarvanı, qayda-qanunu və gündəlik həyat tərzi olan hər bir karvan sanki səyyar şəhərlərə çevrilirdi.*



**B.** İpək yolu

Layihə

Qloballaşmanın ikinci mərhələsi Böyük coğrafi kəşflər dövründə Yeni Dünyaya doğru daha da genişləndi. Xristofor Kolumbun Amerikaya səfəri (1492-ci il), Vasko da Qamanın Hindistana dəniz yolu tapması (1498-ci il), Fernan Magellanın dünya səyahəti (1519–1522-ci illər) və s. hadisələr qitələri bir-birinə inteqrasiya etdirdi. Bu proseslər sonrakı əsrlərdə baş verəcək sənaye inqilabı üçün zəmin yaratdı.

Sənaye inqilabı XVIII əsrin sonlarında İngiltərədə başlayaraq qısa müddət ərzində Avropa, Amerika və digər qitələrə yayıldı. Nəticədə isə istehsal üsullarında, texnologiyada və cəmiyyətin həyat tərzində köklü dəyişikliklər baş verən bir mərhələ formalaşdı. Bu mərhələdə dünya iqtisadiyyatı kənd təsərrüfatına əsaslanan sistemdən sənaye və texnologiya yönümlü bir sistemə keçdi. Sənaye inqilabı nəqliyyat və kommunikasiya sahəsində də yeniliklərə yol açdı. Buxar mühərrikli qatarların və gəmilərin, daha sonra isə teleqrafın ixtirası qitələr arasındakı əlaqələri sürətləndirdi.

Qloballaşmanın müasir mərhələsi XXI əsrdə sürətlə inkişaf edən informasiya və rəqəmsal texnologiya əsrini əhatə edir. Bu mərhələ əvvəlki dövrlərdən fərqli olaraq təkcə insanların və məhsulların deyil, məlumatların, biliklərin və yüksək texnologiyaların da qlobal miqyasda inkişafı ilə xarakterizə olunur. Hazırda rəqəmsal texnologiyaların, kompüterlərin, internetin və mobil rabitənin inkişafı ilə dünya vahid informasiya məkanına çevrilib. Belə ki, internetin, kommunikasiya vasitələrinin sayəsində şirkətlər arasında əməkdaşlıq daha sürətli formada həyata keçirilir. Bu dövrdə zaman və məkan anlayışı dəyişib, "məsafələr azalıb".

Müasir mərhələdə rəqəmsal iqtisadiyyat formalaşmış, elektron ticarət, onlayn xidmətlər, kriptovalyutalar və süni intellekt kimi yeniliklər isə beynəlxalq iqtisadi münasibətləri köklü şəkildə dəyişmişdir. Rəqəmsal mərhələdə elmi əməkdaşlıq və bilik mübadiləsi proseslərinə daha çox önəm verilir. Bu gün elm və texnologiya sahəsində həyata keçirilən beynəlxalq layihələr, onlayn tədqiqat şəbəkələri və virtual təhsil sistemləri dünyanın müxtəlif regionlarını bir-birinə daha sıx bağlayıb.



**C.** İlk mühərrikli toxuma cihazı




**D.** Avtomobil şirkətinin müxtəlif illərdə istehsal etdiyi maşınlar

**FƏALİYYƏT**

1. Qloballaşma prosesinin mərhələləri bir-birindən nə ilə fərqlənir?
2. İpək yolu marşrutunun qloballaşmanın inkişafındakı rolunu müzakirə edin.
3. Nə üçün "Sənaye inqilabı" dövründə ilk mühərrikli cihazın meydana gəlməsi qloballaşma prosesində böyük rol oynadı?
4. D şəklindəki təsvirlərə əsasən suallara cavab verin.
   a) 1-ci və 2-ci şəkillərdəki təsvir edilən maşınlar bir-birindən necə fərqlənir?
   b) Şəkillərdəki maşınlarda baş verən dəyişiklik qloballaşma prosesi ilə necə əlaqəlidir?
5. Gün ərzində istifadə etdiyiniz hansı məhsul qloballaşma ilə əlaqəlidir?

Layihə

# 4.3 QLOBALLAŞMA NECƏ BAŞ VERİR?

## İZAHETMƏ

Qloballaşma dünya miqyasında gedən ən sürətli proseslərdən biridir. Zaman keçdikcə bu proses daha da sürətlənir və insanların həyatına ciddi təsir göstərir. Bəs qloballaşma necə baş verir? Qloballaşma prosesi müxtəlif amillərin təsiri ilə baş verir.

**QLOBALLAŞMA**

1. Texnoloji
2. Siyasi
3. İqtisadi
4. Sosial
5. Ekoloji




**A.** Müxtəlif illərdə istehsal edilən qatarlar

Texnoloji amil qloballaşmanın yaranması və inkişafında ən mühüm amillərdən biridir. Texnoloji yeniliklər ildən-ilə insanların həyat tərzini dəyişmiş, dövlətlər arasındakı əlaqələr daha da dərinləşmişdir. XXI əsrdə baş verən texnoloji tərəqqi dünyanın müxtəlif regionlarını bir-birinə daha sıx birləşdirərək "qlobal kənd" anlayışını reallaşdırmışdır. Müasir dövrdə isə texnologiya iqtisadi, siyasi və sosial inteqrasiyanın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Məsələn, nəqliyyat texnologiyalarının inkişafı bu prosesdə daha böyük rola malikdir. Keçmişdə böyük məsafələrin qət edilməsinə aylarla vaxt sərf olunurdusa, bu gün təyyarələr və sürətli qatarlar sayəsində həm yük, həm də sərnişin daşımaları qısa müddətdə həyata keçirilir. Bu zaman beynəlxalq ticarətin həcmi artdığına görə ölkələr arasında iqtisadi asılılıq da güclənir.

İnformasiya və rabitə texnologiyalarının inkişafı da qloballaşmanın ən güclü dayaqlarından biridir. İnternetin, peyk rabitəsinin, kompüter texnologiyalarının və mobil cihazların inkişafı sayəsində insanlar arasındakı əlaqə sürətlə artıb. Sosial media platformaları, onlayn ticarət, rəqəmsal xidmətlər dünyanın müxtəlif ölkələrində yaşayan insanları və onların çalışdıqları şirkətləri əlaqələndirir. Bu proses nəticəsində isə həm qlobal informasiya mühiti formalaşır, həm də sosial mübadilə və beynəlxalq əməkdaşlıq dərinləşir.




**B.** Dünya əhalisinin internetdən istifadə xəritəsi

Siyasi amil qlobal inteqrasiyanın hüquqi və inzibati sahələrdə təzahürü deməkdir. Ölkələr arasında siyasi, iqtisadi və sosial əlaqələrin inkişafı üçün dünyada sabit və dinc şəraitin formalaşması çox əhəmiyyətlidir. Qloballaşma prosesində hər bir dövlətin daxili və xarici siyasəti, beynəlxalq təşkilatlara inteqrasiya etməyə və təhlükəsizlik sahəsində əməkdaşlığa önəm verməsi onun daha sürətlə inkişafına səbəb olur.

Ölkələrin apardığı daxili və xarici siyasətə görə qloballaşmanın sürəti, istiqaməti və əhəmiyyəti müəyyən edilir. Bu siyasət qlobal-

Layihə

laşmanın həm dərinləşdirilməsi, həm də məhdudlaşdırılması istiqamətində aparıla bilər. Dövlətlərin apardığı siyasətin qloballaşmaya təsiri ölkədə qəbul edilən qanunlar, həyata keçirilən iqtisadi siyasət və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xidmət edən qərarlar vasitəsilə baş verir.

İqtisadi amilin qloballaşmaya təsiri dövlətlərin həyata keçirdiyi iqtisadi siyasətdə reallaşır. Ölkələrin vergi və miqrasiya siyasəti, rəqəmsal təhlükəsizlik, ətraf mühitin mühafizəsi və s. sahələr üzrə qəbul etdiyi qərarlar beynəlxalq şirkətlərin fəaliyyətinə təsir göstərir. Məsələn, ekoloji standartların və ya süni intellektlə bağlı qaydaların qlobal səviyyədə razılaşdırılması dövlətlərin qloballaşma prosesində iştirakını gücləndirir. Dövlətin iqtisadi siyasəti xarici ticarətin inkişafına, beynəlxalq investisiyaların cəlb olunmasına və texnoloji yeniliklərin yayılmasına şərait yaradır. Gömrük rüsumlarının azaldılması, sərbəst ticarət sazişlərinin imzalanması və sərmayə üçün əlverişli hüquqi mühitin yaradılması qlobal iqtisadi inteqrasiyanın dərinləşməsinə səbəb olur.



**C.** BMT-nin pandemiyanın qarşısının alınmasına dair sessiyası (2023-cü il)

İqlim dəyişikliyi, terrorizm, iqtisadi böhranlar, miqrasiya, pandemiyalar və s. problemlər qlobal xarakter daşıdığı üçün onların həlli yalnız beynəlxalq təşkilatların birgə fəaliyyəti ilə mümkündür. Bu səbəbdən beynəlxalq təşkilatların üzvü seçilən hər bir dövlət həm öz milli maraqlarını müdafiə edir, həm də qlobal sabitlik və inkişaf proseslərinə töhfə vermiş olur. Əməkdaşlıq fəaliyyəti dövlətlərə beynəlxalq arenada nüfuz qazanmaq, iqtisadi və sosial inkişafı təmin etmək, həmçinin qlobal sabitlik və təhlükəsizliyi qorumaq kimi imkanlar yaradır.

Qloballaşma dövründə dünyada dövlətlərarası əlaqələrin artması, informasiya axınının sürətlənməsi və iqtisadi əlaqələrin dərinləşməsi ilə yanaşı, müəyyən təhlükələr də meydana çıxır. Hazırda təhlükəsizlik anlayışı yalnız hərbi müdafiə ilə məhdudlaşmır. Bu anlayış siyasi, iqtisadi, ekoloji, informasiya və sosial sabitliyi də əhatə edir. Bu səbəbdən bütün ölkələrdə qloballaşmanın yaratdığı çağırışlara cavab vermək üçün təhlükəsizliyə yönəlmiş genişmiqyaslı fəaliyyətlər həyata keçirilir.

Dövlətlərin təhlükəsizlik siyasətinin əsas məqsədi milli suverenliyin, ərazi bütövlüyünün və siyasi sabitliyin qorunmasıdır. Lakin qloballaşma şəraitində bu anlayış daha geniş mənada beynəlxalq və kollektiv təhlükəsizliklə əlaqələndirilir. Ölkələrdə artıq təhlükəsizlik məsələlərinin təkbaşına deyil, beynəlxalq əməkdaşlıq və müştərək mexanizmlər vasitəsilə həll edilməsinə üstünlük verilir.




**D.** Dünyanın təhlükəsizlik riski xəritəsi (2025-ci il)

**FƏALİYYƏT**

1. A şəklindəki 1-ci və 2-ci qatarları fərqləndirin. Onları qloballaşma prosesi ilə necə əlaqələndirmək olar?
2. B xəritəsinə əsasən Azərbaycanda internetdən istifadə edən əhalinin faizini tapın və nəticəni digər ölkələrlə müqayisə edin.
3. Siyasi amildə ən böyük aktor kimdir və qloballaşmada onun rolu nədən ibarətdir?
4. C şəklinə və D xəritəsinə əsasən suallara cavab verin.
   a) C şəklində sessiya iclasının təsviri verilən təşkilat haqqında nə deyə bilərsiniz? Sizcə, bu təşkilatda daha hansı məsələlər müzakirə edilir?
   b) D xəritəsinə əsasən təhlükəsizlik riski az olan dövlətlər hansılardır? Bunun səbəbi nə ola bilər?

Layihə

# 4.4 İQTİSADİ QLOBALLAŞMA

## İZAHETMƏ

Qloballaşmada iqtisadi amil həlledici rola malikdir. Bu, ölkənin inkişafına təsir edən istehsal, mübadilə və istehlak proseslərinin məcmusudur. Qloballaşma şəraitində dövlətlər arasında qarşılıqlı əlaqələrin genişlənməsi, iqtisadi sərhədlərin nisbətən aradan qalxması və dünya bazarının formalaşması məhz bu amillə bağlıdır. Bu, ölkələrin bir-biri ilə məhsul, xidmət, kapital, texnologiya və işçi qüvvəsi axını vasitəsilə əlaqə qurmasında öz əksini tapır. İqtisadi proseslər nəticəsində hər bir ölkənin milli iqtisadiyyatı tədricən qlobal iqtisadi sistemin tərkib hissəsinə çevrilir. İqtisadi amilin qloballaşmaya 4 istiqamətdən təsiri olur.



- Beynəlxalq ticarət
- Kapital axını
- Beynəlxalq şirkətlər
- Əmək ehtiyatları miqrasiyası

İqtisadi qloballaşmanın istiqamətləri




**A.** Məhsul və xidmətlərin qlobal ticarəti

***Beynəlxalq ticarət*** ölkələr arasında malların və xidmətlərin mübadiləsi prosesidir. Dövlətlərin bir-biri ilə ticarət əlaqələri dünya bazarını formalaşdırır. Beynəlxalq ticarətin inkişafı hər bir ölkənin istehsal üstünlüyünə malik sahədə ixtisaslaşmasına səbəb olur. Ticarətin genişlənməsi dünya ölkələri arasında iqtisadi əlaqələri dərinləşdirir, istehsalın beynəlmiləlləşməsinə və yeni texnologiyaların yayılmasına şərait yaradır.

Beynəlxalq ticarətin inkişafında nəqliyyat və texnologiya sahələrinin təkmilləşməsi mühüm rol oynayır. Məsələn, internet və elektron ticarətin inkişafı nəticəsində məhsulların dünya bazarında satış imkanları genişlənir, istehlakçılara müxtəlif çeşidli daha çox məhsul təklif edilir.

**Kapital axını** bir ölkədən digər ölkəyə pul və investisiya resurslarının köçürülməsi prosesidir. Bu axının əsas məqsədi sərmayəni daha səmərəli sahələrə yönəldərək yüksək gəlir əldə etmək və iqtisadi artımın sabitliyini təmin etməkdir. İnkişaf etmiş ölkələr öz maliyyə resurslarını inkişaf etməkdə olan ölkələrə yatırmaqla həm mənfəət qazanır, həm də həmin ölkələrin iqtisadi inkişafına töhfə vermiş olur. İran körfəzi ölkələrini nümunə göstərmək olar. Xarici investisiyalar yeni iş yerlərinin açılmasına, müasir texnologiyaların tətbiqinə və infrastrukturun inkişafına şərait yaradır. Kapital axınının artması nəticəsində qlobal maliyyə bazarı daha da formalaşır, ölkələr arasında iqtisadi inteqrasiya dərinləşir. Ölkələr bir-birinə o qədər bağlanır ki, birində baş verən maliyyə dəyişiklikləri digər ölkələrin iqtisadiyyatına da təsir göstərir.




**B.** Kapital axını

Amma bəzən kapital axını mənfi nəticələrə də gətirib çıxarır. Məsələn, kapital axını iqtisadi sabitliyi zəiflədə və xarici kapitaldan asılılığı artıra bilər. Lakin bu proses qloballaşmanın

Layihə

təkanverici qüvvələrindən biri hesab olunur. Çünki sərmayə axını dünya iqtisadi sisteminin bir-birinə bağlılığını və qarşılıqlı təsirini daha da gücləndirir.




C. Dünyanın transmilli şirkətləri

***Beynəlxalq şirkətlər*** qloballaşmanın inkişafına ən güclü təsir göstərən iqtisadi amillərdən biridir. Transmilli korporasiyalar bir ölkəyə məxsus olsa da, eyni vaxtda bir neçə ölkədə fəaliyyət göstərən, istehsal, satış və idarəetmə sistemlərini beynəlxalq səviyyədə təşkil edən çox böyük iqtisadi qurumlardır. Dünyanın müxtəlif regionlarında filiallar, zavodlar və satış şəbəkələri yaradan bu qurumların məqsədi qlobal iqtisadi inteqrasiyanı sürətləndirməkdir. Transmilli şirkətlər qloballaşmanın aparıcı qüvvələrindən sayılır, çünki onlar ölkələr arasında kapital, texnologiya və məlumat mübadiləsini təmin edir. Belə şirkətlər istehsalın müxtəlif mərhələlərini fərqli ölkələrdə yerləşdirərək xərclərin azaldılmasına, gəlirlərin isə artmasına üstünlük verir. Məsələn, hər hansı bir məhsulun dizaynı ABŞ-də, istehsalı Asiyada, satışı isə Avropada həyata keçirilə bilər.

Beynəlxalq şirkətlərin fəaliyyəti nəticəsində istehsala yeni texnologiyalar gətirilərək onların idarəetmə təcrübələri yayılır, yerli iqtisadiyyatda yeni iş yerləri yaradılır, məhsul və xidmətlərin keyfiyyəti yüksəlir. Bu şirkətlər bəzən yerli bazarlara təsir göstərib qlobal iqtisadi siyasəti istiqamətləndirə də bilir. Transmilli korporasiyalara "Apple", "Microsoft", "Toyota", "Samsung", "Coca-Cola" və s. dünya miqyasında tanınmış şirkətləri misal göstərmək olar.

***Əmək ehtiyatlarının miqrasiyası*** insanların iş, yüksək əməkhaqqı və yaşayış standartı əldə etmək məqsədilə bir ölkədən digərinə köçməsidir. Miqrasiya iqtisadi, sosial və siyasi amillərlə əlaqədar olsa da, qloballaşma dövründə onun əsas səbəbi iqtisadi maraqlardır. İşçi qüvvəsinin beynəlxalq miqrasiyası nəticəsində ölkələr arasında əmək bazarının formalaşması qlobal xarakter alır. Belə ki, inkişaf etmiş ölkələrdə işçi qüvvəsi çatışmazlığı, inkişaf etməkdə olan ölkələrdə isə işsizlik problemi mövcuddur. Bu səbəbdən əmək miqrasiyası ölkələr arasında bir növ tənzimləyici rol oynayır.




D. Beynəlxalq əmək ehtiyatlarının miqrasiyası (2022)

Miqrant işçilər qazandıqları gəlirin bir hissəsini öz ölkələrinə göndərirlər. Bu pul köçürmələri (remitans) həmin ölkələrin iqtisadiyyatı üçün əlavə gəlir mənbəyi yaradır və ailələrin yaşayış səviyyəsini yüksəldərək onların sosial rifahının artmasına imkan verir. Miqrasiya həmçinin təcrübə, bilik və bacarıqların ötürülməsinə də şərait yaradır.

Əmək ehtiyatları miqrasiyasının bəzi mənfi təsirləri də var. “Beyinlər axını” və sosial uyğunlaşma problemləri miqrant ölkələr üçün mənfi nəticələr yarada bilər. Buna baxmayaraq ümumilikdə bu proses dünya əmək bazarının inteqrasiyasını gücləndirir, sosial əlaqələri artırır və qloballaşmanın iqtisadi əsaslarını möhkəmləndirir.

**FƏALİYYƏT**

1. A qrafikini təhlil edin. Məhsul və xidmətlər hansı ildə minimum səviyyədə olmuşdur? Səbəbini izah edin.
2. B şəklinə əsasən kapital axını qloballaşmanı necə formalaşdırır?
3. C şəklində təsvir olunan məhsulundan istifadə etdiyiniz qlobal şirkətlərdən birini seçin və həmin şirkətin qloballaşma prosesindəki rolunu izah edin.
4. D diaqramına əsasən tapşırıqları yerinə yetirin.
   a) Diaqrama əsasən işləməkdən yayınanların və əmək qabiliyyəti olmayanların sayını tapın.
   b) Diaqramda verilən miqrantların ölkələr üçün sərfəliliyini təhlil edin.

Layihə

# 4.5 SOSİAL VƏ EKOLOJİ QLOBALLAŞMA

## İZAHETMƏ

Sosial qloballaşma insanların qarşılıqlı münasibətlərini, mədəniyyətlərin inteqrasiyasını, informasiya və bilik mübadiləsini təmin edən ünsiyyət prosesidir. Burada mədəniyyət, təhsil, informasiya və kommunikasiya sahələri mühüm yer tutur.




**A.** Şuşada keçirilən beynəlxalq musiqi festivalı (2024)



**B.** Universitet məzunları



**C.** Sosial media platformaları

Müxtəlif xalqlar arasında mədəni dəyərlərin, adət-ənənələrin, dillərin, musiqinin, modanın və həyat tərzinin yayılması sosial inteqrasiyanı gücləndirir. Kütləvi informasiya vasitələrinin və beynəlxalq mədəni əlaqələrin möhkəmlənməsindən ötrü keçirilən dünya miqyaslı tədbirlərin sayəsində insanlar bir-birinin mədəniyyətlərini tanıyıb qəbul edir, xalqlar arasında qarşılıqlı ünsiyyət daha da artır. Nəticədə isə yerli mədəniyyətlər qarşılıqlı təsirə məruz qalaraq qlobal mədəni mühiti formalaşdırır.

Təhsil insanların dünyagörüşünü formalaşdıran və onları sosial cəhətdən birləşdirən mühüm sahədir. Beynəlxalq təhsil proqramları, tələbə mübadiləsi və xaricdə təhsil imkanları insanların fərqli mədəniyyətləri tanımasına, qlobal düşüncə tərzi qazanmasına şərait yaradır. Elmi biliklərin mübadiləsi nəticəsində müxtəlif ölkələrdən olan insanlar arasında qarşılıqlı anlaşma və əməkdaşlıq inkişaf edir.

Bu gün bütün məlumatlar yeni kommunikasiya vasitələri ilə dünyada istənilən əraziyə eyni anda asanlıqla çatdırılır. İnternet, sosial media, mobil rabitə və kütləvi informasiya vasitələri ilə insanlar arasındakı əlaqə qlobal səviyyədə həyata keçirilir. Nəticədə isə dünya vahid sosial informasiya məkanına çevrilir.

Ekoloji amil qloballaşma prosesini gündən-günə daha da aktuallaşdırır. Ətraf mühitin çirklənməsi, iqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi və s. problemlər qlobal xarakter alır. Belə ki, təbiətin mühafizəsi və ekoloji tarazlığın qorunması bütün ölkələr üçün ən vacib məsələlərdən biridir. Bu problemlərin həlli isə yalnız ayrı-ayrı dövlətlərin deyil, bütün bəşəriyyətin birgə səyi ilə mümkündür.

İnsanın təsərrüfat fəaliyyəti nəticəsində ekoloji problemlər qloballaşmaya səbəb olur. Çünki təbiətdə baş verən dəyişikliklər yalnız bir ölkənin sərhədləri daxilində məhdudlaşmır, əksinə, bütün dünyada ekosistemə təsir göstərir. Məsələn, atmosferə atılan istixana qazları nəticəsində iqlim dəyişikliyi baş verir, meşələrin qırılması, torpaqların eroziyası, tullantıların çoxalması, sənaye məhsullarının istehsalı zamanı çirklənmənin artması və s. problemlər ekosistemlərin tarazlığını pozur. Bu dəyişikliklər bütün ölkələrdə hava şəraitinə, kənd təsərrüfatına və insanların yaşayış tərzinə mənfi təsir göstərir. Ekoloji böhranların beynəlxalq xarakter daşıması səbəbindən ölkələr arasında əməkdaşlıq zərurəti də artır. Nəticədə beynəlxalq ekoloji təşkilatlar yaranır.

**Beynəlxalq ekoloji təşkilatlar**

| Adı | Funksiyası |
|---|---|
| BMT-nin Ətraf Mühit Proqramı *(UNEP)* | Ətraf mühitin qorunması, ekoloji siyasətlə bağlı proqramların hazırlanması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində fəaliyyət göstərir |
| Ümumdünya Təbiəti Mühafizə Fondu *(WWF)* | Təbiətin, nəsli kəsilməkdə olan heyvanların və meşə ekosistemlərinin mühafizəsi sahəsində işlər görür |
| Qrinpis *(Greenpeace)* | Məqsədi dinc aksiyalar keçirməklə və ictimai təzyiq yolu ilə ətraf mühitin çirklənməsinin qarşısını almaqdır |
| İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel *(IPCC)* | Qlobal iqlim dəyişikliyi barədə elmi məlumatlar toplayır və dövlətlərə bu istiqamətdə tövsiyələr verir |

Qlobal ekoloji siyasətin formalaşmasına dəstək olan bu təşkilatlar vasitəsilə beynəlxalq razılaşmalar imzalanır, ekoloji idarəetmə mexanizmləri həyata keçirilir. Belə təşkilatlar həm də ekoloji standartları müəyyənləşdirir, beynəlxalq səviyyəli tədbirlər və ekoloji maarifləndirmə işləri həyata keçirir.




**FƏALİYYƏT**

1. A, B və C şəkillərindəki təsvirlər qloballaşmaya necə təsir edir?
2. Mədəniyyətlərin inteqrasiyası necə baş verir? Buna dair nümunələr göstərin.
3. C şəklində təsvir olunan sosial media şəbəkələrindən hansı məqsədlərlə istifadə edirsiniz?
4. Təbiətə mənfi təsir göstərən ciddi ekoloji problemlərə aid bir neçə nümunə göstərin. Həmin problemlərin həllində hansı ekoloji təşkilatın rolu daha böyükdür?

Layihə

# 4.6 MÜASİR QLOBALLAŞMANIN NƏTİCƏLƏRİ

## İZAHETMƏ

Qloballaşma ölkələr arasında müxtəlif sahələrdə olan əlaqələri gücləndirən çoxşaxəli prosesdir. Bu prosesin genişlənməsi və dərinləşməsi beynəlxalq təşkilatların yaranması ilə nəticələnir. Bu təşkilatlar qloballaşmanın istiqamətlərinə uyğun olaraq aşağıdakı kimi qruplaşdırılır:




**Qlobal təşkilat** çoxsaylı dövlətlər tərəfindən yaradılan, onların ümumi maraqlarını qoruyan və ölkələrarası əlaqələri tənzimləyən rəsmi qurumdur. Bu təşkilat dünyada sülhün qorunması, iqtisadi inkişafın təmin olunması, insan hüquqlarının müdafiəsi, təhlükəsizlik və qarşılıqlı yardım kimi məsələlərdə ölkələrin fəaliyyətini əlaqələndirir. Qlobal təşkilata daxil olan dövlət onun fəaliyyətində iştirak edir, verilən qərarları həyata keçirib reallaşdırır. Qlobal təşkilatın fəaliyyəti beynəlxalq səviyyədə əməkdaşlığın güclənməsinə, münaqişələrin azaldılmasına və problemlərin birgə həllinə yönəlmiş olur.

**Regional təşkilat** müəyyən coğrafi ərazidə yerləşən ölkələrin arasında fərqli sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə yaradılmış bir qurumdur. Bu təşkilatın əsas məqsədi region daxilində sülh və təhlükəsizliyi qorumaq, iqtisadi inteqrasiyanı gücləndirmək, sosial əməkdaşlığı inkişaf etdirmək və regional problemlərin birgə həllinə nail olmaqdır.

| | |
|---|---|
| BMT (UN) | Birləşmiş Millətlər Təşkilatı |
| NATO | Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| ATƏT (OSCE) | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| ASEAN | Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası |
| DB (WB) | Dünya Bankı |
| Aİ (EU) | Avropa İttifaqı |
| USMCA | ABŞ–Meksika–Kanada Ticarət Sazişi |
| AİB (ADB) | Asiya İnkişaf Bankı |
| ÜTT (WTO) | Ümumdünya Ticarət Təşkilatı |
| BVF (IMF) | Beynəlxalq Valyuta Fondu |
| OECD | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| OPEC | Neft İxrac Edən Ölkələr Birliyi |
| UNESCO | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| UNICEF | Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu |
| ÜST (WHO) | Ümumdünya Səhiyyə Təşkilatı |
| TDT (OTS) | Türk Dövlətləri Təşkilatı |
| ŞƏT (SCO) | Şanxay Əməkdaşlıq Təşkilatı |
| G20 | İyirmilər qrupu |
| BRICS | Braziliya, Rusiya, Hindistan, Çin, CAR |

*Beynəlxalq siyasi təşkilatların* əsas məqsədi dünyada sülh və təhlükəsizliyi təmin etmək və münaqişələrin qarşısını almaqdır. Ölkələr arasında qarşılıqlı etimadın olması və əməkdaşlığın artması insanların əmin-amanlıq şəraitində, dinc yaşaması üçün çox önəmlidir.

*Beynəlxalq iqtisadi təşkilatlar* ticarəti tənzimləmək, maliyyə sabitliyini qorumaq və iqtisadi böhranların qarşısını almaq məqsədilə yaradılır. Bu təşkilatlar qlobal iqtisadi inkişaf istiqamətində fəaliyyət göstərir, zəif inkişaf etmiş ölkələri maliyyə və texniki yardımla təmin edir.

Beynəlxalq sosial təşkilatlar isə dünyada sosial sahədə əməkdaşlığı gücləndirmək və insanların rifah səviyyəsini artırmaq məqsədlə yaradılır. Yoxsulluğu azaltmaq, sosial ədaləti və bərabərliyi təmin etmək, təhsil, səhiyyə, əmək hüquqları və s. sahələrin inkişaf etdirilməsi bu təşkilatların əsas fəaliyyət istiqamətləridir.

Layihə

Qloballaşma dünya xalqlarını həm birləşdirən, həm də yeni problemlər yaradan mürəkkəb bir prosesdir. Onun müsbət tərəflərindən düzgün istifadə etmək, mənfi təsirlərini isə azaltmaq üçün ölkələr arasında ədalət və məsuliyyətə əsaslanan münasibətlərin qurulması çox əhəmiyyətlidir.

Qloballaşma nəticəsində bir çox ölkələrin milli mədəniyyətləri zamanla dəyişməyə başlayıb. Məsələn, Qərb mədəniyyətinin sürətlə yayılması yerli adət-ənənələrin və milli dəyərlərin arxa plana keçməsinə səbəb olub. Qloballaşmadan əvvəl milli geyimlər, xalq musiqisi, ənənəvi yeməklər və mərasimlər gündəlik həyatın əsas hissəsini tuturdusa, hazırda bu mədəniyyətlər tədricən öz yerini qlobal modaya, pop musiqisinə, fərqli yemək növlərinə dəyişib. Bu dəyişiklik nəticəsində isə insanlar getdikcə bir-birinə bənzəyir və dünyada mədəni fərqliliklər azalır. Qloballaşmanın təsiri ilə gənc nəsil xarici dillərə, əcnəbi musiqiyə və geyim tərzinə üstünlük verdiyi üçün milli kimliyin, ənənəvi ailə münasibətlərinin və ictimai dəyərlərin yeni xüsusiyyətlərlə əvəzlənməsi halları müşahidə edilir.




**A.** Cənubi Koreyada dəyişən geyim tərzi




**B.** Qloballaşmanın müsbət və mənfi cəhətləri

**FƏALİYYƏT**

1. Aşağıdakı mətnə əsasən suallara cavab verin. *2008-ci ildə dünya iqtisadiyyatında qlobal maliyyə böhranı baş verdi. Bank sistemlərinin çökməsi, istehsalın azalması və işsizliyin artması nəticəsində bir çox ölkələrin iqtisadiyyatı zəiflədi. İqtisadi durğunluq bəzi dövlətlərdə milli valyutanın dəyərdən düşməsi və inflyasiyanın artmasına gətirib çıxardı.*
   a) Bu hadisə ilə qloballaşma arasında hansı əlaqə var?
   b) Problemin həllinə hansı beynəlxalq təşkilatlar kömək edə bilərdi?
2. A şəklində verilən 1-ci və 2-ci təsvirlər bir-birindən necə fərqlənir?
   Təsvirlərdə qloballaşmanın hansı xüsusiyyəti göstərilir?
3. B sxemində verilən müsbət və mənfi cəhətlərin hər birinə aid 2 nümunə göstərərək izah edin.

Layihə

# 4.7 QLOBALLAŞMANIN PERSPEKTİVLƏRİ

## İZAHETMƏ

Qloballaşma prosesində inkişaf etmiş ölkələr bir-biri ilə daha sıx inteqrasiya edir. Müasir dövrdə informasiyanın, kapitalın və texnologiyanın sərhədləri aşaraq sərbəst hərəkəti hər kəsə məlumdur. Qloballaşmaya dəstək verən ölkələr və beynəlxalq qurumlar bu prosesi iqtisadi inkişafın, əməkdaşlığın və sülhün əsas amili kimi dəyərləndirir. Onların fikrincə, qloballaşma dünya xalqları arasında qarşılıqlı anlaşmanı və rifah səviyyəsini artırır. Lakin qloballaşmanın mənfi təsirləri ilə bağlı narahatlıqlar da mövcuddur. Bəzi ölkə və təşkilatlar bu prosesin milli mədəniyyətlərin zəifləməsinə, iqtisadi bərabərsizliyin və sosial ədalətsizliyin artmasına səbəb olacağını proqnozlaşdırır. Buna görə də qloballaşma həm dəstəkçiləri, həm də tənqidçiləri olan bir prosesdir.




**A.** ABŞ-də antiqlobalist hərəkatı (1999-cu il)

Tənqidçilər, yəni antiqlobalistlər qloballaşma prosesinə tənqidi yanaşır və onun mənfi nəticələrinə qarşı çıxırlar. Qruplar və ya ictimai hərəkatlarda birləşən antiqlobalistlər belə hesab edirlər ki, qloballaşma bərabərsizliyə, milli suverenliyin zəifləməsinə və iqtisadi güclərin maraqlarına xidmət edir. "Antiqlobalizm" anlayışı XX əsrin sonlarından etibarən geniş yayılmış, 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində güclü ictimai-siyasi hərəkat formasını almışdır. Hərəkatın əsas məqsədi qloballaşmanın dayandırılması deyil, onun ədalətli, sosial yönümlü və dayanıqlı şəkildə həyata keçirilməsinə nail olmaqdır. Antiqlobalistlər beynəlxalq iqtisadi münasibətlər sistemində yalnız böyük dövlətlərin deyil, bütün xalqların maraqlarının nəzərə alınmasını istəyirlər. Onlar sosial ədalətin təmin olunması, əmək və insan hüquqlarının qorunması, mədəni müxtəlifliyin və yerli dəyərlərin saxlanılması, həmçinin ətraf mühitin mühafizəsi naminə fəaliyyət göstərirlər. Antiqlobalistlərin əsas tələbləri arasında transmilli şirkətlərin fəaliyyətinə nəzarətin gücləndirilməsi, beynəlxalq maliyyə qurumlarının qərarlarında sosial və ekoloji məsuliyyətin artırılması, qloballaşmadan əldə olunan gəlirlərin ədalətli bölüşdürülməsi məsələləri önəmli yer alır. Bu səbəbdən bəzi ölkələrdə qloballaşmaya alternativ modellər tətbiq edilir.

| **Qloballaşmaya alternativ modellər** | | |
|---|---|---|
| Model | Məqsəd | Nümunə |
| Regional inteqrasiya | Ölkələrin regional səviyyədə müxtəlif sahələr üzrə yaxın tərəfdaşlarla əməkdaşlıq etməsini nəzərdə tutur. Məqsəd regional iqtisadi və siyasi əlaqələr quraraq qlobal bazardan asılılığı azaltmaq və region daxilində sabit inkişafı təmin etməkdir. | Aİ (Avropa İttifaqı), TDT, ASEAN, MERKOSUR (Cənubi Amerika İqtisadi Bloku) |
| Lokal inkişaf | Yerli istehsalın inkişafına, milli dəyərlərin və adət-ənənələrin qorunmasına yönəlmiş modeldir. | "Yerli məhsul al" kampaniyaları, kiçik sahibkarlığın və kənd təsərrüfatının inkişafı, yerli idarəetmə modelləri |
| Alterqlobalizm | Qloballaşmadan əldə edilən gəlirlərdən bütün xalqların ədalətli pay almasına, sosial və ekoloji məsuliyyətin artırılmasına yönələn təkliflər edir. | Dünya Sosial Forumu, ədalətli ticarət *(Fair Trade)* hərəkatı və s. |

Layihə

Müasir qloballaşma ölkələr arasında qeyri-bərabərliyin artması ilə yanaşı, kibertəhlükəsizlik, iqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi və pandemiyalar kimi digər problemlərin həll edilməsinə də istiqamətlənmişdir. Bu fəaliyyətin əsas məqsədi problemləri həlli etməklə qloballaşmanın məsuliyyətli şəkildə idarə olunmasıdır. Qloballaşma təkcə iqtisadi və sosial sərhədlərin aradan qalxması ilə məhdudlaşmır. Gələcəkdə onun mahiyyəti dəyişə bilər. Belə ki, iqtisadiyyat sahəsində ənənəvi ticarət və istehsal əlaqələrindən daha çox, rəqəmsal və innovasiya mərkəzli inteqrasiya üstünlük təşkil edəcək. Dünya bazarında mal dövriyyəsi qədər məlumat dövriyyəsinin də gələcəkdə ön plana çıxması və qlobal texnoloji şəbəkələrin dünya iqtisadiyyatında rolunun daha da artması proqnozlaşdırılır.

Texnologiyanın sürətli inkişafı nəticəsində süni intellekt qərarvermə, ekoloji planlaşdırma, səhiyyə, logistika və s. sahələrdə əsas vasitəyə çevriləcək. Hətta gələcəkdə dövlətlər arasında "qlobal süni intellekt etikası"na dair beynəlxalq razılaşmaların imzalanması da gözlənilir. Bu, bəşəriyyət tarixində "insan – maşın əməkdaşlığı"na əsaslanan ilk qlobal idarəetmə modelinin yaranması deməkdir. Bir çox regionlarda iqlim dəyişiklikləri nəticəsində qlobal miqrasiya dalğaları gözlənilir. Bütün bu və digər səbəblərə görə gələcəkdə alternativ enerji mənbələrinin inkişafı, karbon emissiyasının azaldılması və "yaşıl texnologiyalar"ın tətbiqi qlobal əməkdaşlığın əsas məqsədlərindən biri olacaq, "yaşıl iqtisadiyyat" anlayışı yeni dünya üçün əsas prinsip kimi formalaşacaq. Gələcəkdə hər bir insanın rəqəmsal vətəndaşlığı, yəni sərhədləri aşan onlayn vətəndaşlığı ola bilər. Bu isə milli vətəndaşlıqla yanaşı, qlobal vətəndaşlıq anlayışını da formalaşdıracaq. Eyni zamanda yerli dillərin və mədəniyyətlərin qorunması üçün süni intellektdən və rəqəmsal texnologiyalardan daha geniş istifadə ediləcək.

Gələcəkdə qloballaşmanın siyasi baxımdan çoxqütblü dünya düzəni ilə səciyyələnməsi baş verə bilər. Böyük güclərin rəqabəti artdıqca qloballaşmanın daha çox texnologiya və enerji sahələrində cəmləşməsi proqnozlaşdırılır. Gələcəkdə BMT-nin və digər qurumların süni intellektlə idarə olunan qlobal sistemlərə çevrilə biləcəyi də gözlənilir.



**B.** Süni intellekt (Aİ)




**C.** Bərpa olunan enerjinin qlobal elektrik enerjisi istehsalında payı

Layihə

**FƏALİYYƏT**

1. Antiqlobalist hərəkatının meydana gəlməsinin səbəbi nədir? Antiqlobalistlərin məqsəd və tələbləri nədən ibarətdir?
2. Sizcə, hansı model qloballaşmaya alternativ ola bilər? Nə üçün?
3. Qloballaşmanın gələcəyinə dair hansı proqnozlar var? Bu proqnozlarda süni intellektin rolunu izah edin.
4. C diaqramına əsasən tapşırığı yerinə yetirin və suala cavab verin.
   a) Diaqramı təhlil edin.
   b) Sizcə, gələcəkdə elektrik enerji mənbələrində hansı dəyişikliklər gözlənilir?

# 4.8 AZƏRBAYCAN QLOBALLAŞAN DÜNYADA

## İZAHETMƏ

Qloballaşma prosesi bütün dünyada olduğu kimi ölkəmizi də əhatə edir. Bu proses nəticəsində Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənir, müasir texnologiyalar, elmi yeniliklər və inkişaf etmiş idarəetmə modelləri istehsalata tətbiq edilir. Ölkəmizdə qloballaşmanın inkişafını  iki mərhələyə ayırmaq olar.

**QLOBALLAŞMA**

1. Müstəqillikdən əvvəlki dövr (1991-ci ilə qədər)






2. Müstəqillikdən sonrakı dövr (1991-ci ildən indiyə qədər)




**A.** Azərbaycanda qloballaşma mərhələləri



**B.** Azərbaycanda neft hasilatı (1930–1950)




**C.** Rumınıyada "Arşın mal alan" filminin posteri

**1. Müstəqillikdən əvvəlki dövr.** Keçən əsrin əvvəllərindən 1991-ci ilə qədər Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) tərkibində olmuş Azərbaycanın qloballaşmada iştirakı birbaşa deyil, SSRİ-nin siyasəti və iqtisadi sistemi vasitəsilə baş verirdi. Buna baxmayaraq ölkəmizin qloballaşmanın müəyyən sahələrində özünəməxsus rolu vardı.

Həmin dövrlərdə Azərbaycanın neft sənayesi ölkəni strateji əhəmiyyətli respublikalardan birinə çevirmişdi. Belə ki, XX əsrin əvvəllərindən etibarən dünya miqyasında tanınan Bakı nefti hətta II Dünya müharibəsi illərində keçmiş SSRİ-nin enerji təminatında əsas rol oynamışdı. 1942-ci ildə Balaxanı–Sabunçu–Ramana, Bibiheybət, Qala, Lökbatan kimi yataqların hesabına Azərbaycanda 15,7 milyon ton neft hasil edilmişdi. Bu da həmin il keçmiş SSRİ-də hasil olunan 21,9 milyon ton neftin 72%-i demək idi.

Azərbaycan neft sənayesindən başqa, elm və mədəniyyətin müxtəlif sahələrində də qloballaşmaya töhfələr verirdi. Azərbaycan Dövlət Universiteti və Azərbaycan Neft və Sənaye İnstitutunda ölkə gəncləri ilə yanaşı, digər ölkələrdən gələn xarici tələbələr də təhsil alır, alimlərimiz və mədəniyyət xadimlərimiz keçmiş SSRİ-nin tərkibində beynəlxalq tədbirlərdə iştirak edirdilər. Azərbaycan musiqisi, kino və teatr sənəti beynəlxalq festivallarda uğurla nümayiş olunurdu. Məsələn, "Arşın mal alan" filmi və muğamlarımız ölkəmizin mədəni irsini dünyaya tanıtmışdı.

Layihə

Müstəqilliyə qədər davam edən qapalı siyasi rejim Azərbaycanın informasiya, ticarət, texnologiya və s. sahələrdə qlobal inteqrasiyasını məhdudlaşdırırdı. Azərbaycan vətəndaşlarının xaricə çıxışının ciddi nəzarət altında olduğu həmin illərdə ölkə səviyyəsində beynəlxalq əlaqələr də, demək olar ki, mümkün deyildi.

**2. Müstəqillikdən sonrakı dövr.** Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra fəal şəkildə siyasi, iqtisadi, sosial və ekoloji sahələrdə qlobal proseslərə qoşulmağa başladı. Ölkəmiz müstəqilliyini rəsmiləşdirəndən sonra, ilk növbədə, beynəlxalq təşkilatlara üzv olaraq dünya dövlətləri ilə diplomatik əlaqələr qurdu. Azərbaycanın BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, GUAM və Avropa Şurası kimi nüfuzlu qurumlara üzv olması ölkəmizin beynəlxalq siyasətə və qlobal proseslərə birbaşa daxil olmasına imkan yaratdı. Daha sonra enerji siyasəti vasitəsilə ölkəmizdə iqtisadiyyat inkişaf etməyə başladı. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ölkəyə böyük həcmdə xarici kapital axını gətirdi və Azərbaycan neftinin dünya bazarına çıxmasına şərait yaratdı. Bu müqavilədən sonra Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi kimi beynəlxalq enerji layihələri həyata keçirildi. Bu layihələr Azərbaycanın iqtisadi inkişafını təmin etməklə yanaşı, ölkəmizi Avropa və Asiyanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevirdi. Bu sahədə uğurların qazanılmasında milli şirkətimiz olan ARDNŞ-in (SOCAR) rolunü nümunə göstərmək olar.



**D.** "Əsrin müqaviləsi"nin imzalanması (1994-cü il)




**E.** Bakıda "Formula–1" beynəlxalq yarışı




**F.** BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ("COP29")

Azərbaycan bu gün sosial sahədə də qloballaşmanın fəal iştirakçısı kimi çıxış edir. Bakı şəhərində keçirilən beynəlxalq tədbirlər ölkəmizin dünyada tanınmasında mühüm rol oynayır. Bu tədbirlərə "Avroviziya" Mahnı Müsabiqəsi (2012), Birinci Avropa İdman Oyunları (2015), İslam Həmrəyliyi Oyunları (2017), "Formula–1" qran-priləri və s. misal göstərilə bilər. Bu gün ölkəmiz iqlim dəyişikliyi, enerji keçidi, ekoloji sabitlik və regional təhlükəsizlik kimi məsələlərdə beynəlxalq əməkdaşlığa daim dəstək verir. 2024-cü ildə Bakının BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına – "COP29"-a ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı. Müstəqillikdən sonrakı dövrdə qloballaşma prosesinə fəal şəkildə qoşulmuş Azərbaycan enerji, iqtisadiyyat, diplomatiya və mədəniyyət sahələrində həyata keçirilən siyasət nəticəsində hazırda beynəlxalq aləmdə nüfuzlu tərəfdaş kimi tanınır. Ölkəmizin adı dünya miqyaslı bir çox tədbirlərdə fəxrlə çəkilir.

**FƏALİYYƏT**

1. A sxemini təhlil edin.
2. B və C şəkillərindəki təsvirləri qloballaşma prosesi ilə əlaqələndirin.
3. Müstəqillikdən sonrakı dövrdə Azərbaycanın qloballaşma prosesindəki iştirakı hansı sahələrdə sürətləndi?
4. E və F şəkillərində təsviri verilən fəaliyyətlərin Azərbaycanda qloballaşmaya təsirini izah edin.
5. Qloballaşmaya aid gündəlik həyatınızdan nümunələr göstərin və fikrinizi izah edin.

Layihə

# DƏRİNLƏŞDİRMƏ AZƏRBAYCANDA TEXNOLOJİ QLOBALLAŞMA

Qloballaşma prosesində Azərbaycanda bir çox layihələr həyata keçirilir. Texnoloji sahədə ən böyük addımlardan biri "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yaradılmasıdır. "Azərkosmos" Azərbaycanda peyk rabitəsi və kosmik sənaye sahəsində fəaliyyət göstərən ilk milli şirkətdir. Bu dövlət müəssisəsi həm kommersiya, həm də strateji məqsədlərlə peyk xidmətləri göstərir. Hazırda "Azərkosmos"un idarə etdiyi üç əsas peyk mövcuddur.




**A.** "Azərkosmos"un peykləri



**B.** "Azersky" peyki vasitəsilə "Ağıllı kənd" layihəsinin monitorinqi

"Azərkosmos"un fəaliyyət istiqamətləri üç sahəni əhatə edir: peyk rabitəsi xidmətləri, Yerin müşahidəsi və beynəlxalq əməkdaşlıq. Peyk rabitəsi xidmətləri "Azerspace–1" və "Azerspace–2" telekommunikasiya peykləri vasitəsilə həyata keçirilir. Bu peyklər televiziya yayını, internet, telefon və məlumatların ötürülməsi xidmətlərini təmin edir. Azərbaycanla yanaşı, Avropa, Afrika, Cənub-Qərbi Asiya və Mərkəzi Asiya ölkələrindəki müştərilər də "Azərkosmos"un xidmətlərindən istifadə edir.

"Azərkosmos"un fəaliyyəti texnoloji və inzibati mərhələlərə əsaslanır. Hazırda Yerin müşahidəsi və uzaqdan zondlama xidməti "Azersky" (SPOT-7) peyki vasitəsilə həyata keçirilir. Yer səthinin yüksək dəqiqliklə şəkilləri çəkildikdən sonra bu məlumatlar kənd təsərrüfatı, şəhərsalma, ekologiya, təhlükəsizlik, fövqəladə hallar və s. sahələrdə istifadə olunur. Peyklər Bakıda və Naxçıvanda yerləşən yerüstü mərkəzlərdən idarə edilir. Bu mərkəzlərdə çalışan mütəxəssislər tərəfindən peyklərin orbitdə sabit vəziyyətdə qalması və xidmətlərin fasiləsiz işləməsi təmin olunur.

"Azərkosmos"un yaradılması Azərbaycanın "Kosmik klub" adlanan dövlətlər qrupuna daxil olmasını reallaşdırmış, ölkəmizin texnoloji müstəqilliyini və informasiya təhlükəsizliyini gücləndirmiş, beynəlxalq arenada nüfuzunu artırmışdır.

"Azərkosmos" Azərbaycanın kosmik potensialını gücləndirmək məqsədilə bir sıra layihələr həyata keçirməyi planlaşdırır. Məsələn, yeni nəsil "Azerspace–3" telekommunikasiya peykinin orbitə buraxılmasını, süni intellekt əsaslı Yer müşahidəsi sistemlərinin tətbiqini və Bakıda regional kosmik məlumat mərkəzinin yaradılmasını belə layihələrə nümunə göstərmək olar. Bundan başqa, qurum gənclərin kosmik biliklərə yiyələnməsi və startap təşəbbüslərinin dəstəklənməsi istiqamətində də layihələr üzərində işləyir.

## FƏALİYYƏT

1. A şəklində təsviri verilən peyklərin funksiyası nədir?
2. Sizcə, Azərbaycanda sel riski olan ərazilərin və dənizə neftsızma riski olan akvatoriyanın müəyyən edilməsində "Azərkosmos"un hansı peykindən istifadə olunub?
3. Ölkəmiz gələcəkdə hansı sahələrdə qloballaşmaya töhfə verə bilər?
4. Sizcə, peyklərin fərqli xidmət göstərmələrinə səbəb nə ola bilər?
5. B şəklində verilən layihənin yerinə yetirilməsi hansı peyk sayəsində mümkün olmuşdur? Əgər bu peyk olmasaydı, layihənin reallaşdırılmasında hansı çətinliklər meydana gələrdi?

Layihə

# DƏYƏRLƏNDİRMƏ

Mətnə əsasən suallara cavab verin.

25–26 oktyabr 2018-ci il tarixlərində Azərbaycan Respublikasının paytaxtı Bakıda "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda VI Bakı Beynəlxalq Humanitar Forumu keçirilmişdir. Tədbirdə dünyanın müxtəlif ölkələrindən alimlər, dövlət xadimləri, Nobel mükafatı laureatları, beynəlxalq təşkilatların rəhbərləri və ictimai-siyasi xadimlər daxil olmaqla yüzlərlə nümayəndə iştirak etmişdir. Tədbir humanitar sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qlobal problemlərin müzakirəsi və sosial sahələrin inkişaf etdirilməsi məqsədi daşıyırdı. Həmçinin müasir dünyada dialoqun əhəmiyyəti vurğulanmış, yaradıcılıq, insan kapitalı, elmi-texnoloji tərəqqi və qlobal miqyasda tolerantlıq kimi məsələlərin önəmli olduğu qeyd edilmişdir. Forumun sonunda qəbul edilən bəyannamədə insan inkişafının və humanitar əməkdaşlığın mühüm rolu vurğulanmış, ölkələr arasında qarşılıqlı anlaşmanın gücləndirilməsi zəruri hesab edilmişdir.

a) VI Bakı Beynəlxalq Humanitar Forumunu keçirməkdə məqsəd nə idi?

b) Həmin məqsədlər qloballaşmanın hansı istiqamətləri ilə sıx əlaqəlidir?

c) Forumda müzakirə edilən yaradıcılıq, insan kapitalı və elmi-texnoloji tərəqqi kimi mövzuların qloballaşma ilə əlaqəsinin olduğunu necə izah edə bilərsiniz?

d) Forumların keçirilməsi qloballaşma prosesi baxımından ölkələrin inkişafına necə təsir edir?

e) Sizcə, aşağıda loqosu verilən hansı beynəlxalq təşkilatlar bu forumda iştirak edib? Səbəbini izah edin.

OPEC UNESCO EU GREENPEACE

## COĞRAFİ PERSPEKTİV

*Qloballaşmada gələcəyin ən maraqlı istiqamətlərindən biri "Beyin-şəbəkə texnologiyaları", yəni insan beyninin kompüter və internetlə birbaşa əlaqələndirilməsi prosesidir. Bu texnologiya sayəsində insan düşüncəsi fiziki sərhədləri aşaraq informasiyanı saniyələr ərzində bir beyindən digərinə ötürə bilir. Nəticədə insanın məkandan istifadəsi də dəyişmiş olur.*

*Bu sistemin əsas məqsədi beyinin elektrik siqnallarını oxuyaraq onları rəqəmsal məlumatlara çevirməkdir. "Beyin-şəbəkə texnologiyaları" sayəsində gələcəkdə insanlar bir-biri ilə birbaşa düşüncə səviyyəsində əlaqə qura biləcəklər. Beyin siqnalları universal neyro-kod vasitəsilə ötürüldüyü üçün dil maneələri aradan qalxacaq. Bu, xalqlar arasında yeni növ bioloji və informasiya birliyi yarada və inqilabi dəyişikliyə səbəb ola bilər. Məsələn; texnologiya sayəsində iflic olan və hissiyyatını itirən xəstələrin müalicəsi, qlobal səviyyədə ideyaların və informasiyaların mübadiləsi mümkün olacaq. Nəticədə isə "qlobal ağıl" formalaşacağı və onun bəşəriyyəti birləşdirəcəyi güman edilir.*



Layihə

## ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

**1.** Qloballaşmada rolu olan hadisələri cədvəldə verilən mərhələlərə uyğun dəftərinizdə qruplaşdırın.

a. İpək yolu ticarəti
b. Buxar mühərrikinin ixtirası
c. İnternetdən istifadənin artması
d. Vikinqlərin səfərləri
e. Böyük coğrafi kəşflər
f. Beynəlxalq şirkətlərin fəaliyyəti
g. Ərəb tacirlərinin Hind okeanı boyunca ticarəti
h. Qitələrarası dəniz ticarətinin başlanması
i. Robot texnologiyalarının yayılması

| Erkən mərhələ<br>XV əsrə qədər | Kəşflər və sənaye inqilabı mərhələsi<br>XV–XX əsrlər | Müasir mərhələ<br>XXI əsrdən indiyə qədər |
|---|---|---|
| | | |

**2.** Aşağıdakı mətni oxuyun.

Beynəlxalq kənd təsərrüfatı şirkəti olan "EcoFresh Foods" 2025-ci ildə 35-dən çox ölkəyə təzə tərəvəz və qida məhsulları ixrac edir. Şirkətin əsas istehsal sahələri İspaniya, Meksika və Türkiyədə yerləşir. Lakin dünyada baş verən bir sıra dəyişikliklər bu şirkətin də qlobal fəaliyyətinə birbaşa təsir göstərməyə başlayıb. Belə ki, bu dövrdə aşağıdakı hadisələr baş verib:

- **Yeni ticarət tarifləri:** Avropa Birliyi Meksika mənşəli kənd təsərrüfatı məhsullarına əlavə idxal vergisi tətbiq edib və bu addım şirkətin Avropaya ixrac xərclərini artırıb.
- **Siyasi gərginlik:** Cənub-Qərbi Asiyada baş verən siyasi qeyri-sabitlik regiondan keçən əsas logistika marşrutlarında gecikmələr yaradıb.
- **Yeni ticarət müqaviləsi:** İspaniya və Latın Amerikası ölkələri arasında imzalanan sərbəst ticarət müqaviləsi şirkət üçün yeni bazar imkanları açıb və logistik xərcləri azaldıb.
- **İqlim dəyişikliyi:** İstehsalçı ölkələr hava şəraitinə görə bəzi məhsulların ixracına müvəqqəti məhdudiyyət qoyub. Bu, şirkətin tədarük planlamasını çətinləşdirib.
- **Ölkədaxili qərarlar:** Meksikada kənd təsərrüfatına maliyyə dəstəyinin artırılması şirkətin istehsal xərclərini aşağı salıb.

a) Təhlil edin.
"EcoFresh Foods" şirkətinin qlobal miqyasda fəaliyyətinə hansı amillər müsbət və ya mənfi təsir göstərmişdir?
b) Müqayisə edin.
Yeni ticarət tarifləri ilə yeni ticarət müqaviləsinin tətbiqi şirkətin qloballaşmasına necə təsir edir?
c) Səbəb-nəticəni tapın.
Cənub-Qərbi Asiyadakı siyasi qeyri-sabitlik şirkətin qloballaşmasına necə təsir edir?
d) Tətbiq edin.
Şirkət xeyrinə iqlim risklərini minimuma endirmək məqsədilə hansı beynəlxalq təşkilatlarla bərabər işləyərdiniz?
e) Proqnoz verin.
Sizcə, 2040-cı ilə qədər ölkə daxilində istehsal olunan kənd təsərrüfatı məhsullarının beynəlxalq bazarda rəqabətədavamlılığı nədən asılı olacaq?

**3.** Azərbaycan müstəqillikdən əvvəl və sonra qloballaşma prosesində hansı sahələrdə aktiv iştirak etmişdir?

Layihə



# 5 QLOBAL PROBLEMLƏR

**Dünya hansı problemlərlə üz-üzədir?**

Dünyada sənaye və texnologiyanın inkişafı ilə yanaşı, müxtəlif problemlər də mövcuddur. Filippinin paytaxtı Manila şəhərində də belə problemlər çoxdur. Bu şəhər sürətlə inkişaf edən iqtisadiyyatı, müasir texnoloji infrastrukturu və həyat tərzinə görə regionun ən önəmli mərkəzlərindəndir. Eyni zamanda burada "gecəqondu" məhəllələri – qeyri-qanuni yaşayış massivləri də mövcuddur. Dar küçələrdə salınmış "gecəqondu"lar zəif infrastrukturu və yüksək əhali sıxlığı ilə fərqlənir. Burada rəqəmsal infrastruktur zəif, internet imkanları məhduddur. Bu problemlər "gecəqondu"ları müasir şəhər həyatının imkanlarından uzaqlaşdırır. Nəticədə şəhərin müxtəlif hissələrində kəskin sosial bərabərsizlik yaranır.

1. Şəkildə nə təsvir edilmişdir?
2. Qeyri-qanuni salınmış məhəllələrdə yaşayan sakinlərin hansı problemləri var?
3. Bu problemləri yaradan səbəblər hansılardır?
4. Sizcə, bu problemləri necə aradan qaldırmaq olar?
5. Azərbaycanda iqtisadi və sosial sahədə hansı problemlər mövcuddur?

Layihə

# 5.1 İQTİSADİ FƏALİYYƏT

## DƏRSƏ BAŞLARKƏN

2017-ci ildə Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən “Gələcəyə sərmayə təşəbbüsü” sammitində qeyri-adi bir hadisə baş verdi. Tədbirdə Səudiyyə Ərəbistanı tərəfindən insanabənzər (humanoid) “Sofiya” adlı robota vətəndaşlıq verildi. Dünyada bir ölkənin ilk dəfə robota vətəndaşlıq verməsi beynəlxalq ictimaiyyətdə maraqla qarşılandı. Robot səhnədə vətəndaşlıq elanını eşidəndə sanki insana xas olan duyğuları yaşayaraq özünü qürurlu hiss etdiyini bildirdi.



A. Mədən hasilatı



B. Sənayedə robotun hazırlanması

“Hanson Robotics” şirkəti tərəfindən yaradılan Sofiya insanabənzər əlamətlər daşıyan müasir tipli rodotdur. O, 60-dan çox emosiyanı – insanlarla söhbət etmək, fikir mübadiləsi aparmaq, üz ifadələri ilə gülmək, təəccüblənmək, kədərlənmək və s. göstərə bilir. Sofiya həmçinin bir çox televiziya proqramlarında, konfranslarda və məşhur şəxslərlə görüşlərdə iştirak edir. Bəs belə robotlar necə hazırlanır?

Robotun hazırlanması bir neçə mərhələdən keçir. Onun skeletinin qurulması üçün müxtəlif materiallardan (polad, alüminium, silikon və s.) istifadə edilir. Hasil olunmuş metallar robotun düzəldilməsi üçün sənaye prosesinə cəlb olunur. Bu metallardan robotun ayrı-ayrı hissələri hazırlanır. Bundan başqa, robotun üz ifadələrinin canlandırılması üçün neftdən əldə olunan “frubber” adlı süni dəridən istifadə edilir. Daha sonra robotun digər parçaları – kabelləri, kameraları, mikrofonları, sensorları və s. quraşdırılır. Onun dərisi üz mimikalarını hərəkət etdirən xüsusi mexanizmlə birləşdirilir. Ən sonda insanabənzər xüsusiyyətləri daşıması üçün yüksək texnologiya ilə təchiz edilir. Süni intellektin danışıq sistemi, səs və üztanıma funksiyası, sosial davranış və s. proqramlar onun “beyninə” yüklənir. Süni intellektin bütün dünya üçün faydalı olacağını və bəşəriyyətə müxtəlif sferalarda kömək edəcəyini bildirən insanabənzər “Sofiya” adlı robot da belə hazırlanıb.

Gələcəkdə Sofiya kimi robotların təhsil, səhiyyə, turizm və digər xidmət sahələrində istifadəsi planlaşdırılır. Buna görə də robotların geniş istifadəçi kütləsinə çatdırılması vacib amillərdən biridir. Onların beynəlxalq istehlakçılara çatdırılmasında nəqliyyatın mühüm rolu var. Bu gün “Hanson Robotics” şirkəti öz məhsullarını müxtəlif ölkələrə daşımaq üçün beynəlxalq logistika şirkətləri ilə müqavilələr bağlayır. Logistika – məhsulların müxtəlif şirkətlər tərəfindən daşınması xidmətlərinin daha səmərəli şəkildə həyata keçirilməsidir.

Layihə

Robot şirkəti məhsulun çatdırılması ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı xidmətlər göstərir. Texniki mütəxəssislər tərəfindən robotların quraşdırılmasını, proqramların yenilənməsini və təmir işlərini, həmçinin hər bir robotun gələcək fəaliyyətinə uyğun xüsusi proqramların yazılmasını bu xidmətlərə nümunə göstərmək olar.



**C.** Məhsulların daşınması

Beləliklə, "Sofiya" adlı robot iqtisadi fəaliyyətin bütün mərhələlərindən keçərək əldə edilən bir məhsuldur. Onun istehsalı xammalın hasilatından tutmuş emalı və istehlakçıya çatdırılmasına qədər olan bütün prosesləri əhatə edir. Sofiya süni intellekt, məlumat emalı, insan–robot ünsiyyəti və qabaqcıl proqramlaşdırma texnologiyalarının birləşməsi nəticəsində yaradılıb. Robotun mövcudluğu innovativ texnologiyaların yeni imkanlar yaratdığının, iqtisadi fəaliyyətlərin artıq intellektual və texnoloji əsaslar üzərində qurulduğunun əyani sübutudur.

Sofiya hüquq, biznes və mədəniyyət mövzularına həsr olunmuş beynəlxalq konfranslarda da əsas qonaq və iştirakçı kimi çıxış edir. Onun iştirakı yalnız texnoloji yeniliyin nümayişi deyil, eyni zamanda maarifləndirici xarakter daşıyır. O, tədbirlərdə aparıcının və auditoriyanın suallarını cavablandırmaqla yanaşı, bəzən özü də suallar verərək interaktiv müzakirələr aparır. Məsələn, Avropa və Asiyanın müxtəlif ölkələrində keçirilən texnologiya və innovasiya konfranslarında Sofiya süni intellektin şəhər idarəçiliyində, təhsildə və gündəlik həyatda rolu barədə maraqlı fikirlər səsləndirmişdir.




**D.** Robotun konfransda iştirakı

2018-ci ildə humanoid robot olan Sofiya Azərbaycanda keçirilən "Global Influencer Day" adlı beynəlxalq tədbirdə iştirak etmişdir. O, Bakıda təşkil olunan konfransda süni intellekt, innovasiya və texnologiyanın cəmiyyətin inkişafındakı rolu haqqında məlumat vermişdir. Sofiya çıxışı zamanı Azərbaycanın gələcəkdə regional innovasiya mərkəzinə çevrilmək potensialına malik olduğunu da qeyd etmişdir.

**FƏALİYYƏT**

1. Sizcə, Səudiyyə Ərəbistanı Sofiyaya nə üçün vətəndaşlıq verdi?
2. A və B şəkillərinə, həmçinin mətnə əsasən suallara cavab verin.
   a) Şəkillər iqtisadi fəaliyyətin hansı sektorlarına aiddir və onlar bir-birindən nə ilə fərqlənir?
   b) Şəkildə təsvir edilən proseslər robot istehsalında hansı rola malikdir?
3. C və D şəkillərindəki təsvirlərə, həmçinin mətnə əsasən suallara cavab verin.
   a) Şəkillər iqtisadi fəaliyyətin hansı sektorlarına aiddir?
   b) D şəklində Sofiyanın hansı fəaliyyəti təsvir olunub?
   c) Sofiya kimi robotların xidmətləri gələcəkdə hansı dəyişikliklərə səbəb ola bilər?

# 5.2 İQTİSADİ FƏALİYYƏTİN İNKİŞAFI

## İZAHETMƏ

Dünya əhalisinin sayı getdikcə artmaqdadır. Ölkələr əhalinin tələbatlarını ödəmək üçün iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirir. **İqtisadi fəaliyyət** insanların ehtiyaclarının ödənilməsinə istiqamətlənmiş fəaliyyətdir. Bu fəaliyyət bir-biri ilə əlaqəli ardıcıl proseslərdən ibarətdir. Burada məhsulların istehsalından onların istifadəsinə qədər olan mərhələləri 3 qrupa aid etmək olar.



**1. İstehsal** – təbii resurslardan istifadə edilərək hazır məhsulun əldə olunması prosesidir. Məsələn, taxıl istehsalı, avtomobil istehsalı və s.



**2. Daşınma** – istehsal olunan məhsulların vaxtında və təhlükəsiz şəkildə istifadəçiyə çatdırılmasıdır. Məsələn, meyvə-tərəvəzin, maşın və avadanlıqların və s. məhsulların daşınması.



**3. İstehlak** – istehsal olunan məhsulların insanlar tərəfindən əldə edilməsidir. Məsələn, əhalinin qida, geyim, nəqliyyat, səhiyyə xidmətləri və s. ilə təmin olunması.

Tarixin müxtəlif dövrlərində iqtisadi fəaliyyət fərqli formalarda həyata keçirilmişdir. Ən qədim mərhələ olan **mənimsəmə** fəaliyyəti dövründə insanlar təbiətdəki hazır nemətləri birbaşa mənimsəməklə yaşayırdılar. Bu mərhələdə əsas iqtisadi fəaliyyət ovçuluq, balıqçılıq və yığıcılıq idi. Əmək alətlərinin, əsasən, daş və sümükdən ibarət olduğu həmin mərhələdə istehsal, demək olar ki, mövcud deyildi. Təbiətdən yığılan məhsullar kollektiv şəkildə toplanılır və istifadə olunurdu. Bu dövrdə xüsusi mülkiyyət anlayışı hələ formalaşmamışdı.

1



2



**A.** Qədim iqtisadi fəaliyyət formaları

Zaman keçdikcə insanlar təbiəti yalnız mənimsəməklə kifayətlənmədilər və ondan daha çox istifadə etməyə başladılar. Bu dəyişiklik, əsasən, torpaq resurslarına əsaslanan **kənd təsərrüfatı** fəaliyyətini formalaşdırdı. Həmin dövr əkinçilik və maldarlığın meydana gəlməsi ilə səciyyələnir. İnsanlar torpaq becərməyi, bitki yetişdirməyi və heyvanları əhliləşdirməyi öyrəndilər. Nəticədə daimi yaşayış məntəqələri formalaşdı, kənd təsərrüfatı məhsulları əldə olunmağa başlanıldı və əmək bölgüsü yarandı. Xüsusi mülkiyyətin və müxtəlif sosial təbəqələrin yaranmasının əsası məhz bu mərhələdə qoyuldu. Kənd təsərrüfatının inkişafı, əmək alətlərinin təkmilləşməsi və getdikcə artan məhsul bolluğu həm **sənətkarlığın,** həm də **ticarətin** genişlənməsinə şərait yaratdı. Bu proseslər uzun müddət davam edərək sənaye istehsalına keçidi sürətləndirdi. Nəticədə XVIII əsrin sonlarında **sənaye inqilabı** baş verdi. Bu dövrdə maşınlı istehsal meydana gəldi, fabrik və zavodlar yarandı, əl əməyini mexaniki əmək əvəz etdi. Beləliklə, iqtisadi fəaliyyət yeni və sənayeəsaslı inkişaf mərhələsinə qədəm qoydu.

Sənaye inqilabının inkişafı 4 əsas mərhələyə ayrılır.

*I Sənaye inqilabı (XVIII əsrin sonu – XIX əsrin əvvəlləri)*

Bu mərhələdə əl əməyinin mexanikləşmiş istehsala keçidi önəmli rol oynadı. Buxar maşınının icadı sənayedə əsas dönüş nöqtəsi oldu. Xüsusilə tekstil sənayesi sürətlə inkişaf edir, fabrik və zavodlar yaranırdı. Həmin dövrdə əsas enerji mənbəyi kömür idi.

*II Sənaye inqilabı (XIX əsrin sonu – XX əsrin əvvəlləri)*

Bu mərhələnin əsas xüsusiyyəti elektrik enerjisinin istehsalda geniş tətbiqi və kütləvi istehsalın formalaşmasıdır. İstehsal prosesi ardıcıl və fasiləsiz şəkildə yerinə yetirilməyə başlandı. Nəticədə istehsalın sürəti və məhsuldarlığı artdı, metallurgiya, kimya və maşınqayırma sənayesi sürətlə inkişaf etdi. Daxiliyanma mühərrikinin kəşfi nəqliyyat və sənayenin inkişafına təkan vermiş, enerji mənbəyi kimi neft ön plana çıxmışdı.

*III Sənaye inqilabı (XX əsrin ikinci yarısı)*

Bu mərhələ, əsasən, avtomatlaşdırma və rəqəmsallaşma ilə xarakterikdir. Elektronika, kompüterlər və mikroprosessorlar istehsala tətbiq edilmiş, robot texnologiyası inkişaf etmişdi. İnformasiya texnologiyalarının geniş yayılması istehsal proseslərinin daha dəqiq və səmərəli idarə olunmasına imkan yaratmışdı.

*IV Sənaye inqilabı (XXI əsrdən indiyə qədər)*

Bu mərhələ müasir dövrün əsas texnoloji mərhələsini təşkil edir. Süni intellekt, məlumat bazası *(Big Data)*, internet və s. sistemlər istehsalda geniş tətbiq olunur. Ağıllı istehsal formalaşır, 3D printerlər və nanotexnologiyalar sürətlə inkişaf edir. Sənaye inqilabı nəticəsində bəşəriyyət iqtisadi və sosial dəyişikliklərə məruz qalır. Bu dəyişikliklər bir tərəfdən insanların həyatında texnoloji rahatlıq yaradır, digər tərəfdən isə müxtəlif problemlərin yaranmasına səbəb olur.













**B.** Sənaye inqilabının mərhələləri

Beləliklə, sənaye inqilabı təkcə maşınların deyil, insan həyatının, düşüncə tərzinin və demək olar ki, bütövlükdə cəmiyyətin yenidən formalaşdığı bir dönüş nöqtəsidir. Bu inqilab mərhələləri insanı təbiətdən daha çox istifadə etməyə çağırır, eyni zamanda həm də ona yeni məsuliyyətlər yükləyir.

**FƏALİYYƏT**

1. A şəklindəki təsvirlərə və mətnə əsasən suallara cavab verin.
   a) Şəkillərdəki fəaliyyətlər bir-birindən necə fərqlənir?
   b) 1-ci və 2-ci şəkillərdə təsvir olunan fəaliyyətlər zamanı insanlar ətraf mühitdə hansı problemləri yaradırdılar?
   c) Kənd təsərrüfatının təkmilləşməsi hansı sahələrin inkişafına səbəb oldu?




2. B şəklindəki təsvirlərə və C sxeminə əsasən tapşırıqları yerinə yetirin və suallara cavab verin.
   a) C sxemini təhlil edin.
   b) Nəqliyyat növlərinin payının dəyişməsini B şəklindəki təsvirlərdə verilən sənaye inqilabının mərhələləri ilə müqayisə edin.
   c) Sizcə, sənaye inqilabının V mərhələsində nələr ola bilər? Bu zaman hansı nəqliyyat növlərinin rolu arta bilər?

Layihə

# 5.3 İQTİSADİ SEKTORLAR

## İZAHETMƏ

İqtisadiyyatın inkişafında əsas məqsəd insanların rifah səviyyəsini yüksəltməkdir. Bunun üçün iqtisadi fəaliyyət xüsusi əhəmiyyət daşıyır. İqtisadi fəaliyyət istehsalın müxtəlif sektorlarını, onun yaranma amillərini və məkan üzrə yerləşmə qanunauyğunluqlarını əhatə edir.




**A.**

İqtisadi sektorlar bir-birindən fəaliyyət xüsusiyyətlərinə görə fərqlənir. Tekstil sənayesinin məhsulları olan geyimlərin istehsal prosesində bu fərqlilik daha aydın görünür. Geyim istehsalı iqtisadi fəaliyyətin bütün sektorlarını əhatə edən uzun bir prosesdir.




**B.** İqtisadi sektorlar

Birinci sektor təbii resursların əldə edilməsindən başlayır. Əvvəlcə kənd təsərrüfatı sahələrində pambıq, kətan və s. yetişdirilir, dəri və yundan istifadə üçün mal-qara saxlanılır. Sonra pambıq və kətan yığılır, qoyunlardan yun əldə olunur. Nəticədə geyim istehsalı üçün lazım olan xammal alınır.

İkinci sektor xammalın emal prosesini əhatə edir. Xam pambıq zavodlarda emal edilir, sonra lif halına salınaraq ipliyə çevrilir. İplikdən toxuculuq müəssisələrində parça istehsal olunur. Daha sonra boyanmış parçalar tikiş fabriklərində biçilir və tikilərək hazır geyim məhsullarına çevrilir.

Üçüncü sektor hazır məhsulların bazara çıxarılması və istehlakçılara çatdırılması ilə məşğuldur. Geyim məhsulları anbarlara daşınır, topdansatış mərkəzlərinə ötürülür, daha sonra isə mağazalarda satışa çıxarılır. Hazır məhsulların satışı üçün reklam, marketinq və brendləşmə mühüm rol oynayır.

Dördüncü sektor bilik, informasiya və innovasiyaya əsaslanır. Bu mərhələdə yeni materialların hazırlanması, "ağıllı parçalar"ın ixtirası, dizayn proqramları ilə modellərin yaradılması həyata keçirilir. Moda trendlərinin analizi, marketinq və müştəri məmnuniyyətinin öyrənilməsi də bu sektorun əsas funksiyalarındandır.

Beşinci sektor qərarvermə və strateji istiqamətləndirmə fəaliyyətlərini əhatə edir. Dövlət orqanları və qərar vermək gücünə malik olan şəxslər ölkədə iqtisadi inkişafın əsas istiqamətlərini müəyyənləşdirir. Məsələn, bu mərhələdə dövlət və ictimai təşkilatlar geyim istehsalına dəstək verərək tekstil sənayesinin inkişafını stimullaşdıran siyasət həyata keçirir, moda dizaynına aid ixtisaslar açılır, yeni texnologiyalara daha çox maliyyə vəsaiti ayrılır və s.

İqtisadi sektorlar bir-biri ilə qarşılıqlı əlaqəlidir. Bu proses ardıcıl dövran formasında həyata keçirilir:

1-ci sektor – xammal əldə olunur;

2-ci sektor –xammal emal edilərək hazır məhsula çevrilir;

3-cü sektor – hazır məhsul bazara çıxarılaraq alıcıya çatdırılır;

4-cü sektor – elmi tədqiqatlar aparılır, yüksək texnologiya və innovasiyalar hazırlanır;

5-ci sektor – iqtsadi inkişafın istiqamətlərinə dair qərarlar verilir.

4



5



**C.** Müasir tekstil sənayesi




**D.** İqtisadi sektorların dövranı

İqtisadiyyatı inkişaf etdirməkdə əsas məqsəd yalnız gəlir əldə edərək insanların həyat səviyyəsini yüksəltmək deyil, həmçinin onların sosial rifahını yaxşılaşdırmaq və bununla da davamlı inkişafın təminatçısı olmaqdır. Bu səbəbdən iqtisadi sektorlar dairəvi bir sistem kimi fəaliyyət göstərir. Burada hər bir sektor həm özündən əvvəlkinin nəticələrindən istifadə edir, həm də sonrakı sektorların inkişafına zəmin yaradır.

İqtisadi fəaliyyətin ərazi üzrə paylanması təbii resursların və əmək amillərinin müxtəlif məkan miqyasında qarşılıqlı təsiri nəticəsində baş verir. Bu səbəbdən ərazilər üzrə qeyri-bərabər paylanan iqtisadi fəaliyyət sahələri həmin ərazilərin iqtisadi inkişaf səviyyəsini müəyyən edir.

## FƏALİYYƏT

1. B və C şəkillərindəki təsvirlərə əsasən suallara cavab verin.
   a) Təsvir olunan şəkillər iqtisadi fəaliyyət baxımından bir-birindən necə fərqlənir?
   b) Xoşladığınız hər hansı bir məhsulun iqtisadi sektorlar üzrə hazırlanması ardıcıllığını necə təsvir edərdiniz?
   c) Hansı sektorda fəaliyyət göstərmək istərdiniz? Nə üçün?
2. D sxeminə əsasən iqtisadi sektorların bir-biri ilə əlaqələrini izah edin.
3. Aşağıdakı şəkillərdə təsvir olunan ayaqqabı istehsalı prosesini iqtisadi sektorlara görə düzgün ardıcıllıqla sıralayın. Bu ardıcıllığı D sxeminə uyğun təsvir edin.

a


b


c


d


e


Layihə

# 5.4 TƏBİİ AMİLLƏR

## İZAHETMƏ

Ölkələrin iqtisadi potensialı birbaşa təbiətdə olan nemətlərdən, yəni təbii resurslardan asılıdır. **Təbii resurslar** istehsal prosesinə cəlb olunan və ya istifadəsi mümkün olan təbii sərvətlərdir. Bu resurslar mənşəyinə, bərpasına və istifadəsinə görə təsnif edilir. Mənşəyinə görə təbii resursların 6 əsas növü var.

| Təbii resurslar | | Xüsusiyyətləri |
|---|---|---|
| Faydalı qazıntılar | Yanacaq | Milyon illər ərzində bitki və heyvan qalıqlarının parçalanması və çevrilməsi nəticəsində əmələ gəlir. Fosil yanacaqlar – neft, təbii qaz, kömür, yanar şist, torf və s. |
| | Filiz | Tərkibində sənaye üçün əhəmiyyətli miqdarda metal elementləri olan resurslardır. Məsələn, dəmir, mis, alüminium, qalay, volfram, qızıl, gümüş, uran, civə və s. |
| | Qeyri-filiz | Tərkibində metal olmayan, tikinti, məişət, zərgərlik və s. məqsədləri üçün istifadə edilən resurslardır. Məsələn, fosforit, almaz, kükürd, kalium və xörək duzları, müxtəlif tikinti materialları (əhəngdaşı, mərmər, travertin və s.) |
| Torpaq | | Kənd təsərrüfatı, yaşayış məntəqələri və sənaye sahələrində istifadə edilən, həmçinin edilməyən torpaqların məcmusudur. Məsələn, əkin sahələri, otlaq, biçənək və s. |
| Su | | Su hövzələrinin məcmusudur. Bura okean suları, çaylar, göllər, yeraltı sular və s. aiddir. |
| Bioloji | | Canlı orqanizmlərdir. Onlara bitki və heyvanlar aləmi aiddir. |
| İqlim | | İqlim ehtiyatlarının məcmusudur. Məsələn, Günəş radiasiyası, külək, rütubət, yağıntı və s. |
| Alternativ enerji | | Tükənməyən ehtiyatlar – Günəş enerjisi, külək enerjisi, geotermal enerji və s. daxildir. |

Resurslar təbiətdə bərpasına görə də təsnif edilir. Bu baxımdan resursların **bərpa olunmayan** və **bərpa olunan** növləri var. Bərpa olunmayan təbii resurslar təbiətdə milyonlarla il ərzində formalaşan və istifadə edildikdən sonra qısa müddətdə bərpası mümkün olmayan sərvətlərdir. Bu resurslar, əsasən, enerji istehsalında və sənayedə geniş istifadə olunur.

Bərpa olunan təbii resurslar istifadə edildikdən sonra yenilənə bilən ehtiyatlardır. Məsələn, meşələr ağacların kəsilməsindən sonra yenidən ağac əkildikdə və onları qoruduqda bərpa oluna bilir. Su dövranı (yağış, çaylar, dənizlər) sayəsində su ehtiyatları da təbii şəkildə bərpa olunur. Lakin çirklənmə və həddindən artıq istifadə bu prosesi ləngidir. Günəş, geotermal və külək enerjiləri isə tükənməz hesab olunur və ətraf mühitə minimum zərərlə enerji istehsalına imkan yaradır. Bərpa olunan və bərpa olunmayan resurslar arasında əsas fərq onların yenilənmə sürəti və bərpa olunmayan resursların tükənmə riskidir.




Layihə

Təbii resurslar istifadə xüsusiyyətlərinə görə **potensial** və **istifadə olunan resurslara** ayrılır. Təbii resurs olaraq müəyyən edilmiş, lakin hazırda istifadəsi mümkün olmayan sərvətlər potensial resurslardır. Təbii resursların istifadəsi insanların həyatında və cəmiyyətin inkişafında əvəzsiz rol oynayır. Bu sərvətlərdən enerji, sənaye, kənd təsərrüfatı, turizm kimi iqtisadiyyatın müxtəlif sahələrində geniş istifadə edilir.

Təbii resurslar iqtisadiyyatın enerji təminatında aparıcı rol oynayır. Neft, təbii qaz və s. yanacaq resursları elektrik enerjisinin istehsalı, nəqliyyat və sənaye sahələri üçün başlıca mənbədir. Son illərdə alternativ enerji mənbələrinin əhəmiyyəti getdikcə artır. Alternativ resursların ətraf mühitə mənfi təsiri az olur.

Təbii resurslar sənaye sahələri üçün xammal bazasıdır. Filiz və qeyri-filiz mənşəli faydalı qazıntılardan müxtəlif sənaye sahələrində məhsul istehsalı zamanı geniş istifadə olunur.

Torpaq, su, istilik, rütubət və s. amillər kənd təsərrüfatı üçün əsas təbii resurslardır. Münbit torpaqlar, istilik və su ehtiyatları kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malikdir. Təbii resursların düzgün idarə edilməsi kənd təsərrüfatında məhsuldarlığın artmasına və ərzaq təminatına səbəb olur.

Turizm sahəsində də təbii resurslar turistlər üçün əsas maraq mənbəyidir. Təbii komponentlər, tarixi abidələr və qeyri-adi müasir şəhər infrastrukturları ölkədə turizmin inkişafına şərait yaradır. Ölkənin təbii gözəllikləri turistlərin cəlb olunmasına və xidmət sektorunun genişlənməsinə, həmçinin regionların sosial-iqtisadi inkişafına töhfə verir. Nəticədə təbii resurslar iqtisadiyyatın müxtəlif sahələrində geniş istifadə olunaraq ümumi inkişafı təmin edir. Lakin bu resursların tükənəcəyi nəzərə alınaraq onların qorunması, səmərəli və dayanıqlı istifadə olunması gələcək nəsillər üçün böyük əhəmiyyət kəsb edir.




**A.** Təbii resursların istifadəsi

**FƏALİYYƏT**

1. Təbii resursları cədvələ uyğun qruplaşdırın.
*neft, rütubət, külək, göl, otlaq, bitki, mərmər, artezian, qızıl, biçənək, meşə, heyvanlar, əkin sahəsi, Günəş enerjisi, atmosferdə su*

| Faydalı qazıntılar | Torpaq | Su | Bioloji | İqlim |
|---|---|---|---|---|
| | | | | |

2. Aşağıdakı mətndə sadalanan təbii resursları bərpasına və növünə görə təsnif edin.
*Həftəsonu ailə ilə gəzintiyə çıxmaq üçün əlverişli yerlərdən biri də parkdır. Mis, tunc və s. materiallardan hazırlanan heykəlləri parkın cansız sakinləri hesab etmək olar. Mərmər, gips və s. daşlardan hazırlanmış qeyri-adi dekorasiyalar da parka xüsusi gözəllik verir.*
3. A şəklindəki təsvirlərə və mətnə əsasən təbii resurslardan hansı məqsədlər üçün istifadə olunur?
4. Gündəlik həyatınızda hansı təbii resurslardan istifadə edirsiniz? Onları yuxarıda verilən sxemə uyğun qruplaşdırın.

Layihə

# 5.5 İQTİSADİ FƏALİYYƏTDƏ İNSAN AMİLİ

## İZAHETMƏ

İnsan amili iqtisadi fəaliyyətdə aparıcı rola malikdir. İnsan təbii resurslardan istifadə edərək istehsal prosesini həyata keçirir. İstənilən ərazidə insan fəaliyyəti ilə bağlı amillərdən səmərəli istifadə edildikdə iqtisadi inkişafın səviyyəsi yüksəlir və rəqabət qabiliyyəti artır. İnsan fəaliyyəti ilə bağlı amilləri 4 qrupa bölmək olar.




**A.** İnsan fəaliyyəti ilə bağlı amillər

İnsan fəaliyyəti ilə bağlı ən vacib amillərdən biri əmək resurslarıdır. *Əmək resursları* dedikdə iqtisadi fəaliyyətdə iştirak edən əmək qabiliyyətli insanlar nəzərdə tutulur. Bu qrupa müəyyən yaş həddində, fiziki və əqli baxımdan işləmək qabiliyyətinə malik olan insanlar daxildir. Əmək resurslarının sayı ilə yanaşı, eyni zamanda onların təhsil səviyyəsi, peşə bacarığı və iş təcrübəsi də vacibdir. Yüksək təhsil səviyyəsinə malik işçi qüvvəsi bilik və bacarıqları ilə istehsalın səmərəliliyini artırır. Peşə bacarıqları olan işçilər istehsal prosesini daha düzgün və keyfiyyətli idarə edirlər.

İş təcrübəsi yüksək olan işçilər isə istehsal prosesi zamanı qarşıya çıxan problemlərin daha tez və düzgün həllinə nail olurlar. Əmək resurslarına aid bu xüsusiyyətlər əmək məhsuldarlığını artırır və müəssisələrin inkişafına müsbət təsir göstərir. Nəticədə iqtisadiyyatın ümumi inkişaf səviyyəsi yüksəlir.

Əmək resursları sənaye, kənd təsərrüfatı və xidmət sahələrinin daha sürətlə inkişafına imkan verir. Bu resursların çatışmadığı ölkələrdə isə iqtisadi fəaliyyətdə müəyyən problemlər yaranır. Bu problemə işçi qüvvəsinin miqrasiyasını nümunə göstərmək olar.

İqtisadi fəaliyyətin digər vacib amili kapitaldır. *Kapital (sərmayə)* iqtisadi fəaliyyətdə istifadə olunan maddi və maliyyə ehtiyatlarının məcmusudur. Kapital istehsal prosesinin maddi bazasını və əmək resursları ilə birlikdə iqtisadi fəaliyyətin əsasını təşkil edir. Bura istehsal avadanlıqları, nəqliyyat vasitələri, maliyyə və investisiyalar daxildir. Maliyyə resursları istehsalın miqyasını və səmərəliliyini müəyyən edir. İstehsala qoyulan sərmayənin həcmi nə qədər böyük və məqsədyönlü olarsa, istehsalın gücü də bir o qədər yüksək olar.




**B.** Kapital ehtiyatları

Kapitalın qeyri-bərabər paylanması iqtisadi inkişafın ərazi üzrə də fərqlənməsinə səbəb olur. Nəticədə kapitalın cəmləndiyi ərazilər daha sürətlə inkişaf edir, yeni iş yerləri yaranır və əhalinin gəlir səviyyəsi artır. Yerli maliyyə resursları ilə yanaşı, iqtisadiyyatın inkişafında xarici investisiyalar da mühüm rol oynayır. Adətən, investisiya

Layihə

axınları daha çox gəlir və siyasi-iqtisadi sabitlik hökm sürən regionlara istiqamətlənir. Məsələn, Azərbaycanın neft və qaz sektoruna cəlb edilən böyükhəcmli investisiyalar Abşeron yarımadasında sənaye infrastrukturunun sürətli inkişafına səbəb olub.

İqtisadi fəaliyyətdə *texnologiyalar* əsas təkanverici qüvvələrdən biri hesab olunur. Bu fəaliyyətdə innovativ biliklər, texniki üsullar və müasir avadanlıqlar mühüm əhəmiyyət daşıyır. Texnologiyanın iqtisadi fəaliyyətdə məhsuldarlığın və keyfiyyətin artmasına təsiri böyükdür. Bu, istehsal xərclərinin azalması ilə nəticələnir. Texnologiya iqtisadi fəaliyyətin məkan strukturunda da dəyişikliklərə səbəb olur. Hazırda bilik və innovasiyalara yaxınlıq daha vacib sayılır. Nümunə olaraq rəqəmsallaşma və avtomatlaşdırma prosesini göstərmək olar. Robot texnikası, süni intellekt və informasiya texnologiyalarının tətbiqi bəzi sahələrdə insan əməyinə olan tələbatı azaldıb. Buna baxmayaraq yeni peşə və fəaliyyət sahələri də yaranmaqda davam edir.

İqtisadi fəaliyyətə təsir edən başlıca amillərdən biri də iqtisadi siyasətdir. *İqtisadi siyasət* dedikdə dövlətin iqtisadi fəaliyyəti dəstəkləməsi üçün qəbul etdiyi qanunlar, proqramlar, strategiyalar və tənzimləyici mexanizmlər nəzərdə tutulur. Bu amil iqtisadi sahələrin inkişafını və regionlar üzrə yerləşməsini, vergiləri, investisiyaları və s.-ni əhatə edir. Əmək resurslarından, kapitaldan və texnologiyadan hansı istiqamətlərdə istifadə olunacağı məhz bu siyasət vasitəsilə müəyyən edilir. Düzgün aparılan iqtisadi siyasət ölkədə iqtisadi sabitliyi təmin edir.

İqtisadi siyasətin ən əsas məqsədlərindən biri regional inkişaf proqramlarıdır. Burada əsas məqsəd regionlar arasında inkişaf fərqlərinin azaldılmasıdır. Bu istiqamətdə müəyyən region və sahələrin inkişafını təmin etmək üçün dövlət vergi güzəştləri, subsidiyalar (dövlətin verdiyi qarşılıqsız maliyyə dəstəyi) və infrastruktur layihələri həyata keçirir. Məsələn, Azərbaycanda regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları nəticəsində qeyri-neft sektorunun inkişafı, yeni sənaye parklarının yaradılması və məşğulluğun artırılması nəzərdə tutulmuşdur.




**C.** Məkanda kənd təsərrüfatı fəaliyyəti

**FƏALİYYƏT**

1. A sxemində təsvir olunan amillər bir-birinə necə təsir edir?
2. Azərbaycanın statistik məlumatlarına və mətnə əsasən tapşırıqları yerinə yetirin.

| İllər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Yerli investisiya (milyon AZN) | 6,4 | 8,8 | 11,8 | 12,8 | 12,0 | 12,5 | 14,2 | 17,4 | 18,7 |

a) Cədvəldən istifadə edərək qrafik qurun.

b) Ölkədə yerli investisiyanın necə dəyişdiyini və kapitalın hara sərf edilə biləcəyini izah edin.

3. B şəklində təsvir edilən kapital ehtiyatlarını bir-biri ilə nümunələr əsasında əlaqələndirin.
4. C şəklini təhlil edin. İqtisadi fəaliyyətin amillərinin bir-biri ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirin

# 5.6 İQTİSADİ FƏALİYYƏT MƏKANDA NECƏ PAYLANIR?

## İZAHETMƏ

İqtisadi fəaliyyətin məkanda həyata keçirilməsi istehsal prosesinin ərazi üzrə təşkili ilə əlaqəlidir. İstehsal prosesinin məkanda yerləşməsi təbii, siyasi, iqtisadi, sosial və texnoloji amillərdən asılıdır. Bu amillər istehsalın lokal, milli, regional və qlobal miqyasda yerləşməsini müəyyən edir. Hər bir məkan miqyasının özünəməxsus xüsusiyyətləri var. Buna baxmayaraq onlar bir-biri ilə qarşılıqlı əlaqədədir.




A. Almaniyada kənddə mebel istehsalı



B. Almaniyada cihazqayırma sənayesi



C. Almaniya 2025-ci ildə Aİ-də ən çox avtomobil satan ölkədir




D. Almaniyanın transmilli şirkəti

*Lokal* miqyasda istehsal prosesi müəssisə, kənd, şəhər və ya sənaye zonası səviyyəsində həyata keçirilir. Bu miqyasda yerli bazarın tələbatı, infrastruktur, təbii və əmək resursları istehsalın yerləşməsinə təsir edən əsas amillərdir. Təbii resurslara yaxınlıq istehsal xərclərini azaldır. Müxtəlif sənaye sahələri, əsasən, xammal mənbələri ətrafında cəmlənir. Burada işçi qüvvəsinin sayı və ixtisaslı kadrlar lokal istehsalın strukturunu müəyyənləşdirir. Lokal miqyasda istehsalın təbiətə mənfi təsiri böyük miqyaslı çirklənmələrlə nəticələnə bilər. Buna görə də ətraf mühitin mühafizəsi bu miqyasda xüsusi əhəmiyyət daşıyır.

*Milli* məkan miqyasında olan istehsal prosesi ayrı-ayrı lokal ərazilərin birləşməsi nəticəsində formalaşır. Bu zaman ölkə səviyyəsində məhsul istehsalının əmək bölgüsü və ixtisaslaşması yaranır. **Əmək bölgüsü** istehsal prosesindəki fəaliyyətlərin insanlar, qruplar və ya müəssisələr arasında paylanmasıdır. Bu bölgü sayəsində resurslar səmərəli istifadə olunur və ixtisaslaşma yaranır. **İxtisaslaşma** – hər hansı məhsul istehsalının müəssisədə, iqtisadi rayonda və ya ölkədə üstün inkişafıdır. Bu zaman məhsul istehsalı yerli tələbatdan çox olur və qalan hissəsi ixrac edilir. Fərqli rayonlar müxtəlif sahələr üzrə ixtisaslaşır. Bu da məhsulun keyfiyyətinə və maya dəyərinə birbaşa təsir göstərir.

*Regional* məkan miqyasında istehsal ölkələrin müəyyən ərazidəki iqtisadi inteqrasiyasıdır. Dövlətlərin iqtisadi siyasəti, investisiya proqramları və infrastruktur layihələri regional miqyasda istehsalın balanslı inkişafını təmin edir. Bu miqyasda nəqliyyat xidmətləri istehsalın təşkilində mühüm rol oynayır. Çünki xammalın və hazır məhsulun bazarlara çıxarılıb istehlakçılara çatdırılması məhz logistika xidmətlərindən asılıdır.

*Qlobal* məkan miqyasında müxtəlif istehsal prosesləri beynəlxalq iqtisadi əlaqələri formalaşdırır. Bu əlaqələr beynəlxalq istehsal zəncirini əmələ gətirir. Belə ki, xammal hasilatı bir ölkədə, onun emalı digər ölkədə, son məhsula çevrilməsi isə başqa bir ölkədə həyata keçirilir. Transmilli şirkətlər bu prosesdə aparıcı qüvvə kimi istehsalın məkan üzrə yenidən bölüşdürülməsində mühüm rola malikdir. Nəticədə istehsalın müxtəlif sahələri üzrə ixtisaslaşan ölkələr beynəlxalq əmək bölgüsündə iştirak edir.

Layihə

Lokal, milli, regional və qlobal miqyasda olan istehsal prosesləri bir-biri ilə qarşılıqlı təsir gücünə malikdir. Belə ki, lokal məkanda istehsal olunan məhsul qlobal bazarların tələbatına uyğunlaşdırılır. Qlobal iqtisadi proseslər də lokal, milli və regional miqyasda istehsala təsir göstərə bilir.

| İqtisadi fəaliyyətin məkan üzrə paylanması | | |
|---|---|---|
| Ərazi | Xüsusiyyəti | Nümunə |
| Lokal | • Kiçik ərazi üçün xarakterikdir (kənd, qəsəbə, şəhər)<br>• Yerli əhali və ehtiyatlar əsas rol oynayır<br>• Yerli bazara sahibdir | kənd təsərrüfatı məhsullarının istehsalı, kiçik dükan, emalatxana, yerli xidmətlər (bərbər, taksi və s.) |
| Milli | • Ölkə daxilində həyata keçirilir<br>• Dövlətin iqtisadi siyasəti və qanunvericiliyi ilə tənzimlənir<br>• Ölkə əhalisinin ehtiyaclarının ödənilməsi hədəflənir | dövlət müəssisələri, milli valyuta sistemi, ölkə miqyasında sənaye və kənd təsərrüfatı |
| Regional | • Ölkələrarası əməkdaşlıq mövcuddur<br>• İqtisadi birliklər yaranır | Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı və s. |
| Qlobal | • Dünya miqyasında formalaşır<br>• Beynəlxalq ticarət və kapital axınları olur<br>• Transmilli şirkətlərin fəaliyyəti mövcuddur<br>• Dünya bazarına çıxır | Beynəlxalq Valyuta Fondu, Ümumdünya Ticarət Təşkilatı, neftin dünya bazarında satışı və s. |

Müasir dövrdə rəqəmsallaşma, sonuncu sənaye inqilabı, yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf prinsipləri istehsalın məkan üzrə təşkilinə dair yeni yanaşmaları qaçılmaz edir. Belə ki, iqtisadi fəaliyyətin əhalini məhsulla təmin etməsi ilə yanaşı, bir sıra qlobal problemlərin də ortaya çıxması danılmazdır.

### COĞRAFİ FAKT

*İstehsal məhsullarından biri də informasiyadır. Son illər texnologiyanın inkişafı nəticəsində informasiya istehsalı artmışdır. Şirkətlər və fərdlər sosial media vasitəsilə çox qısa zamanda minlərlə foto, video və məqalələri sürətlə paylaşa bilir. Bu istehsal növü ucuz başa gəldiyi üçün bazara həddindən çox informasiya daxil olur. Nəticədə keyfiyyətli və etibarlı məlumatlar aşağı səviyyəli, təkrarlanan, bəzən isə saxta məzmunlu faktlar arasında itmiş olur. Beləliklə, bəzən texnoloji baxımdan səmərəli görünən istehsal prosesi cəmiyyət üçün "informasiya çirklənməsi" kimi mənfi nəticələr yaradır.*



Layihə

### FƏALİYYƏT

1. A, B, C, D şəkillərindəki təsvirlərə və mətnə əsasən suallara cavab verin.
   a) Şəkillərdəki təsvirlər hansı məkan miqyasına aid edilir?
   b) A və D şəkillərində təsvir edilənlər məkan miqyası baxımından hansı xüsusiyyətlərinə görə fərqlənir?
   c) İxtisaslaşmanın şəkillərdə təsvir olunanlarla necə əlaqəsi var?
2. İqtisadi fəaliyyətin məkan miqyası üzrə paylanmasını şərh edin.
3. Hər hansı məhsulun məkan miqyasında istehsalına dair nümunələr gətirərək istehsal zəncirini qurun.

# DƏRİNLƏŞDİRMƏ

# AZƏRBAYCANDA İSTEHSALIN MƏKAN MİQYASI



**A.** Azərbaycanda yerli bazar



**B.** Ağdam Sənaye Parkı




**C.** Gürcüstanda SOCAR-ın yanacaqdoldurma məntəqəsi



**D.** Türkiyənin Ceyhan limanı

Azərbaycanda iqtisadi fəaliyyətin məkan strukturu ölkənin təbii resurslarına, tarixi inkişaf yoluna və qlobal iqtisadi proseslərə bağlılığın nəticəsi olaraq formalaşmışdır. Ölkədə lokal istehsaldan tutmuş qlobal bazara çıxışa qədər iqtisadi fəaliyyət mövcuddur.

Azərbaycanda lokal miqyaslı iqtisadi fəaliyyət kənd, qəsəbə, şəhər, rayon səviyyəsində həyata keçirilir. Yerli istehsalın inkişafı, əsasən, təbii şərait və resurslardan asılıdır. Bundan başqa, yerli əmək resursları, infrastruktur və bazar tələbatı da nəzərə alınır. Məsələn, Abşeron yarımadasında olan neft və qaz hasilatı əsasında Sumqayıt şəhərində kimya sənayesi müəssisələri yaradılmışdır.

Azərbaycanın milli miqyasda iqtisadi fəaliyyəti ölkədaxili iqtisadi rayonlar üzrə formalaşır. Hər bir iqtisadi rayon müəyyən istehsal sahələri üzrə ixtisaslaşmışdır. Regionlar arasında istehsal əlaqələri nəqliyyat şəbəkələrini inkişaf etdirir. Məsələn, Bakı, Abşeron–Xızı iqtisadi rayonları – neft-kimya, Gəncə–Daşkəsən – dağ-mədən sənayesi, Mərkəzi Aran, Quba–Xaçmaz və Şəki–Zaqatala iqtisadi rayonları isə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə fərqlənir.

Azərbaycanın regional miqyasda iqtisadi fəaliyyəti isə regionda istehsal potensialının artırılmasına, iqtisadi şəbəkənin qurulmasına və siyasi sabitliyə istiqamətlənmişdir. Məsələn, Azərbaycanın neft məhsullarının Cənubi Qafqaz bazarlarına çıxarılmasını buna misal göstərmək olar.

Azərbaycanın qlobal miqyasda iqtisadi fəaliyyəti enerji resurslarına əsaslanır. Neft və qaz məhsullarının Avropaya ixracı ölkənin dünya iqtisadiyyatına inteqrasiyasında əsas rol oynayır. Həmçinin Bakı–Tbilisi–Ceyhan, Cənub Qaz Dəhlizi və s. beynəlxalq layihələr də Azərbaycanı qlobal enerji bazarının mühüm iştirakçısına çevirmişdir.

Qlobal iqtisadi fəaliyyət yalnız enerji istehsalı ilə məhdudlaşmır. Azərbaycan qeyri-neft sektoruna aid olan məhsulları ilə də qlobal bazara çıxmaq imkanına malikdir. Bunun üçün milli miqyasdakı istehsalın beynəlxalq standartlara uyğunlaşdırılması əsas şərtdir.

**FƏALİYYƏT**

1. A, B, C, D şəkillərinə və mətnə əsasən tapşırıqları yerinə yetirin.
   a) Şəkillərdə verilənləri məkan miqyasına görə qruplaşdırın.
   b) Azərbaycanda iqtisadi fəaliyyətin ən çox hansı sektor üzrə həyata keçirildiyini müəyyənləşdirin.
   c) Gələcəkdə ölkədə inkişafın hansı iqtisadi sektorlar üzrə davam etdiriləcəyini müəyyən edin
2. Yaşadığınız ərazidə (lokal miqyasda) istehsal müəssisəsinə aid nümunə göstərin. Həmin müəssisənin milli, regional və qlobal miqyasda baş verən dəyişikliklər prosesinə necə qoşulduğunu müzakirə edin.

Layihə

# DƏYƏRLƏNDİRMƏ

Aşağıdakı mətnə əsasən tapşırıqları yerinə yetirin və suallara cavab verin.

XVIII əsrin sonlarında Avropanın bəzi şəhərlərində hazırlanan məhsulların istehsal üsullarında ciddi dəyişikliklər baş verdi. Əvvəllər insanların evlərində və kiçik emalatxanalarda gördüyü işlər getdikcə iri binalarda yerləşən müəssisələrdə görülməyə başlandı. Yeni qurğular bir neçə insanın gördüyü işi daha qısa vaxtda yerinə yetirirdi. Bu dəyişikliklər kənd əhalisinin şəhərlərə axınına və yaşayış tərzinin dəyişməsinə səbəb oldu.
Bir müddət sonra istehsal daha da sürətləndi. Enerji mənbələrinin çoxalması və işlərin bölgü ilə aparılması eyni məhsulun sayca daha çox və keyfiyyətli hazırlanmasına imkan verdi. Uzun məsafələr arasında gediş-gəliş asanlaşdı, məhsullar bazarlara daha tez çatdırıldı.
Zaman keçdikcə müəssisələrdə insan əməyi tədricən yeni üsullarla əvəzlənməyə başlandı. Mürəkkəb qurğular prosesləri özü nəzarətdə saxlayır və işin dəqiqliyini yüksəldirdi. İstehsal prosesi üçün yalnız fiziki güc deyil, həm də texniki bilik və hesablama bacarıqları ön plana çıxdı.
Müasir dövrdə isə bu müəssisələr bir-biri ilə görünməz şəbəkələr vasitəsilə əlaqələnir. Qurğular məlumat toplayır, vəziyyəti təhlil edir və minimum insan müdaxiləsi ilə qərarlar verilir. Nəticədə istehsal prosesi daha çevik və sürətli olur.

a) Mətnin əvvəlində təsvir olunan dəyişikliklər istehsalın hansı tarixi mərhələsinə uyğun gəlir? Cavabınızı əsaslandırın.
b) İstehsalın evlərdən iri müəssisələrə keçməsi insanlara necə təsir göstərdi?
c) İkinci abzasda qeyd olunan "enerji mənbələrinin çoxalması" və "işlərin bölgü ilə aparılması" hansı texnoloji yenilikləri ifadə edir?
d) Kütləvi istehsalın hansı iqtisadi nəticələri oldu?
e) Üçüncü abzasda təsvir edilən insan əməyinin rolunun dəyişməsi hansı mərhələ üçün xarakterikdir?
f) "Görünməz şəbəkələr" və "məlumatın təhlili" hansı mərhələ üçün xarakterikdir? Fikrinizi əsaslandırın.
g) Abzasları uyğun sənaye inqilabının mərhələləri ilə əlaqələndirin.
h) Mətndəki son mərhələnin cəmiyyət üçün hansı üstünlükləri var?
i) Sizcə, iqtisadi fəaliyyətlərin mərhələlər üzrə inkişafında hansı problemlər yaranıb?
j) Mətnə ad verin.

**COĞRAFİ PERSPEKTİV**

*Texnologiyanın inkişafı, iqlim dəyişiklikləri və insanların həyat tərzinin fərqliliyi gələcəkdə iqtisadi fəaliyyətin dəyişməsinə səbəb olacaq. Əhalinin böyük şəhərlərdə deyil, kiçik və "ağıllı" şəhərlərdə yaşamağa üstünlük verəcəyi ehtimal olunur. Şirkətlərin də məhsullarını istehlakçıya çatdırmaq üçün istehsal prosesini lokal ərazilərdə yerləşdirməsi gözlənilir. Bu zaman yerli istehsal və regional iqtisadi əlaqələr daha da güclənəcək. Virtual məkanlar, onlayn platformalar və texnoloji sahələr üçün yeni iqtisadi mühit yaranacaq. İnvestisiyalar daha təhlükəsiz ərazilərə qoyulacaq. Məkanda iqtisadi fəaliyyət sahələrinin bir-biri ilə əlaqəli, texnologiyaya əsaslanan və ekoloji amilləri nəzərə alan bir formada inkişaf edəcəyi güman edilir.*

Layihə

# 5.7 BƏŞƏRİYYƏTİN PROBLEMLƏRİ

## DƏRSƏ BAŞLARKƏN

Bir vaxtlar fəal həyatın yaşandığı şəhər bu gün tam səssizlik içindədir. Sakinlər bu şəhəri tərk etdikdən sonra baxımsız binaların pəncərələri qırılmış, yollar və meydanlar isə boşluğa qərq olmuşdur. Uzun illər istifadə edilməyən məktəblərin, fabriklərin, yaşayış evlərinin divarları çatlamış, metal konstruksiyalar isə paslanmışdır. Parklar, orada olan meydançalar və digər ictimai məkanlar artıq insanlara deyil, təbiətə məxsusdur. Belə ki, bitkilər betonların arasından inkişaf edərək binaları bürümüş, parklar isə meşə ərazisinə çevrilmişdir. Az sayda qalmış heyvanlar səssizcə şəhərin ərazisində dolaşır. Hazırda "ölü şəhər" adlanan bu yer Çernobıldır. Burada radiasiya səviyyəsi yüksək olduğundan insanların yaşaması mümkün deyil.

***"BBC news", 2023-cü il***



A. Çernobıl Atom-Elektrik Stansiyası




B. AES-də partlayış



C. Sakinlərin şəhərdən evakuasiyası

Hər il onlarca media qurumu hazırda dünyanın ən böyük fəlakətlərindən biri sayılan Çernobıl haqqında məlumat hazırlayır. Bəs bu ərazi nə üçün "ölü şəhər" adlandırılır?

Hər şey 1986-cı ilin 26 aprel gecəsi Ukraynanın Pripyat şəhərində baş verən hadisə ilə başladı. Şəhərdə enerji istehsal edən Çernobıl Atom-Elektrik Stansiyası fəaliyyət göstərirdi. Həmin gün stansiyada təhlükəli bir sınaq həyata keçirilməli idi. Mühəndislər texniki baxımdan testlər edir, reaktorun enerji axını ilə təcrübə aparırdılar. Lakin təcrübə istənilən nəticəni vermədi. Belə ki, sınaq zamanı təhlükəsizlik qaydalarına riayət olunmadığına görə insan səhvi fəlakətə çevrildi. Gecə saat 1:23-də Çernobıl Atom-Elektrik Stansiyasının 4-cü reaktorunda iki ardıcıl partlayış oldu. Parlaq alov və qara bulud sürətlə göyə qalxdı. İlk anlarda baş verənlərin miqyasını heç kim anlamadı. O gecə yanğınsöndürənlər, mühəndislər və digər işçilər hadisə yerində alovu söndürməyə səy göstərirdilər. Lakin onlar bu qara buludun qorxunc radiasiya olduğundan xəbərsiz idilər. Buna görə də həmin fədakar insanların çoxu ölümcül radiasiyaya məruz qaldı. Hadisədən bir gün sonra sovet hökuməti tərəfindən şəhərin boşaldılması əmri verildi. Pripyat sakinlərinə "bir neçə günə qayıdacaqsınız" vədi verilir və onlar şəhərdən köçürülürdü. Şəhər sakinləri evlərini beləcə tələsik tərk etdilər. Əhalinin evakuasiyasından sonra Pripyat şəhəri tamamilə səssizliyə büründü və bu sükut indiyədək davam edir. İnsan həyatı ilə birbaşa əlaqəsi olan bu faciədən açıq-aydın görünür ki, bir gecədə həyatlar məhv oldu, təbiət çirkləndi, ekosistemlər radiasiyanın mənfi təsirinə məruz qaldı.

Çernobıl hadisəsi heç vaxt tam mənada bitməyib. Çünki 1986-cı ildə baş verən partlayışın yaratdığı radioaktiv çirklənmə bir neçə il deyil,

yüz, hətta min illərlə davam edəcək bir problem hesab olunur. Hadisə artıq milli miqyasda deyil, regional və qlobal səviyyədə problemə çevrilib.



D. Müasir üsullarla örtülən stansiya

Stansiyadakı partlayışdan sonra sızan radiasiya sərhədləri aşaraq külək vasitəsilə Belarus, Rusiya və Avropanın bir çox ölkələrinə yayılmışdı. Bu zaman torpaqlar, su mənbələri və hava çirklənmiş, ərazidəki ekosistem, demək olar ki, pozulmuşdu. Çernobıl hadisəsi insan fəaliyyətinin lokal miqyasdan çox asanlıqla qlobal problemə çevrilə biləcəyini bütün dünyaya göstərdi. Partlayışdan dərhal sonra reaktorun üzəri beton və metal qarışığı ilə örtülsə də, bu, müvəqqəti həll yolu idi. Vaxt keçdikcə örtükdə çatlar əmələ gəldi və yenidən radiasiya sızması yarandı.

Bütün ölkələr bu fəlakətin təsirlərini azaltmaq üçün mərhələli şəkildə səylər göstərməyə başladı. 1990-cı ildə bu sahədə beynəlxalq əməkdaşlıq həyata keçirildi. Avropa ölkələrində, ABŞ, Yaponiya və digər ölkələrdə yaradılan beynəlxalq təşkilatlar Çernobılın təhlükəsizliyini təmin etmək üçün maliyyə ayırdı və texniki dəstək göstərdi. Təhlükəsizliyi qorumaqdan ötrü nəhəng metal konstruksiyalı qurğu inşa edildi və bu qurğu xüsusi texnologiya ilə reaktorun olduğu köhnə beton örtüyün üzərinə yerləşdirildi.




E. Radioaktiv çirklənmənin təsir etdiyi ərazilər

Bu hadisə göstərdi ki, ətrafda baş verən bir çox problemlər, əsasən, laqeyd insan fəaliyyətinin nəticəsində yaranır. Bu səbəbdən minlərlə insan zərər görür, təbiət isə yüzilliklər boyu sağalmayacaq yaralar alır. Bu gün Çernobıldakı tərk edilmiş binalar, səssiz küçələr və ürək ağrıdan digər mənzərələr insanlığa dərs vermək üçün canlı bir xatirədir. Qlobal problemlər uzaqda baş vermir, onlar insan fəaliyyətinin nəticəsi olaraq ortaya çıxır. Verilən qərarlara uyğun həyata keçirilən bütün işlər və texnoloji yeniliklərin reallaşdırılması ilə bağlı atılan hər bir addım gələcək nəsillərin həyatına təsir edir.

### FƏALİYYƏT

1. "BBC"-də təqdim edilən informasiya sizdə hansı təəssürat yaratdı?
2. A, B, C, D şəkillərindəki təsvirlərə və mətnə əsasən fəlakətin nəticələrini şərh edin.
3. E xəritəsinə əsasən suallara cavab verin.
   a) Fəlakətin əhatə dairəsi təqribən nə qədərdir?
   b) Bu hadisə lokal məkanda baş verdiyi halda, fəsadlar Avropaya necə yayılmışdı?
   c) Bu qəza təbiətdə hansı komponentlərin radioaktiv çirklənməsinə səbəb olmuşdur?
4. Bu hadisədən hansı nəticələr çıxarıla bilər?

Layihə

# 5.8 QLOBAL PROBLEM NƏDİR?

## İZAHETMƏ




**A.** Aral gölündə balıq növlərinin dəyişməsi




**B.** Aral gölünün müxtəlif illərə aid görüntüləri



**C.** Aral gölünün qurumuş ərazisi

Bəşəriyyətin ehtiyacları insanların iqtisadi fəaliyyətinin nəticəsində təmin olunur. Sənaye və kənd təsərrüfatı inkişaf etdikcə təbiətdən istifadə daha da artır. Bu isə əksər hallarda ciddi problemlərin yaranmasına səbəb olur. Problemlər məkanda lokaldan qlobal miqyasa qədər yayıla bilir. Məsələn, Amudərya və Sırdərya çaylarından suvarmada həddindən artıq istifadə edilməsi Aral gölünün qurumasına səbəb olub. Göldə yaranan ekoloji fəlakət genişlənərək lokal miqyasdan kənara çıxıb. Bunun nəticəsində yerli əhali üçün həyat şəraiti son dərəcə çətinləşib. Belə ki, balıqçılıq təsərrüfatları tamamilə məhv olub, torpaqlar şoranlaşıb, əhali arasında tənəffüs və allergiya xəstəlikləri artıb.

*Milli və regional məkan miqyasında* Aral fəlakəti bu gün Qazaxıstan və Özbəkistanın sosial-iqtisadi inkişafına ciddi zərbə vurur. Əhali arasında miqrasiya güclənmiş, səhiyyə xərcləri artmışdır. Bu ölkələr böyük maliyyə vəsaiti ayıraraq problemin nəticələrini azaltmağa çalışsalar da, fəlakətin təsiri hələ də davam edir.

Qurumuş dənizin dibindən qalxan duzlar və zərərli maddələr külək vasitəsilə minlərlə kilometr uzaqlığa yayılaraq digər ölkələrdə ekoloji vəziyyətə də təsir göstərə bilir. Bu hadisə dövlət sərhədlərini aşır və qlobal miqyasda problemə çevrilir. *Qlobal miqyasda* Aral gölünün quruması dünyada su ehtiyatlarının düzgün idarə olunmasının vacibliyini gündəmə gətirmiş və beynəlxalq təşkilatların diqqətini cəlb etmişdir.

Beləliklə, insanın iqtsadi fəaliyyəti nəticəsində yaranan lokal miqyaslı problem müəyyən müddət sonra müxtəlif məkanlarda ciddi fəsadlar yaradır. Dünya miqyasında təhlükə yaradan və ayrı-ayrı ölkələrin təkbaşına həll edə bilmədiyi, yalnız beynəlxalq əməkdaşlıq nəticəsində həll oluna bilən problemlər **qlobal problemlərdir**.

Qlobal problemləri tədqiq etmək insanların təhlükəsizliyi, rifahı və dayanıqlı inkişafı üçün çox əhəmiyyətlidir. Buna görə də qlobal problemlərin xüsusiyyətlərini dərk etmək və vaxtında tədbirlər görmək vacibdir.

Layihə

Qlobal problemlərin ən mühüm xüsusiyyətlərindən biri onların bütün dünyanı əhatə etməsidir. Məsələn, iqlim dəyişikliyi, ekoloji çirklənmə və s. planetin hər yerində müşahidə olunur. Qlobal problemlərin ikinci mühüm xüsusiyyəti onların bir-biri ilə sıx əlaqəli olmasıdır. Bəzən bir problem digər problemin yaranmasına və ya dərinləşməsinə səbəb olur. Məsələn, əhali artımı qida çatışmazlığına, bu isə sosial-iqtisadi gərginliyə gətirib çıxarır. Belə qarşılıqlı əlaqə qlobal problemlərin həllini daha da çətinləşdirir və kompleks yanaşma tələb edir.




D. Qlobal problemlərin xüsusiyyətləri

Qlobal problemlər ərazilərə görə fərqli şəkildə olur. Hər bir regionun təbii şəraiti, iqtisadi inkişaf səviyyəsi və sosial xüsusiyyətləri bu problemlərin təsir dərəcəsini dəyişir. Məsələn, isti ərazilərdə quraqlıq digər yerlərə nisbətən daha kəskin hiss olunur, sahilyanı ölkələr üçün isə dəniz səviyyəsinin qalxması daha çox təhlükə yaradır.

Qlobal problemlərin mühüm xüsusiyyətlərindən biri də onların uzunmüddətli təsirə malik olmasıdır. Bu problemlərin nəticələri yüz illər boyu davam edə bilər. Məsələn, ekoloji tarazlığın pozulması, radioaktiv çirklənmə, iqlim dəyişiklikləri və s. hadisələr gələcək nəsillərin həyat şəraitinə birbaşa təsir göstərir. Qlobal problemlərin effektiv həlli yalnız ölkələrin, beynəlxalq təşkilatların və cəmiyyətin birgə fəaliyyəti ilə mümkündür. Bu baxımdan BMT və digər beynəlxalq qurumların əməkdaşlığı çox vacibdir.




E. Ekoloji tarazlığın pozulması

## FƏALİYYƏT

1. A sxeminə əsasən tapşırığı yerinə yetirin və suala cavab verin.
   a) Sxemi təhlil edin.
   b) Dənizdəki balıq növlərinin azalması nə ilə əlaqədardır?
2. B və C təsvirlərində verilənlər arasında necə əlaqə mövcuddur?
3. D sxemində verilənlərə daha hansı xüsusiyyəti əlavə edə bilərsiniz?
4. E şəklində təsvir olunanları müqayisə edin. Ekoloji tarazlığın pozulması dedikdə nə başa düşürsünüz?

Layihə

# 5.9 QLOBAL PROBLEMLƏR NECƏ YARANIR?

## İZAHETMƏ

Təbiətdə baş verən təbii proseslər problem deyil, hadisə kimi nəzərə alınmalıdır. Çünki təbiət müəyyən qanunauyğunluqlar əsasında öz varlığını davam etdirir. Leysan yağışlar, güclü küləklər, zəlzələlər, vulkan püskürmələri  və s. proseslər insanlara fəlakət kimi görünür. Lakin bu proseslər təbiətin tarazlığını qoruyan, ekosistemlərin yenilənməsinə və inkişafına xidmət edən təbii hadisələrdir. Bu hadisələr sayəsində iqlim tənzimlənir, canlılar qidalanır və həyatın davamlılığı təmin olunur. Təbiətdə baş verən hadisələri təkcə insanların maraqları baxımından qiymətləndirmək düzgün olmaz. Qlobal problemlər uzun illər ərzində baş verən hadisələr deyil, əksinə, insan fəaliyyəti nəticəsində formalaşan fəlakətlərdir. İnsan təbiətdən  səmərəsiz istifadə etdikdə mövcud tarazlıq pozulur və problemlər yaranır. Qlobal xarakter daşıyan bu problemlər insan iradəsindən asılı olduğu üçün yalnız düzgün yanaşma və səmərəli istifadə nəticəsində zərərlər azaldıla, yaxud qarşısı alına bilər.




**Ekoloji problemlər** insan fəaliyyəti nəticəsində təbiətdəki tarazlığın pozulması, ətraf mühitə və bəşəriyyətə mənfi təsirlərlə əlaqədar ortaya çıxan problemlərdir. İnsanlar təbiəti həddindən artıq istismar  etdikdə ekosistemlərin normal fəaliyyəti pozulur. Nəticədə təbii mühitin özünü bərpaetmə qabiliyyəti azalaraq uzunmüddətli fəsadlar yaranır.

Müasir dövrün ən başlıca ekoloji problemlərindən biri *iqlim dəyişikliyidir*. İqlim dəyişikliyinin səbəblərindən biri isə insan fəaliyyəti nəticəsində atmosferə atılan istixana qazlarının artmasıdır. Qlobal istiləşmə nəticəsində buzlaqlar əriyir, Dünya okeanında suyun səviyyəsi yüksəlir, quraqlıq və sel hadisələrinin sayı artır. Eyni zamanda bitki və heyvan növləri dəyişən iqlim şəraitinə uyğunlaşa bilmədiyi üçün məhvolma təhlükəsi ilə üzləşir. Bu problemin qarşısını almaqdan ötrü ətraf mühitin qorunmasına dair müxtəlif tədbirlər yerinə yetirilməlidir. Bunun üçün həm fərdlər, həm də dövlətlər iqlim dəyişikliyi ilə mübarizəyə məsuliyyətlə yanaşmalıdır.




**A.** Endemik heyvan növlərinin yoxolma riski

*Təbii resurslardan səmərəsiz istifadə etmək* ekoloji problemlərin səbəblərindən biridir. Bura bərpa olunmayan  faydalı qazıntıların – neft, təbii qaz, kömür, dəmir, mis, qızıl, mərmər və s. hasilatı daxildir. Onlardan sənayedə, enerji istehsalında və inşaat sahələrində geniş istifadə olunur.

Layihə

Mineral resurslardan düzgün istifadə edilmədikdə həm ətraf mühit, həm də insanlar üçün ciddi fəsadlar yaranır. Resursların həddindən artıq və ətraf mühit nəzərə alınmadan hasilatı müəyyən problemlərə səbəb olur. Mədən hasilatı nəticəsində torpağın eroziyaya uğramasını, meşələrin məhv olmasını, ekosistemlərin pozulmasını və habitatın itirilməsini buna nümunə göstərmək olar. Neft və təbii qazın hasilatı, həmçinin emalı zamanı sənaye tullantıları yaranır ki, bu da müxtəlif növ çirklənmələrə səbəb olur. Ona görə də müasir texnologiyalardan, tullantıların azaldılmasından və alternativ enerji mənbələrindən istifadə dayanıqlı inkişafın təmin edilməsi üçün xüsusi əhəmiyyət daşıyır.



**B.** Tankerdən neft sızması

## COĞRAFİ FAKT

*Sənaye istehsalında alüminium emalı zamanı təbii boksit filizindən 1 ton alüminium əldə etmək üçün təxminən 4 ton boksit ehtiyatı tələb olunur. Lakin təkrar emal yolu ilə eyni miqdarda alüminium istehsalında təbii resursların istifadəsi 95%-ə qədər azalmış olur. Bu, sənaye istehsalında ekoloji baxımdan təbii resursların necə səmərəli istifadə edilə biləcəyinə dair nümunələrdən biridir.*

| istehsal | təbii resursdan istifadə | enerji sərfiyyatı | $CO_2$ emissiyası | ekoloji təsiri |
|---|---|---|---|---|
| İlkin istehsal (1 ton Al) | 4–5 ton boksit | 13000–16000 kVt-saat | 12–16 ton | torpaq eroziyası, meşələrin məhv olması və s. |
| Təkrar emal (1 ton Al) | 1,1–1,3 ton alüminium tullantısı | 600–900 kVt-saat | 0,4–0,6 ton | resursların mühafizəsi, ekoloji dayanıqlılıq və s. |

Bərpa olunan resurslardan səmərəli istifadə ekoloji baxımdan çox əhəmiyyətlidir. Bu resurslar fosil yanacaqlarla müqayisədə ekoloji təmiz hesab edilmələrinə baxmayaraq, mənfi təsirləri də müşahidə olunur. Məsələn, su-elektrik stansiyaları çayların təbii axın rejiminə, balıqların miqrasiyasına və su hövzələrində ekosistemlərə mənfi təsir edir. Bərpa olunan resurslar, əsasən, lokal ekoloji problemlərə səbəb olur. Bu təsirləri isə müasir texnologiyalar, düzgün planlaşdırma və nəzarət mexanizmləri vasitəsilə minimuma endirmək mümkündür.




**C.**

### FƏALİYYƏT

1. İnsan fəaliyyətləri nə üçün qlobal problemlərə səbəb olur?
2. A qrafikinə və mətnə əsasən iqlim dəyişikliklərinin canlılara necə təsir etdiyini izah edin.
3. B şəklindəki təsviri hansı çirklənmə növünə aid etmək olar?
   Hadisəni A qrafiki ilə əlaqələndirin.
4. D şəklində verilən bərpa olunan enerji mənbəyini müəyyən edin və C sxemində verilənlərə oxşar şəkildə ekoloji mənfi təsirlərini sadalayın.



**D**

Ləvinə

# 5.10 ƏTRAF MÜHİTİN ÇİRKLƏNMƏSİ

## İZAHETMƏ

Müasir dövrdə ekoloji problemlərdən biri çirklənmədir. Ətraf mühitin çirklənməsi insanların iqtisadi fəaliyyəti nəticəsində ətraf mühitə zərərli maddələrin atılması və mövcud təbii tarazlığın pozulmasıdır. Bu problem canlıların sağlamlığına, ekosistemlərin davamlılığına və həyat üçün əlverişli şəraitin mövcud olmasına təhlükə yaradır. Çirklənmələr əhatə etdiyi məkana və müxtəlifliyinə görə fərqlənir. Səs, işıq, vizual və termal çirklənmələr, əsasən, lokal miqyasda müşahidə olunur. Hava, su və torpaq çirklənmələri isə lokaldan qlobala qədər müxtəlif məkan miqyaslarında mövcud ola bilər.



A. Çirklənmə növləri

Ətraf mühitdə normadan artıq (65 dB-dən yuxarı) və ya arzuolunmaz səslərin əmələ gəlməsi **səs çirklənməsidir**. Bu çirklənmə avtomobil nəqliyyatı və tikinti sahəsində, hava limanlarında, fabrik və zavodlarda yüksək səslə işləyən texnika və məişət avadanlıqları nəticəsində meydana gəlir. Səs çirklənməsi stres, yuxusuzluq, eşitmə qabiliyyətinin zəifləməsi və psixoloji narahatlıqlara səbəb olur. Bunun qarşısını almaq üçün səs izolyasiyalı binaların tikilməsi, parkların salınması, nəqliyyatın tənzimlənməsi və səs normativlərinə əməl olunması vacib amillərdir.

Günün qaranlıq vaxtlarında süni işıqlandırmalardan düzgün istifadə edilməməsi və ya məkanın həddindən artıq (10 lx-dən yuxarı) işıqlandırılması **işıq çirklənməsidir.** Küçə işıqları, reklam lövhələri, binaların və sənaye müəssisələrinin işıqlandırılması bu çirklənməyə aiddir. Bu çirklənmə insanın bioloji ritmini pozur, yuxusuzluq yaradır və canlıların təbii davranışına mənfi təsir göstərir. İşıq çirklənməsinin azaldılması üçün enerjiyə qənaət edən sistemlərin seçilməsi, istifadə olunmayan işıqların gecə saatlarında söndürülməsi vacibdir.

Ətraf mühitin təbii görünüşünü pozan narahatedici obyektlər **vizual çirklənmə** yaradır. Plansız və rəng ahənginə uyğun olmayan tikililər, çoxlu sayda reklam lövhələri, yarımtikili binalar, zibilliklər və köhnəlmiş infrastruktur vizual çirklənmənin əsas səbəbləridir. Bu çirklənmənin qarşısını almaq üçün dayanıqlı şəhər planlaşdırılmasına riayət edilməli, reklamların sayı və yerləşdirilməsi tənzimlənməli, ətraf mühitin təmizliyinə diqqət yetirilməlidir.

İnsan fəaliyyəti nəticəsində su hövzələrində temperaturun kəskin artması (normadan 30°C çox) **termal çirklənmədir**. Elektrik stansiyalarından, sənaye müəssisələrindən, məişətdəki istilik sistemlərindən axıdılan isti sular termal çirklənmənin əsas mənbəyidir. Nəticədə suda temperatur yüksəlir və oksigenin miqdarı azalır. Bu isə canlıların məhvinə səbəb olur və ekosistemə mənfi təsir edir.

Termal çirklənmə iri şəhərlərdə də baş verir. Asfalt, beton və metal örtüklərin çoxluğu istiliyi udub saxlayır və ətraf mühitin temperaturunu artırır. Bu hal insanların fiziki narahatlığına, günvurma və ürək-damar xəstəlikləri-

5



6



7



8



**B.** Çirklənmə növləri

nin artmasına səbəb olur. Termal çirklənmənin azaldılması üçün alternativ enerji mənbələrindən istifadə, yaşıllıq sahələrinin artırılması və s. mühüm əhəmiyyət daşıyır.

İqtisadi fəaliyyət nəticəsində zərərli qazların, toz və aerozolların atmosferə normadan artıq daxil olması **hava çirklənməsidir**. Sənaye müəssisələrindən havaya atılan tullantılar, nəqliyyat vasitələrindən ayrılan qazlar, meşə yanğınları və s. bu çirklənmənin əsas səbəbləridir. Hava çirklənməsi iqlim dəyişikliyini, turşulu yağışları, tənəffüs yolları xəstəliklərini və s. qlobal problemləri əmələ gətirir. Bunun qarşısının alınması üçün təmiz enerji mənbələrindən istifadə, nəqliyyatın ekoloji cəhətdən səmərəli təşkili, sənaye müəssisələrində havatəmizləyici qurğuların quraşdırılması, tullantısız texnologiyaların tətbiqi və meşə sahələrinin salınması vacibdir.

Təbiətə atılan zərərli tullantıların su hövzələrinə qarışması nəticəsində suyun keyfiyyətinin pisləşməsi **su çirklənməsidir**. Su çirklənməsi neft istehsalı zamanı yaranan sızmalar, sənaye və məişət tullantılarının təmizlənmədən su hövzələrinə axıdılması və s. nəticəsində əmələ gəlir. Bu da  içməli su qıtlığına, suda yaşayan canlıların məhv olmasına , yoluxucu xəstəliklərin yayılmasına və s. səbəb olur. Problemin həlli üçün tullantı sularının təmizlənməsi, su ehtiyatlarının mühafizəsi, ekoloji nəzarətin gücləndirilməsi və su resursları barədə əhalinin maarifləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Zərərli maddələrin ətraf mühitə atılması nəticəsində torpağın fiziki, kimyəvi və bioloji tərkibinin dəyişməsi **torpaq çirklənməsidir**. Bu çirklənmə kənd təsərrüfatında kimyəvi maddələrdən normadan artıq istifadə olunması, sənaye və məişət tullantılarının atılması, nəqliyyat və tikinti sahəsində atılan zərərli maddələrin torpağa qarışması nəticəsində baş verir. Buna görə torpağın münbitliyi azalır, ekosistemdəki tarazlıq pozulur və canlılar zərər görür. Torpaq çirklənməsinin qarşısını almaq üçün tullantıların düzgün idarə olunması, təmiz texnologiyaların tətbiqi, torpağın rekultivasiyası həyata keçirilməlidir.

Ətraf mühitdə radioaktiv şüalanmanın təbii normadan artıq (5 mSv/il-dən çox) səviyyəyə yüksəlməsi **radiasiya çirklənməsi** yaradır. Belə çirklənmələr atom-elektrik stansiyalarındakı qəzalar, nüvə silahlarının sınaqları, radioaktiv tullantıların düzgün saxlanılmaması və tibbi radiasiya mənbələrinin nəzarətsiz istifadəsi zamanı baş verir. Radiasiya çirklənməsi müxtəlif xəstəliklərin artmasına, genetik dəyişikliklərə və s. səbəb olur. Bu problemin qarşısının alınması üçün radiasiya mənbələrinə ciddi nəzarət, radioaktiv tullantıların təhlükəsiz yerlərdə saxlanılması, beynəlxalq təhlükəsizlik qaydalarına əməl edilməsi və əhalinin radiasiya təhlükəsizliyi barədə məlumatlandırılması zəruridir.

**FƏALİYYƏT**

1. A, B şəkillərinə və mətnə əsasən suallara cavab verin.
   a) Şəkillərdəki təsvirlər hansı çirklənmə növlərinə aiddir?
   b) Bu çirklənmə növləri canlılara necə təsir edir? Buna dair nümunələr gətirin.
   c) Şəkillərdəki təsvirlər hansı məkan miqyasına təsir edən çirklənmə növləridir?
   d) Çirklənmə növlərini oxşar xüsusiyyətlərinə görə necə qruplaşdırmaq olar? Fikrinizi əsaslandırın.
2. Yaşadığınız ərazidə çirklənmənin hansı növlərini müşahidə edirsiniz? Onların səbəblərini və həlli yollarını müəyyən edin.

Layihə

# 5.11 QLOBAL İQTİSADİ PROBLEMLƏR

## İZAHETMƏ

İnsanların gündəlik ehtiyacları ödənildiyi zaman sosial rifah təmin edilir. İqtisadi fəaliyyətin nəticəsində bu ehtiyacların ödənilməsi ilə yanaşı, iqtisadi problemlər də yaranır. Cəmiyyətin məhdud resurslarla sonsuz və artan tələbatını ödəmək zərurəti **iqtisadi problemlər** yaradır. Bu çətinliklər ölkə səviyyəsindən qlobal miqyasa qədər müxtəlif iqtisadi problemlər şəklində təzahür edir.




İqtisadiyyatın bütün sahələrində enerji resurslarından geniş istifadə edilir. Enerjinin tükənməsi *enerji qıtlığına* səbəb olur. Əhalinin sayının artması, sənayenin inkişafı, enerji resurslarının qeyri-bərabər paylanması ölkədə enerji qıtlığının yaranmasına səbəb olan amillərdir. Son illər fosil yanacaqların tükənməsi və enerji istehlakının sürətlə artması bu problemi daha da dərinləşdirir.

Enerji qıtlığı nəticəsində nəqliyyat və istehsal xərcləri kəskin artır, sənaye nüəssisələrində isə istehsal həcmi azalır. Bu da inflyasiyaya və işsizlik səviyyəsinin artmasına səbəb olur. Enerji resurslarından səmərəli istifadə olunması, enerji itkilərinin azaldılması, yeni texnologiyaların tətbiqi və alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi enerji qıtlığının qarşısını ala bilər. Bundan başqa, ölkələr arasında əməkdaşlığın gücləndirilməsi və enerji təhlükəsizliyinin təmin edilməsi də bu sahədə əsas istiqamətlərdən biridir. **Enerji təhlükəsizliyi** dövlətin enerji resurslarına olan tələbatı fasiləsiz, iqtisadi cəhətdən əlverişli və uzunmüddətli təmin edə bilməsidir. Müxtəlif növ enerji mənbələrindən səmərəli istifadə, idxaldan asılılığın azaldılması, enerji infrastrukturunun müasir standartlara uyğunlaşdırılması enerji təhlükəsizliyinin əsas amilləridir. Enerji təhlükəsizliyinin qiymətləndirilməsi və idarə olunması məqsədilə müxtəlif modellər mövcuddur. Bu modellər arasında qəbul olunmuş yanaşmalardan biri də 4A modelidir.

**ENERJİ TƏHLÜKƏSİZLİYİ**

| Mövcud olması *(Availability)* | Əlçatan olması *(Accessibility)* | Sərfəli olması *(Affordability)* | Qəbul olunması *(Acceptability)* |
| --- | --- | --- | --- |
| Enerji mənbələrinin kifayət qədər və davamlı şəkildə təmin edilməsidir. Bura həm daxili, həm də idxal enerji resurslarını aid etmək olar. | Enerji resurslarını əldə etmək imkanlarını ifadə edir. Bu resursların istehsaldan istehlakçıya təhlükəsiz və fasiləsiz şəkildə çatdırılmasını nəzərdə tutur. | Enerjinin istehlakçılar üçün maliyyə cəhətdən əlverişli olmasıdır. Enerji qiymətlərinin artması əhalinin sosial rifahına və iqtisadi rəqabətə mənfi təsir göstərir. | Enerji istehsalı və istifadəsinin ekoloji baxımdan cəmiyyət tərəfindən qəbul olunmasıdır. Bu meyar ətraf mühitin mühafizəsi ilə əlaqəlidir. |

Layihə

Müasir dövrdə dünya ölkələrinin üzləşdiyi problemlərdən biri də **qida qıtlığıdır** *(food insecurity)*. Qloballaşma dövründə qida istehsalı və bölgüsü ölkələr arasında qarşılıqlı asılılığı artırır. Bir regionda yaranan ərzaq problemi digər regionlarda da iqtisadi və sosial təsirlərə səbəb olur. Qida qıtlığının yaranması ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqədardır. İnkişaf etməkdə olan ölkələrdə əhalinin aşağı gəlir səviyyəsi, kənd təsərrüfatının zəif texnoloji bazası, maliyyə və investisiya çatışmazlığı qidanı əldəetmə imkanlarını məhdudlaşdırır. İnkişaf etmiş ölkələrdə isə zəif inkişaf etmiş ölkələrlə müqayisədə qida məhsullarının əlçatan olması qlobal miqyasda məhsulların qeyri-bərabər paylanmasını kəskinləşdirir.

Dünya əhalisinin sayı artdıqca qidaya olan tələbat yüksəlir. Əkin sahələrinin azalması, torpaqların deqradasiyası və su ehtiyatlarının məhdud olması istehsal imkanlarını azaldır. Bu isə qlobal ərzaq qıtlığına səbəb olur. Qida qıtlığı iqlim dəyişikliyi ilə də sıx əlaqəlidir. Quraqlıq, sel, ekstremal hava hadisələri və temperatur dəyişiklikləri kənd təsərrüfatında məhsuldarlığı azaldır. Nəticədə qida az istehsal olunur və qlobal bazarlarda gərginlik yaranır.

Qida qıtlığının sosial və siyasi nəticələri də mövcuddur. Belə ki, qida çatışmazlığı kütləvi miqrasiyaya, sosial narazılıqlara və siyasi sabitliyin pozulmasına səbəb ola bilər. Bu problem təkcə lokal deyil, həm də qlobal miqyasda qiymətləndirilir.

Qida təminatı və təhlükəsizliyi ərzaq probleminin həllində mühüm rola malikdir. **Qida təminatı** *(food supply)* qida məhsullarının istehsalı, əldə edilməsi və paylanmasının təmin olunmasıdır. Ölkələr qida təminatını artırmaq məqsədilə kənd təsərrüfatı istehsalını, beynəlxalq ticarət əlaqələrini, logistika və saxlanma infrastrukturunu genişləndirir. Qida təminatı əhalinin həm qidalanma imkanlarına, həm də qiymət sabitliyinə və iqtisadi dayanıqlılığa birbaşa təsir edir.



**B.** Qida qıtlığı



**C.** Qida təminatı




**D.** Qida təhlükəsizliyi

**Qida təhlükəsizliyi** *(food security)* insanların hər zaman kifayət qədər, təhlükəsiz və faydalı qidalar əldəetmə imkanlarına malik olmalarıdır. Qida təhlükəsizliyi cəmiyyətin sağlamlığı, əmək qabiliyyəti və dayanıqlı inkişafı üçün zəruri sayılır.

**FƏALİYYƏT**

1. A sxeminə əsasən suallara cavab verin.
   a) Sizcə, hansı iqtisadi problem digərlərinə birbaşa təsir edir? Fikrinizi əsaslandırın.
   b) Qlobal iqtisadi problemlərdən birini seçin. Həmin problemin həllində hansı addımların atılması vacibdir?
2. Ölkədə enerji təhlükəsizliyi təmin olunarkən hansı amillər nəzərə alınmalıdır?
3. B, C və D şəkillərinə əsasən tapşırıqları yerinə yetirin.
   a) Şəkilləri təhlil edin.
   b) Verilən şəkil başlıqlarının mənasını izah edin.
   c) Şəkillərdə təsvir olunanların bir-biri ilə əlaqəsini müzakirə edin.

Layihə

# 5.12 İNFLYASİYA VƏ YOXSULLUQ

## İZAHETMƏ

Qlobal iqtisadi problemlərdən biri inflyasiyadır. Müəyyən dövrdə ölkədə, yaxud qlobal miqyasda məhsulun və xidmətlərin ümumi qiymət səviyyəsinin artması **inflyasiya** prosesidir. İnflyasiya təbii, iqtisadi, siyasi və sosial amillər səbəbindən yaranır. Məsələn, 2022-ci ildə qlobal inflyasiya 8,7% səviyyəsinə qalxaraq son 40 ilin ən yüksək göstəricisi kimi tarixə düşmüşdür. Bu prosesin əsas səbəbləri pandemiya, enerji böhranı və müharibələr olub. Həmin il ərzaq və enerji qiymətləri artmış, ölkələrdə əhalinin real gəlirləri azalmış və nəticədə sosial gərginlik yaranmışdı.




Qiymətlər artır.
Pulun dəyəri düşür.
Real gəlirlər azalır.
Yoxsulluq səviyyəsi artır.
Alıcılıq qabiliyyəti azalır.
Sosial qeyri-bərabərlik dərinləşir.
Xaricə miqrasiya meyli artır.
İnvestisiya fəaliyyəti zəifləyir.
İstehsal xərcləri artır.
Ölkələrarası inkişaf fərqləri artır.

**A.** İnflyasiyanın İşikava səbəb-nəticə sxemi

Hər bir ölkədə inflyasiya prosesi fərqli formada təzahür edir. İnflyasiyanın intensivliyi ölkələrin iqtisadi inkişaf səviyyəsindən, təbii resurslarla təmin olunmasından, idxaldan asılılıq dərəcəsindən, siyasi sabitlik və beynəlxalq ticarətdə iştirakından asılıdır. İnkişaf etmiş ölkələrdə inflyasiya daha aşağı və sabit, inkişaf etməkdə olan ölkələrdə isə yüksək və dəyişkən olur. Bu fərqlər özünü rayonlararası sosial-iqtisadi inkişaf səviyyəsində də büruzə verir. Ölkələrdə inflyasiyanı azaltmaq məqsədilə müxtəlif iqtisadi tədbirlər həyata keçirilir. Bu tədbirlərə daxili istehsalın inkişafını, idxaldan asılılığın azaldılmasını, nəqliyyatın təkmilləşdirilməsini, regional iqtisadi əməkdaşlığın gücləndirilməsini aid etmək olar.

*Yoxsulluq* ölkələrin qlobal miqyasda qarşılaşdığı iqtisadi problemlərdən biridir. İnsanların yaşamaq üçün vacib olan ehtiyaclarını ödəyə bilməməsi yoxsulluq vəziyyətidir. Gündəlik qida, içməli su, geyim, təhsil, səhiyyə xidmətləri və s. ehtiyaclarını tam ödəyə bilməyən insanlar yoxsul hesab olunurlar. Sosial-iqtisadi baxımdan yoxsulluq 3 əsas qrupa bölünür.




**B.** Dünyada ifrat yoxsulluq səviyyəsinin qrafiki

**Mütləq yoxsulluq** əhalinin yaşamaq üçün zəruri ehtiyaclarını təmin edə bilməyən hissəsini əhatə edir. BMT-nin 2025-ci il proqnozuna görə, dünyada təqribən 808 milyon insan mütləq yoxsulluq şəraitində yaşayır.

**İfrat yoxsulluq** insanların öz həyatları üçün ən vacib ehtiyaclarını (qida, su) ödəyə bilmədikləri ən ağır yoxsulluq formasıdır. Bu yoxsulluq səviyyəsi beynəlxalq standartlara əsasən ölçülür. Bir insan 1 gün ərzində 3 dollardan az pul ilə yaşamağa məcburdursa, bu zaman o, ifrat yoxsul sayılır.

Layihə

**Nisbi yoxsulluq** ölkənin orta minimum həyat səviyyəsi ilə müqayisədə daha aşağı gəlirə malik olan əhalisini əhatə edir. Bu, ölkələr üzrə fərqli ola bilər. Nisbi yoxsulluq, əsasən, İEÖ-də, mütləq və ifrat yoxsulluq isə daha çox İEOÖ-də, xüsusilə Mərkəzi və Şərqi Afrika regionlarında müşahidə edilir.

Yoxsulluq müxtəlif səbəblərdən yaranır. Bura əhalinin yüksək təbii artımı, işsizlik, gəlirlərin qeyri-bərabər paylanması, zəif təhsil səviyyəsi, təbii fəlakətlər, müharibələr daxildir. Məsələn, quraqlıq kənd təsərrüfatı ilə məşğul olan insanların gəlirlərinin azalmasına səbəb olur. Yoxsulluğun bəşəriyyət üçün sosial qeyri-bərabərlik, əmək miqrasiyası, uşaq əməyindən istifadə, təhsil və səhiyyə xidmətlərinə əlçatanlığın olmaması kimi mənfi təsirləri də var.

Qlobal iqtisadi problemlərdən biri də *iqtisadi asılılıqdır*. İqtisadi asılılıq ölkənin iqtisadi inkişafının digər ölkələrdən, beynəlxalq bazardan və xarici kapitaldan asılı vəziyyətə düşməsidir. Qloballaşma dövründə ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsi nəticəsində bu asılılıq daha da artır. Xüsusilə inkişaf etməkdə olan ölkələrin müstəqil iqtisadi qərar qəbuletmə imkanları məhdudlaşır və iqtisadi asılılıq problemi baş verir. **Mərkəz–Periferiya** *(Core–Periphery)* qlobal miqyasda iqtisadi inkişafın qeyri-bərabər paylanmasını izah edən sosial-iqtisadi modeldir. Modelə görə, dünya mərkəz və periferiya (kənar) regionlarına bölünür.




**C.** Mərkəz–Periferiya iqtisadi asılılıq modeli

Mərkəz ölkələrdə yüksək texnologiyaya əsaslanan istehsal, maliyyə resursları və qərarvermə gücü hakimdir. Periferiya ölkələrində isə, əsasən, xammal resursları və ucuz işçi qüvvəsi mövcuddur. Bu ölkələr iqtisadi cəhətdən mərkəz ölkələrindən asılı vəziyyətdə olur. Belə iqtisadi münasibətlər qlobal miqyasda iqtisadi asılılıq və bərabərsizliklə nəticələnir. İqtisadi asılılıq, əsasən, tarixi, siyasi və iqtisadi amillərlə bağlıdır. Uzun müddət xammal ixracatçısı kimi formalaşmış müstəmləkə keçmişinə malik olan ölkələr sənaye və texnologiyanın inkişafı baxımından xeyli geri qalır. Bundan başqa, xarici borclar, transmilli şirkətlərin iqtisadiyyatda üstün mövqeyi, idxaldan ifrat asılılıq və yerli istehsalın zəif inkişafı da iqtisadi asılılığın dərinləşməsinə səbəb olur. İqtisadi asılılıq belə ölkələrin iqtisadi və siyasi təhlükəsizliyinə ciddi təhdid yaradır. Xarici bazarda baş verən qiymət dəyişiklikləri və maliyyə böhranları asılı ölkələrin iqtisadiyyatına mənfi təsir göstərir. Bu zaman həmin ölkələrdə işsizlik artır, milli valyuta dəyərdən düşür və sosial problemlər yaranır. İqtisadi asılılıq problemi ölkə səviyyəsində həllini tapmazsa, bu zaman dövlətlərin müstəqil siyasət yürütməsi ciddi maneələrlə üzləşir. Buna görə də yerli istehsalın gücləndirilməsi, sənayenin inkişafı, təhsilə və innovasiyalara qoyulan investisiyaların artırılması, regional əməkdaşlığı gücləndirmək və dayanıqlı iqtisadi siyasətin həyata keçirilməsi vacib amillərdir.

**FƏALİYYƏT**

1. A təsvirində verilən İşikava sxemini təhlil edin. Bu sxemə əsasən 2022-ci ildən başlayaraq Avropada baş vermiş inflyasiyanın səbəb-nəticələrini müzakirə edin.
2. B qrafikinə əsasən tapşırıqları yerinə yetirin.
   a) Qrafiki təhlil edin.
   b) İfrat yoxsulluğun sabəbləri və həlli yollarını müzakirə edin.
3. C modelinə əsasən suallara cavab verin.
   a) Mərkəz və periferiya ölkələri bir-birindən necə asılıdır?
   b) Bu asılılıq inkişafına görə hansı növ ölkələrə uyğundur? Səbəblərini izah edin.

Layihə

# 5.13 QLOBAL SİYASİ PROBLEMLƏR

## İZAHETMƏ

Müasir dövrdə ölkələrin müxtəlif sahələrdə bir-biri ilə rəqabəti getdikcə güclənir. Bu rəqabət bəşəriyyət üçün yeni fürsətlər yaratmaqla yanaşı, bir sıra ciddi problemlərə də səbəb olur. Yaranan problemlər təkcə ayrı-ayrı ölkələrin daxili məsələsi kimi qalmır, əksinə, bütün dünyanı əhatə edərək qlobal xarakter alır. Qlobal siyasi problemlər dövlətlərin sərhədlərini aşan, beynəlxalq ictimaiyyətə təsir göstərən və yalnız ölkələrin birgə səyləri ilə həll oluna bilən siyasi xarakterli problemlərdir. Bu problemlər dünya miqyasında sülhə, sabitliyə, təhlükəsizliyə, insan hüquqlarına və beynəlxalq münasibətlərə mənfi təsir göstərir.




**A.** Kəşmirdə mübahisəli sərhəd



**B.** Güclü dövlətlərin iqtisadi rəqabəti




**C.** Hüquq normalarının pozulması

*Dövlət maraqlarının toqquşması* hazırda ən mühüm qlobal siyasi problemlərdən biridir. Hər bir dövlət öz iqtisadi maraqlarını qorumağa, milli təhlükəsizliyini təmin etməyə və siyasi təsir dairəsini genişləndirməyə çalışır. Məqsədlər üst-üstə düşmədikdə dövlətlər arasında ziddiyyət yaranır, bu isə qlobal miqyasda gərginliyə səbəb olur. Belə gərginliklər beynəlxalq münasibətləri və sabitliyi pozaraq sülhə ciddi təhlükə yaradır.

Tarixi, etnik, siyasi, iqtisadi və s. amillərlə bağlı olan *sərhəd mübahisələri* dövlətlər arasında uzunmüddətli qarşıdurmalara səbəb olur. Mübahisəli ərazilər üzərində suverenlik iddiaları tərəflər arasında etimadsızlığı artırır və silahlı münaqişələr üçün zəmin yaradır. Bu cür problemlər təkcə mübahisədə iştirak edən dövlətləri deyil, eyni zamanda regionun ümumi təhlükəsizliyini də risk altına alır. Bəzən hər hansı bir güclü dövlət müxtəlif regionlarda nüfuz və üstünlük əldə etmək məqsədilə siyasi, hərbi və iqtisadi mübarizə aparır. Bu rəqabət beynəlxalq münasibətlərdə güc balansının dəyişməsinə və zəif dövlətlərin sabitliyinə mənfi təsir göstərir.

Dövlət maraqlarının toqquşmasının qarşısını almaqda və münaqişələrin tənzimlənməsində *beynəlxalq hüquq normaları* mühüm rol oynayır. Dövlətlər arasında münasibətlərin hüquqi əsaslar üzərində qurulması beynəlxalq müqavilələr və konvensiyalarla müəyyənləşdirilir. Lakin bəzən dövlətlər milli maraqları beynəlxalq hüquq normalarından üstün tutur ki, bu da mövcud problemlərin daha da kəskinləşməsinə səbəb olur. Buna görə də beynəlxalq hüquqa hörmət və əməkdaşlıq qlobal siyasi problemlərin həllində əsas şərtlərdən biri hesab edilir.

Müharibələr qlobal siyasi problemlərin ən ağır və təhlükəli formasıdır. Bu problem təkcə dövlətlər arasında silahlı qarşıdurma

Layihə

ilə məhdudlaşmır. Qloballaşan dünyada müharibələrin təsir dairəsi sürətlə genişlənir. Nəticədə milli və regional münaqişələr qısa müddətdə beynəlxalq xarakter alır. Müharibələrin yaranma səbəblərini araşdırmaq və sülh üçün addımlar atmaq  qlobal siyasət baxımından xüsusi əhəmiyyət daşıyır.

*Silahlanma və nüvə sınaqları* beynəlxalq təhlükələrin yaranmasında əsas problemlərdən biridir. Hərbi gücləri artırmaq məqsədilə dövlətlər sürətlə silahlanır. Bu,  beynəlxalq münasibətlərdə etimadsızlığı gücləndirir və müharibə riskini artırır. Xüsusilə nüvə silahlarının yayılması və nüvə sınaqlarının keçirilməsi bəşəriyyət üçün böyük təhlükədir. Nüvə silahlarının dağıdıcı gücü yalnız hərbi deyil, ekoloji və humanitar fəsadlara da səbəb ola bilər.

*Radikal ideologiyalar və terrorizm* də beynəlxalq təhlükələrdən biridir. Radikal ideologiyalar cəmiyyətlər arasında nifrət və qarşıdurma yaradır, terrorizmə səbəb olur. Terrorizm siyasi məqsədlərinə zorakılıq yolu ilə nail olmağa çalışan qrupların fəaliyyətidir. Onların fəaliyyəti dövlətlərin daxili sabitliyini pozur. Amma bu təhlükələr heç də ölkə sərhədləri ilə məhdudlaşmır. Belə problemlərin həlli üçün beynəlxalq əməkdaşlıq çox zəruridir. Çünki silahlanma, nüvə təhlükəsi, radikal ideologiyalar və terrorizm qlobal siyasi təhlükəsizlik üçün ciddi problemlər yaradır.




D. Şimali Koreyada nüvə sınaqları




E. Dünyada terrorizm xəritəsi (2025-ci il)

**QLOBAL SİYASİ PROBLEMLƏR**

- Dövlətlərin maraqlarının toqquşması
  - Sərhəd problemləri
  - Güclü dövlətlərin rəqabəti
  - Beynəlxalq hüquq normaları
- Müharibələr
  - Milli və regional toqquşmalar
- Beynəlxalq təhlükələr
  - Silahlanma
  - Nüvə sınaqları
  - Radikal ideologiyalar
  - Terrorizm

**FƏALİYYƏT**

1. A, B və C şəkillərindəki təsvirləri şərh edin. Təsvirlərdəki görüntülərin mənfi nəticələrini müzakirə edin.
2. D şəklindəki təsvirə əsasən Şimali Koreyada keçirilən nüvə sınaqlarının bəşəriyyət üçün hansı təhlükələr yaratdığını izah edin.
3. E xəritəsinə əsasən suallara cavab verin.
   a) Hansı region və ölkələrdə terrorizm riski daha yüksəkdir?
   b) Terrorizmin başvermə səbəbləri hansılardır?
   c) Terrorizmin qarşısını almaq üçün hansı tədbirlər həyata keçirilə bilər?

# 5.14 QLOBAL SOSİAL PROBLEMLƏR

## İZAHETMƏ

Qlobal sosial problemlər insanların həyat səviyyəsini aşağı salan, hər hansı bir ölkədə qeyri-sabitlik yaradan və beynəlxalq əməkdaşlıq tələb edən çətinliklərdir. Əhalinin təbii artımı, miqrasiya, təhsil və səhiyyə sahəsində mövcud olan çətinliklər qlobal miqyasda ciddi sosial problemlər yaradır. Belə problemlər ölkələrdəki demoqrafik vəziyyət və iqtisadi inkişaf səviyyəsi ilə sıx əlaqəlidir.

Bəzi ölkələrdə əhali sürətlə artdığı üçün işsizlik, qida çatışmazlığı və s. çətinliklər yaranır. Digər ölkələrdə isə əhalinin azalması işçi qüvvəsinə ehtiyac yaradır. İnsanlar daha yaxşı həyat şəraiti əldə etmək üçün bir ölkədən digərinə miqrasiya edirlər. İqlim dəyişiklikləri, müharibələr, yoxsulluq və s. hadisələr miqrasiya prosesini daha da gücləndirir. Məsələn, afrikalı emiqrantlar Aralıq dənizi vasitəsilə Avropaya köçməyə cəhd edirlər.



**A.** Afrikalı emiqrantlar




**B.** Afrika qitəsinin miqrasiya qrafiki

Əhalinin əksəriyyəti iş imkanlarının, sənaye və xidmət sahələrinin inkişaf etdiyi şəhərlərə meyil edir. Bu vəziyyət urbanizasiyanın sürətlənməsinə səbəb olur. Nəticədə şəhərlərdə əhali sıxlığı və mənzil çatışmazlığı artır, nəqliyyat, su, kanalizasiya və s. infrastruktur sistemləri yüklənir. Bu isə plansız məskunlaşmaya, qeyri-qanuni yaşayış məntəqələrinin yaranmasına və sosial problemlərin dərinləşməsinə yol açır.

*Gender bərabərsizliyi* cəmiyyətdə hüquq, imkan və resurslardan istifadə baxımından qadınlarla kişilərin fərqlənməsi vəziyyətidir. Müasir dövrdə bu problem bir çox ölkələrdə müşahidə olunur və əsasən, ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi ilə əlaqəlidir.



**C.** Afrikanın savadlılıq xəritəsi

Gender bərabərsizliyi, əsasən, təhsil, əmək bazarı və səhiyyə sahələrində özünü göstərir. Bir çox İEOÖ-də qızların təhsilə cəlb olunmaması və erkən nikahlar nəticəsində qadınlar arasında savadsızlıq səviyyəsi artır. Gender bərabərsizliyi iqtisadi inkişafın ləngiməsi, yoxsulluğun dərinləşməsi və sosial ədalətsizliyin artması kimi mənfi sosial-iqtisadi nəticələrə səbəb olur.

Cəmiyyətin inkişafını müəyyən edən amillərdən biri də təhsildir. Dünyada *təhsilin əlçatanlığı* hər kəs üçün eyni səviyyədə təmin olunmur. İnkişaf etməkdə olan ölkələrdə təhsil infrastrukturunun zəifliyi əhalinin savadlılıq səviyyəsinə mənfi təsir edir. Maddi imkanların məhdudluğu, təhsil resurslarının azlığı və müəllim çatışmazlığı insanların təhsil almasına mane olur. Bu isə cəmiyyətdə sosial bərabərsizlik yaradır.

Təhsil səviyyəsinin qeyri-bərabərliyi ölkələr arasında inkişaf fərqlərini daha da artırır. Məsələn, Afrikada hər kəsin təhsilə əlçatanlığının olmaması sosial problemlərə səbəb olur. Yoxsulluq, məktəb sayının az olması və resurs çatışmazlığı əksər uşaqların təhsil almasına imkan vermir. Bu isə qitədə savadsızlıq və işsizlik, həmçinin qadınların cəmiyyətdə zəif mövqe tutması kimi ciddi sosial problemlər yaradır.




**D.** Dünyada orta ömür müddəti xəritəsi (2025-ci il)

*Səhiyyə* sisteminin əsas məqsədi insanların sağlamlığını qorumaq və onları tibbi xidmətlərlə təmin etməkdir. Bəzi ölkələrdə bu sahədə olan çatışmazlıqlar sosial problemlər yaradır. Səhiyyə xidmətlərinin əlçatanlığı ölkələrin inkişaf səviyyəsi ilə bağlıdır. Xəstəxanaların, tibbi avadanlıqların və ixtisaslı tibb işçilərinin çatışmazlığı zəif inkişaf etmiş ölkələrdə sağlıq problemini kəskinləşdirir. Nəticədə əhalinin sosial rifahı aşağı düşür və ölüm sayı artır. Yoluxucu xəstəliklər qısa müddətdə geniş ərazilərə yayılır və qlobal miqyasda milyonlarla insanın sağlamlığına zərər vurur.

**QLOBAL SOSİAL PROBLEMLƏR**

| Əhali | Təhsil | Səhiyyə |
|---|---|---|
| Əhali artımı<br>Miqrasiya<br>Məskunlaşma<br>Gender bərabərsizliyi | Zəif təhsil infrastrukturu<br>Kadr çatışmazlığı<br>Resurs azlığı | Zəif tibbi infrastruktur<br>Tibbi avadanlıq azlığı<br>İxtisaslı həkim çatışmazlığı |

**FƏALİYYƏT**

1. B qrafikinə əsasən suallara cavab verin.
   a) 2000–2025-ci illər arasında Afrika qitəsində miqrasiya necə dəyişib?
   b) Afrikada miqrasiyanın artmasının səbəbləri nələrdir?
   c) A şəklində təsvir edilən emiqrantlar hansı risklərlə qarşılaşa bilərlər?
2. Afrikanın savadlılıq xəritəsini təhlil edin. Savadlılıq səviyyəsi ilə ölkənin iqtisadi inkişafı arasında hansı əlaqə var?
3. D xəritəsinə əsasən tapşırıqları yerinə yetirin.
   a) Orta ömür müddəti çox olan ölkələri müəyyən edin.
   b) Ölkələrdə orta ömür müddətinin dəyişməsinin hansı amillərlə bağlı olduğunu izah edin.
4. Gələcəkdə qlobal miqyasda daha hansı sosial problemlər ortaya çıxa bilər?
5. Yaşadığınız ərazidə miqrasiya, gender bərabərsizliyi, təhsil və səhiyyə ilə bağlı hansı problemlər mövcuddur?

layihə

# 5.15 QLOBAL TEXNOLOJİ PROBLEMLƏR

## İZAHETMƏ

Qlobal texnoloji problemlər texnologiyanın sürətli inkişafı nəticəsində yaranan və bəşəriyyət üçün müəyyən riskləri olan çətinliklərdir. Rəqəmsal bərabərsizlik, avtomatlaşdırma, kibertəhlükəsizlik və texnoloji çirklənmə bu problemlərə aiddir.

Dünyada əhalinin texnoloji vasitələri və interneti əldəetmə imkanlarının eyni səviyyədə olmaması *rəqəmsal bərabərsizlik* problemidir. İEÖ-də əhalinin əksər hissəsi kompüter, planşet, "ağıllı" telefon və s. müasir texniki vasitələrlə təmin olunub. Lakin bəzi İEOÖ-də bu imkanlar məhduddur. Buna səbəb həmin ölkələrdə insanların maddi imkanlarının aşağı olması və texnoloji infrastrukturun kifayət qədər inkişaf etməməsidir. Əhalinin rəqəmsal savadlılıq səviyyəsinin aşağı olması da bu problemin tərkib hissəsidir. Xüsusilə yaşlı nəsil yeni texnologiyalardan istifadə etməkdə çətinlik çəkir.




**A.** İnternetin orta sürəti (2025-ci il)

İnternetin əlçatanlığı ölkələrin inkişaf səviyyəsinə görə dəyişir. İqtisadi baxımdan zəif ölkələrdə internetə əlçatanlıq böyük problemdir. Hətta İEÖ-nin ucqar ərazilərində də problem mövcuddur. İnternetə əlçatanlığın olmaması onlayn təhsilin, elektron xidmətlərin, informasiya mübadiləsinin və s. sahələrdə inkişafın ləngiməsinə səbəb olur.

Qlobal texnoloji problemlərdən biri avtomatlaşdırmadır. *Avtomatlaşdırma* az insanın iştirakı ilə, yaxud insan iştirakı olmadan avtomatik qurğuların və proqramların vasitəsilə əməliyyatların yerinə yetirilməsidir. Yeni texnologiyalar istehsal, xidmət, idarəetmə və s. sahələrdə iş proseslərini sürətləndirir. Robotlar, həmçinin süni intellekt fasiləsiz işlədiyi və daha az xərc tələb etdiyi üçün bir çox sahədə *insan əməyinin əvəzlənməsi* baş verir. Bəzi peşələrə tələbat azaldığına görə işsizlik yaranır. Müasir texnologiyalar üzrə hazırlıq proqramlarının həyata keçirilməsi, insanların yeni peşələrə yiyələnməsi bu problemin həlli ola bilər.

Texnologiyanın inkişafı *etik qaydaların pozulmasına* səbəb ola bilir. Süni intellekt bəzən insan həyatına və təhlükəsizliyinə mənfi təsir göstərir. Sosial mediada şəxsi məlumatlardan düzgün istifadə edilməməsi insan hüquqlarının pozulmasına şərait yaradır. Bu problemin həlli etik qaydalar və qanunlarla tənzimlənir.




**B.** Kibertəhlükəsizlik qalası

Müasir dövrdə texnologiya ilə bağlı yaranan ən böyük qlobal texnoloji problem kibertəhlükəsizlikdir.

*Kibertəhlükəsizlik* informasiya sistemlərinin rəqəmsal təhdidlərdən qorunmasını təmin edən tədbirlər toplusudur. İnternet şəbəkəsindən istifadənin artması kiberhücumların çoxalmasına səbəb olur. Kiberhücumlar isə həm fərdlərə və müəssisələrə, həm də dövlətlərə ciddi təhlükə yaradır.

Layihə

Məlumatları qoruyan sistemlər kifayət qədər güclü olmadıqda və istifadəçilər təhlükəsizlik qaydalarına riayət etmədikdə kiberhücumların sayı artır. Şəxsi və məxfi məlumatların oğurlanması isə insanlara maddi və mənəvi zərər vurur. Bank sistemlərinə edilən hücumlar nəticəsində maliyyə itkiləri yaranır. Dövlət qurumlarına və mühüm infrastruktur obyektlərinə kiberhücumlar isə ölkənin milli təhlükəsizliyinə zəmin yaradır. Kiberhücumlar cəmiyyətdə texnologiyaya olan etimadı azaldır. Problemin həlli baxımından dövlətlərin öz güclü təhlükəsizlik sistemlərini qurması və ixtisaslı kadrlar hazırlaması vacibdir. Bu sahədə qlobal əməkdaşlığın həyata keçirilməsi  problemin həlli üçün mühüm şərtdir.




**C.** Elektron tullantıların təkrar emalı

Qlobal texnoloji problemlərdən biri də *elektron tullantılardır (e-waste)*. Elektron tullantılara istifadəyə yararsız olan mobil telefonlar, televizorlar, məişət texnikası, batareyalar və s. cihazlar aiddir. Bu problemin yaranması texnoloji cihazların tez-tez yenilənməsi, xidmət müddətinin qısa olması və təmirinin baha başa gəlməsi ilə bağlıdır. Elektron tullantıların tərkibində zərərli maddələr (qurğuşun, civə və s.) olduğu üçün onlar düzgün emal edilmədikdə torpaq, su və hava çirklənməsinə səbəb olur. Bu isə insan sağlamlığına, bitki və heyvanlar aləminə ciddi ziyan vurur.
Ölkələrdə elektron tullantıların toplanması və emalı üçün lazımi infrastrukturun olmaması bu problemi daha da dərinləşdirir. Köhnə elektron cihazların toplanılması üçün xüsusi mərkəzlərin yaradılması, təkrar emalı probleminin həllində mühüm rol oynayır. Elektron tullantıların təhlükəsi haqqında əhalinin maariflәndirilməsi də vacib amillərdəndir.

**QLOBAL TEXNOLOJİ PROBLEMLƏR**

| Rəqəmsal bərabərsizlik | Avtomatlaşdırma | Kibertəhlükəsizlik | Texnologiyanın ətraf mühitə təsiri |
|---|---|---|---|
| Texnoloji vasitələrə əlçatanlıq<br>İnternetə əlçatanlıq | İnsan əməyinin əvəzlənməsi<br>Etik qaydaların pozulması | Kiberhücumlar | Elektron tullantılar<br>*(e-waste)* |

**FƏALİYYƏT**

1. A xəritəsinə əsasən sürətli interneti olan ölkələri müəyyən edin. İnternet şəbəkəsi həmin ölkələrin inkişafında hansı əhəmiyyətə malikdir?
2. B şəklindəki təsvirə əsasən suallara cavab verin.
   a) Şəkildəki təsvirdə qala nümunəsi ilə kibertəhlükəsizlik arasında necə əlaqə qurulub?
   b) Məlumatları kiberhücumlardan qorumaq üçün hansı yollardan istifadə etmək olar?
   c) Kibertəhlükəsizlik gələcəkdə hansı istiqamətdə dəyişikliklərə uğraya bilər?
3. C şəklindəki təsvirlərə əsasən tapşırıqları yerinə yetirin.
   a) Elektron tullantıların təkrar emalı prosesində həyata keçirilən mərhələləri izah edin.
   b) Təkrar emal nəticəsində hansı məhsulların alındığını sadalayın.
   c) "Təmiz şəhər" ASC-nin ölkəmizdə həyata keçirdiyi fəaliyyətləri izah edin.
4. Evinizdə hansı cihazlar elektron tullantılara çevrilə bilər? Fikrinizi əsaslandırın.

Layihə

# 5.16 QLOBAL PROBLEMLƏR VƏ AZƏRBAYCAN

## İZAHETMƏ

Qlobal problemlər dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycanda da müxtəlif formalarda təzahür edir. Müstəqillik əldə edildikdən sonra ölkədə iqtisadi inkişafla yanaşı, iqtisadi problemlər də meydana gəlmişdir.

**AZƏRBAYCANDA İQTİSADİ PROBLEMLƏR**
- Yanacaq resurslarından asılılıq
- Regionların inkişaf fərqi
- Miqrasiya problemləri

Azərbaycanda iqtisadiyyatın formalaşmasında neft və qaz sənayesinin mühüm rolu var. Xəzər dənizində və quruda olan zəngin neft-qaz yataqları ölkəyə böyük həcmdə xarici investisiya axınını təmin edir. İnvestisiya gəlirləri hesabına hər il ölkənin infrastrukturu yenilənir və müxtəlif sosial layihələr maliyyələşdirilir. İqtisadiyyatın əvvəllər, əsasən, neft-qaz sektoru üzərində cəmlənməsi bir müddət digər sahələrin inkişafını ləngitsə də, statistik göstəricilərə görə son illərdə aparılan iqtisadi siyasət nəticəsində bu sektorun ÜDM-də (ümumi daxili məhsul) payı azalıb. Amma bu sahə hələ də iqtisadiyyat üçün mühüm əhəmiyyət daşıyır. Məsələn, 2024-cü ildə neft-qaz sektorunun ÜDM-də payı təxminən 30,6%, 2025-ci ildə isə 28,5% təşkil etmişdir. Bu azalma ölkədə qeyri-neft-qaz sektorunun (kənd təsərrüfatı, turizm, sənaye və s.) inkişafı ilə bağlıdır. Buna baxmayaraq neft-qaz sektorunun dövlət büdcəsi gəlirlərində (48%) və ixracatdakı (90%-dən çox) payı hələ də yüksək olaraq qalır. Bu, ölkəni dünya enerji bazarındakı qiymət dəyişkənliyindən asılı vəziyyətə salır. Neftin qiymətində baş verən dəyişikliklər ölkə iqtisadiyyatına müəyyən təsirlər göstərir. Qiymət aşağı düşdükdə valyuta gəlirləri azalır. Nəticədə dövlət büdcəsində kəsirlər yaranır ki, bu da milli valyutaya təsir göstərir.

| (milyon manat) | **2024** | **2025** |
|---|---|---|
| ÜDM-in cəmi | 126 524,2 | 129 094,0 |
| Neft-qaz | 38 385,1 | 34 888,6 |
| Qeyri-neft-qaz | 75 734,7 | 81 807,3 |

**A.** Neft-qaz və qeyri-neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı (2025-ci il)

Qeyri-neft-qaz sektorunun zəif inkişafı ölkədə idxaldan asılılıq əmələ gətirir. Ona görə də bəzi istehlak malları, ərzaq məhsulları və sənaye avadanlıqları idxal edilir. Statistik məlumatlara görə, 2025-ci ilin ilk 8 ayında qeyri-neft-qaz ixracı 6,5% artaraq 2,99 milyard ABŞ dollarına çatmışdır. Bu artım müsbət dinamika göstərsə də, ümumi ixrac həcmi ilə müqayisədə hələ də aşağı səviyyədədir. Problemin aradan qaldırılması üçün dövlət tərəfindən müxtəlif proqramlar həyata keçirilir.

Son illərdə qeyri-neft-qaz sektorunu əhatə edən sosial-iqtisadi inkişaf strategiyası hazırlanmışdır. Bu strategiyaya uyğun olaraq aqrar sahəyə dəstək, hazır məhsul ixracının artırılması, sənaye parklarının və aqroparkların yaradılması kimi tədbirlər həyata keçirilir.

Azərbaycanda iqtisadi problemlərdən biri də *regionların inkişaf fərqləridir*. İri şirkətlərin, xidmət sektorunun, sənaye, ali təhsil və tibb müəssisələrinin əksəriyyətinin paytaxtda cəmlənməsi bu fərqin yaranmasına səbəb olub. Bakı iqtisadi rayonu infrastruktur təminatı, məşğulluq imkanları, gəlir səviyyəsi, təhsil və səhiyyə xidmətlərinin keyfiyyəti baxımından digər rayonlardan kəskin fərqlənir. Bu isə əmək bazarının daha fəal və gəlirlərin

Layihə

daha yüksək olduğu mərkəzi, eyni zamanda aşağı gəlirli periferiyanı formalaşdırıb.

Regionlararası inkişaf fərqi sosial-iqtisadi sahələrdə mənfi nəticələrə gətirib çıxarır. Əhalinin iş imkanlarının məhdud olmasını, işsizlərin Bakıya və ya xarici ölkələrə köç etməsini misal göstərmək olar. Nəticədə rayonlarda demoqrafik göstəricilərin və lokal iqtisadi fəallığın azalması, kiçik kəndlərin boşalması müşahidə edilir. Regionlarda olan bu problemlərin həlli üçün dövlət tərəfindən sosial-iqtisadi inkişaf proqramları həyata keçirilir. Yol, su, qaz, elektrik, rabitə kimi infrastruktur layihələri genişləndirilir, aqroparklar və sənaye parkları yaradılır, sahibkarlara güzəştli kreditlər verilir. Əsas məqsəd regionlarda iqtisadi fəallığı artırmaq, yeni iş yerləri yaratmaq və əhalinin yaşayış səviyyəsini yüksəltməkdir.




**B.** Azərbaycandan daimi yaşamaq üçün xaricə gedənlərin qrafiki

Regionlararası inkişaf fərqi *miqrasiya prosesinə* də təsir edən amillərdəndir. Yüksəkixtisaslı və bacarıqlı kadrların ölkəni tərk etməsi narahatlıq yaradır. "Beyin köçü"nün miqrasiyası gələcəkdə ölkə üçün mənfi nəticələrə səbəb ola bilər. Xarici ölkələrdə karyera perspektivlərinin, iş imkanlarının, yüksək maaş, elmi və texnoloji mühitin və sosial təminat səviyyəsinin yüksək olması "beyin köçü"nü yaradan amillərdir.

### COĞRAFİ FAKT

*2024–2025-ci illər üzrə dünya ölkələrinin "Beyin Köçü İndeksi"ndə (0 – ən aşağı, 10 – ən yüksək) Azərbaycanın göstəricisi təqribən 4,5 baldır. Bu göstərici Azərbaycanı orta səviyyəli risk qrupuna daxil edir. Digər Cənubi Qafqaz ölkələrində göstərici daha yüksəkdir (Ermənistanda 6,9, Gürcüstanda 6,8). Sosial Tədqiqatlar Mərkəzinin 2024-cü ildə apardığı sorğulara əsasən ölkəmizin elm müəssisələrində çalışan alimlərin 39,7%-i xaricə köç edir. Hazırda Azərbaycan dövləti bu prosesi "beyin köçü"ndən "beyin dövriyyəsi"nə (gedənlərin geri qayıtması və ya xaricdə olarkən ölkəyə töhfə verməsi) çevirmək üçün xüsusi proqramlar həyata keçirir.*

Regionlarda yaşayış imkanlarının məhdudluğu miqrasiyanı gücləndirir. Miqrasiya ölkədə insan kapitalının azalmasına da səbəb olur. Bu problemlərin həlli üçün regional inkişaf strategiyasının hazırlanması, təhsildə keyfiyyətin və məşğulluq imkanlarının artırılması vacibdir.

### FƏALİYYƏT

1. A cədvəlinə və mətnə əsasən suallara cavab verin.
   a) ÜDM-in sektorlar üzrə paylanmasında hansı fərqlər var?
   b) Qeyri-neft-qaz sektorunda baş verən dəyişikliyin ölkə üçün əhəmiyyəti nədir?
   c) Sizcə, gələcəkdə bu proses hansı dinamika ilə davam edəcək? Nə üçün?
2. Azərbaycanda regional iqtisadi bərabərsizliyin hansı mənfi nəticələri var? Nümunələrlə izah edin.
3. B qrafikinə əsasən suallara cavab verin.
   a) Xarici ölkələrə gedənlərin sayı hansı illərdə minimum həddə çatmışdır? Bunun səbəbi nədir?
   b) Xarici ölkələrə köç prosesinin ölkə üçün hansı mənfi təsirləri ola bilər?
   c) Sizcə, "beyin köçü" probleminin həlli üçün hansı tədbirləri həyata keçirmək lazımdır?

Layihə

# DƏRİNLƏŞDİRMƏ RƏQƏMSAL İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

2013–2014-cü illərdə qlobal miqyasda baş verən qeyri-adi hadisə bir anda bütün ölkələrin kütləvi informasiya vasitələrində mühüm xəbərə çevrildi. Virtual məkanda həyata keçirilən bu hadisə rəqəmsal informasiya tarixində ən genişmiqyaslı məlumat sızmalarından biri idi. Belə ki, 2013-cü ildə "Yahoo" şirkətinə qarşı baş vermiş kiberhücum nəticəsində təqribən 3 milyard "Yahoo" istifadəçisinin hesabına aid məlumatlar hakerlər tərəfindən ələ keçirilmişdi. İlkin mərhələdə "Yahoo" şirkəti yalnız 1 milyard hesabın zərər gördüyünü açıqlasa da, sonradan aparılan araşdırmaların nəticəsində məlumat sızmasının daha böyük miqyasda olduğu ortaya çıxdı. Bu rəqəm şirkətin mövcud olan bütün istifadəçi bazasını əhatə edirdi. 2014-cü ildə isə təkrar kiberhücum qeydə alındı və bu dəfə təqribən 500 milyon istifadəçi hesabı oğurlandı. Dünyanın müxtəlif ölkələrindən olan "Yahoo" istifadəçilərinin elektron poçt ünvanları, telefon nömrələri, doğum tarixləri, parolları, məxfi və xüsusi məlumatları kiberdələduzlar tərəfindən mənimsənilmişdi. "Yahoo" şirkətinin zəif qorunması və istifadəçi parollarının köhnəlməsi hakerlərin məlumatları daha rahat əldə etməsinə şərait yaratmışdı.

Əvvəlki hadisəyə vaxtında reaksiya verilməməsi və risklərin nəzərə alınmaması, texniki və idarəetmə səviyyəsində yanlışlıqların olması yenidən kiberdələduzların hücumuna şərait yaratmışdır. "Yahoo" bu hücumun xarici dövlət tərəfindən dəstəklənən kiber qruplar tərəfindən həyata keçirildiyini bildirdi. Bu hadisə kibermüharibə kimi qəbul edildi və kiberkəşfiyyat sahəsinin inkişafına zəmin yaratdı.




**A.** Qlobal kiberhücumların sayı (2025-ci il)

Kiberhücumdan sonra "Yahoo"nun bazar dəyəri təxminən 350 milyon ABŞ dolları azaldı və şirkət 2017-ci ildə təqribən 7–8% aşağı qiymətə satıldı. Bu kiberhücum dünyada kibertəhlükəsizlik probleminin mövcudluğuna ən bariz nümunədir.

## FƏALİYYƏT

1. "Yahoo" şirkətində baş vermiş hadisədən hansı nəticə çıxarılmalıdır?

2. Cədvəldə 2025-ci ilə aid sahələr üzrə həftə ərzində həyata keçirilən kiberhücumların orta göstəricisinin təqribi sayı verilmişdir. Statistikaya əsasən suallara cavab verin.

| Sıra | Sektor | Həftəlik orta kiberhücum sayı |
|---|---|---|
| 1 | Təhsil və tədqiqat | 4656 |
| 2 | Dövlət qurumları | 2716 |
| 3 | Maliyyə və sığorta | 2583 |
| 4 | Qeyri-hökumət təşkilatları | 2550 |

a) Sektorlara edilən kiberhücumların səbəbləri nə ola bilər?

b) Bu kiberhücumların müxtəlif sahələrə hansı mənfi təsirləri var?

c) Kiberhücumların qarşısı necə alına bilər?

3. A xəritəsinə əsasən dünyada hansı regionlar kiberhücumlara daha çox məruz qalıb? Nə üçün?

4. Elektron cihazlarınıza kiberhücumlar olarsa, bunun qarşısını almaq üçün hansı bilik və bacarıqlara malik olmalısınız?

# DƏYƏRLƏNDİRMƏ

**1** Mətnə əsasən tapşırıqları yerinə yetirin və suallara cavab verin.

Dünyanın müasir iqtisadi mənzərəsinin formalaşmasında 1973-cü ildə Cənub-Qərbi Asiyada baş verən hadisə mühüm dönüş nöqtəsi oldu. Siyasi gərginlik səbəbindən OPEK-ə üzv olan bəzi ərəb ölkələri Qərb dövlətlərinə qarşı neft embarqosu tətbiq etməyə başladı. Qısa vaxtda dünya bazarına çıxarılan neftin həcmi kəskin şəkildə azaldı. Bu azalma qlobal enerji təminatında problemlərə və inflyasiyaya səbəb oldu. Baş vermiş böhranın ilk mərhələsində neftin qiyməti bir neçə ay ərzində təqribən dörd dəfə artdı. Qiymətlərin yüksəlməsi sənaye müəssisələrinin istehsal xərclərini də artırdı. Bəzi ölkələrdə yanacaq satışı və elektrik enerjisinin verilməsində fasilələr yaşandı. Zavod və fabriklər əvvəlki istehsal gücünü itirdi və məhsul istehsalı azaldığı üçün işsizlik səviyyəsi artdı. Yaranan enerji çatışmazlığı beynəlxalq bazarlarda məhsul qıtlığına səbəb oldu. Əhalinin alıcılıq qabiliyyəti aşağı düşdüyü üçün ölkədə sosial narazılıqlar yarandı. Bu hadisə enerji qıtlığının sənaye, nəqliyyat, kənd təsərrüfatı, sosial xidmətlər və digər sahələrə necə təsir etdiyinin ən bariz nümunəsidir.

a) Mətndə bəhs olunan problem hansı fəaliyyət sahəsində və məkan miqyasında baş vermişdir?
b) Başqa hansı sahələrdə problemlər mövcuddur?
c) Enerji təhlükəsizliyi nədir və mətndə sadalanan regionlar bu hadisədən necə təsirlənmişdir?
d) Altından xətt çəkilmiş sözlərin mənasını izah edin.
e) Mətndə verilən proseslərə uyğun olaraq sxemdəki boşluqlara aşağıdakı sözləri yazın:
*məhsul istehsalı, enerjinin idxalı, əhalinin rifahı, enerji təminatı, enerji resursları, məhsul istehlakı*



**2** Aşağıda neft potensialı ilə zəngin olan ölkələrin xəritələri verilmişdir. Tapşırıqları yerinə yetirin.



a) Dünyanın siyasi xəritəsindən istifadə edərək ölkələri və onların yerləşdikləri qitəni müəyyən edin.
b) Həmin ölkələrin qlobal enerji təminatında rolunu şərh edin.
c) İnternet resurslarından istifadə edərək verilən ölkələrin neft potensialını azalan sıra ilə düzün.

## COĞRAFİ PERSPEKTİV

*Dünyada milyonlarla insan irsi xəstəliklərdən əziyyət çəkir. Ənənəvi müalicə üsulları yalnız xəstəliklərin simptomlarını yüngülləşdirir, problemi isə tam aradan qaldırmır. Bu səbəbdən genetik xəstəliklər uzun illərdir səhiyyənin ən çətin həll olunan problemlərindən biri sayılır. Müasir gen texnologiya üsulları (CRISPR, "prime editing") bu problemi kökündən dəyişdirə bilər. Gələcəkdə həkimlər xəstənin genetik kodunu bir kitab kimi oxuyaraq düzgün olmayan hissələri müalicə edə biləcək. Bu, xəstəliklərin yalnız müalicəsinə deyil, eyni zamanda onların tamamilə qarşısının alınmasına kömək edəcək. Beləliklə, irsi xəstəliklər problemi öz həllini tapacaq və insanların sağlamlığı bərpa olunacaq.*

Layihə

**1.** Qrafikə əsasən suallara cavab verin.




a) İqtisadi sektorlarda hansı peşə sahibləri işləyir?
b) Sektorların dinamikası dövrlər üzrə necə dəyişib?
c) Pre-sənaye və post-sənaye dövrlərində 1-ci sektorun kəskin fərqlənməsinin səbəbi nədir?
d) Hansı sektorda dövrlər üzrə dəyişmə fərqi azdır? Nə üçün?
e) 4-cü sektorun qısa dövr əhatə etməsinin səbəbi nədir?
f) İlk toxuculuq fabrikinin açılması qrafikdə hansı nöqtədə verilə bilər?

**2.** 3 fərqli ölkənin (A, B, C) iqtisadi sektorlar üzrə dairəvi diaqramı verilmişdir. Bu diaqramların aid ola biləcəyi ölkə qruplarını (zəif, orta və güclü) müəyyən edin.




**3.** Aşağıdakı sözləri cədvələ uyğun qruplaşdırın.

*dəmir, gips, meşə, temperatur, neft, mis, təbii qaz, heyvan, qurğuşun, alüminium, bitki, daş kömür, nikel, qum, gil, yağıntı, mikroorqanizm, günəşli günlər, molibden, volfram, torf, fosforit, rütubət, qızıl, əhəngdaşı, asbest, qrafit*

| Təbii resurslar | | | | |
|---|---|---|---|---|
| yanacaq | filiz | qeyri-filiz | bioloji | iqlim |
| | | | | |

Lavihə




# 6 DAYANIQLI İNKİŞAF

**Gələcəyin qorunması deyəndə nə başa düşülür?**

Okeanlarda toplanan milyon tonlarla plastik tullantı bəşəriyyətin gələcəyi üçün ciddi təhlükə yaradır. 16 yaşlı hollandiyalı Boyan Slat az vəsait və resurs sərf edərək bu problemi həll etməyin yeni üsulunu tapmışdır. O, okean axınlarının gücündən istifadə edən "Okeanın təmizlənməsi" ("The Ocean Cleanup") adlı innovativ sistem yaratmağa nail olmuşdur. Bu texnologiya plastik tullantıların toplanılmasını, dəniz ekosistemlərinin bərpasını və təbii resursların qorunmasını təmin edir. Layihənin davamı kimi Boyan Slat çaylarda plastik tullantıların okeana çatmadan toplanılmasını həyata keçirən sistem də yaratmışdır. Beləliklə, bəşəriyyəti narahat edən bu qlobal problem okeanların geniş ərazilərinə yayılmazdan və ekosistemlərə zərər verməzdən əvvəl vaxtında həll olunur.

1. Şəkildə gördüklərinizi şərh edin.
2. Boyan Slatın layihəsi hansı ekoloji problemi aradan qaldırmağa yönəlib?
3. Ətraf mühitin tullantılardan təmizlənməsinin daha hansı yolları sizə məlumdur?
4. Yaşıdınızın təbiətin qorunmasına dair mühüm kəşfi haqqında hansı fikirləri söyləyə bilərsiniz?
   Sizcə, Boyan Slat buna necə nail oldu?

# 6.1 GƏLƏCƏYƏ MİRAS

## DƏRSƏ BAŞLARKƏN

Bütün tarixi mərhələlərdə iqtisadi inkişaf maksimum gəlir əldə etmək məqsədinə istiqamətləndirilmişdir. Müasir dövrdə isə tərəqqi daha çox məsuliyyətli inkişafla ölçülür. Bu da dayanıqlı inkişafı zəruri edir. Dayanıqlı inkişaf iqtisadi artımın təbiətə və insan həyatına zərər vurmadan həyata keçirilməsini nəzərdə tutur. Onun əsas prinsipləri resurslardan ağıllı istifadə, enerji səmərəliliyini və gələcək nəsillərin ehtiyaclarını qorumaqdır. Bu anlayışın real həyata tətbiqi üçün ən uğurlu nümunələrdən biri Kopenhagen şəhəridir. Burada iqtisadi sabitlik texnoloji yeniliklər və ekoloji problemlərin həllinə yönələn tədbirlərlə birləşərək insanların rifahını təmin edir. Kopenhagen təcrübəsi sübut edir ki, iqtisadiyyat, texnologiya və təbiət bir məqsəd uğrunda birləşəndə yaşamaq daha rahat olur, gələcəyə inam artır.




**A.** Kopenhagen şəhərində velosiped yolu



**B.** Middelqrunden külək parkı

Kopenhagendə "ağıllı şəhər" anlayışı yüksək texnologiyalarla yanaşı, enerji qənaəti və ekoloji məsuliyyət prinsiplərinə əsaslanır. Şəhər 2030-cu ilədək "neytral karbon paytaxtı" olmağı qarşısına məqsəd qoyub və bu məqsədin həyata keçirilməsi hazırda sürətlə davam edir. Burada bərpa olunan enerji, elektrik nəqliyyatı, velosiped yolları və səmərəli enerji tikililəri vahid sistem kimi fəaliyyət göstərir. Bu gün şəhərdə əhalinin yarıdan çoxu velosipeddən istifadə edir. Bu isə həm havanın keyfiyyətinə, həm də insanların sağlamlığına müsbət təsir göstərir.

Middelqrunden külək parkı Kopenhagenin dayanıqlı enerji siyasətinin əsas göstəricilərindən biridir. Şəhər limanı yaxınlığında yerləşən bu parkda külək enerjisi hesabına elektrik istehsal edilir. Burada əldə olunan enerji minlərlə evi elektriklə təmin edir. Külək turbinləri şəhərin simasına uyğun dəniz üzərində qurulduğu üçün onlar ərazidə əlavə yer tutmur və yaranan səs çirklənməsinin təsiri minimuma enir.

Külək enerjisindən istifadə havaya zərərli qazların buraxılmasını da azaldır. Bu isə şəhərin ekoloji tarazlığının qorunmasına imkan verir.

Layihə

Dəniz sahilində yerləşən Amager Bakke elektrik stansiyasında tullantılardan həm istilik, həm də elektrik istehsal edilir. Tikilinin damında yaradılan xizəksürmə meydançasında texnologiya ilə əyləncə birləşdirilib. Bu meydança şəhərdə iqtisadiyyat və ətraf mühit amilləri nəzərə alınaraq qurulmuşdur. Yeni binalar enerjiyə qənaət edən texnologiyalarla təchiz olunmuşdur. Park və göllər şəhərin "yaşıl ağ ciyərləri" rolunu oynayır.

Kopenhagenlilər ətraf mühitin qorunmasını olduqca vacib hesab edirlər. Hər bir vətəndaş enerji sərfiyyatı, tullantıların azaldılması və ictimai nəqliyyatdan istifadə kimi məsələlərdə şəxsi məsuliyyət daşıyır.

Kopenhagendə dayanıqlılıq yalnız enerji sahəsi ilə məhdudlaşmır. Şəhərdə intensiv yağışların yaratdığı risklər əvvəlcədən nəzərə alınıb. Bu məqsədlə "yağış parkları"ndan istifadə olunur. Güclü yağış zamanı su müvəqqəti olaraq bu parklarda yığılır. Şəhərin bir çox küçə və yollarında yağış sularının bu parklara doğru axması təmin edilir. Yağışdan sonra toplanan sular başqa mənbələrə istiqamətləndirilir və parklar öz gündəlik fəaliyyətlərinə qayıdır. Bu tədbirlər nəticəsində şəhərdə daşqın riskləri azalır, insanlar isə qorunur.



**C.** Amager Bakke elektrik stansiyası



**D.** Enghave "yağış parkı"

**FƏALİYYƏT**

1. A şəklinə əsasən suallara cavab verin.
   a) Şəhər sakinlərinin hər gün işə velosipedlə getməsinin hansı üstünlükləri var?
   b) Sizcə, şəkildə təsvir edilən avtobus hansı enerji ilə işləyir?
   c) Yaşadığınız məntəqədə sakinlər üçün velosiped yolları varmı? Sizcə, bu yolların olması üçün hansı tədbirləri həyata keçirmək lazımdır?
2. B şəklinə əsasən tapşırığı yerinə yetirin və suallara cavab verin.
   a) Şəkildə gördüklərinizi təhlil edin.
   b) Külək turbinləri yaşayış məntəqələrinə yaxın qurulsaydı, bu, insaların yaşayışına necə təsir edərdi?
   c) Ölkəmizdə külək enerjisindən harada istifadə olunur? Nə üçün?
3. C şəklinə əsasən suallara cavab verin.
   a) Amager Bakke elektrik stansiyasının hansı üstünlükləri var?
   b) Bu stansiyanın yerində ənənəvi elektrik stansiyası olsaydı, hansı ekoloji problemlər yaranardı?
   c) Gələcəkdə dayanıqlı inkişaf üçün daha hansı layihələr irəli sürülə bilər? Bakı şəhərini Kopenhagen kimi "ağıllı şəhər"ə çevirmək olarmı? Bunun üçün nə etmək lazımdır?

Layihə

# 6.2 DAYANIQLI İNKİŞAF NƏDİR?

## İZAHETMƏ

XX əsrin ikinci yarısında dünya iqtisadiyyatında sürətli artım başladı və iqtisadi inkişaf nəticəsində insanların rifahı yüksəldi. Lakin bu artım təbii resursların tükənməsi, iqlim dəyişikliyi və s. problemlərlə müşayiət olundu. Bu problemlər isə dayanıqlı inkişaf anlayışının yaranmasına səbəb oldu. Dayanıqlı inkişaf insanların ehtiyaclarını təmin edərkən gələcək nəsillərin də ehtiyaclarını ödəmək imkanlarını nəzərdə tutan yanaşmadır. Bu anlayış ilk dəfə 1987-ci ildə BMT-nin "Brundtland Komissiyası" tərəfindən hazırlanmış "Ortaq gələcəyimiz" *(Our Common Future)* adlı hesabatda geniş şəkildə izah olunub. Hesabata görə, iqtisadi inkişafla ekoloji təhlükəsizliyin paralel aparılmasının zərurəti qəbul edilib. Bu işin həyata keçirilməsində dayanıqlı inkişaf aktorlarının mühüm rolu var. Bu aktorlar aşağıdakılardır:




**A.** Dayanıqlı inkişafın əsas sammitləri və "COP" tədbirləri

**1) Beynəlxalq təşkilatlar** — BMT, Aİ, ÜTMF və s. qurumlar, "COP" konfransları. Onlar qlobal siyasət və sazişlər vasitəsilə əsas fəaliyyət istiqamətlərini müəyyən edir.

**2) Dövlətlər.** Onlar ekoloji sahəyə dair qanunlar qəbul edir, bərpa olunan enerji mənbələrinə sərmayə qoyur, yaşıl iqtisadiyyatı dəstəkləyir.

**3) Şirkətlər.** Onlar istehsal zamanı ətraf mühitə az ziyan verən texnologiyalar tətbiq edir, sosial məsuliyyət layihələri həyata keçirir.

**4) Vətəndaşlar.** Onlar qənaət edir, tullantıların azaldılmasını tənzimləyir və ekoloji maarifləndirmə aparır.



**B.** BMT-nin iqlimlə bağlı sessiyası (2023-cü il)

Sadalanan aktorlar arasında ən böyük məsuliyyət vətəndaşların üzərinə düşür. Vətəndaş cəmiyyətində gənclər bu prosesdə xüsusilə fəaldırlar. Məsələn, "Planet naminə bitki" *(Plant for the Planet)* adlı beynəlxalq hərəkatlar minlərlə gənci ağacəkmə və təbiətin qorunması kampaniyalarına cəlb edir. Gənclərin bu təşəbbüslərdə iştirakı onların ekoloji məsuliyyətini formalaşdırır. Belə fəaliyyətlər isə cəmiyyətdə dayanıqlı həyat tərzinin yayılmasını sürətləndirir. Onlar öz əməlləri ilə sübut edirlər ki, gələcək nəsilləri qorumaq bu gündən başlayır.

Dayanıqlı inkişaf üç əsas istiqamət – iqtisadi, sosial və ekoloji sahələrin qarşılıqlı əlaqəsi üzərində qurulub. Bu istiqamətlər bir-birini tamamlayaraq iqtisadi sabitliyə,

təbii mühitin qorunmasına və insanların rifahının təminatına xidmət edir. 2015-ci ilin sentyabrında BMT-nin Nyu-York şəhərində keçirilmiş sammitində dünya liderləri tərəfindən dayanıqlı inkişaf məqsədləri qəbul edilmişdir. Bu məqsədlər ümumi yol xəritəsi rolunu oynayır. Onların həyata keçirilməsi dövlətlərin və fərdlərin birgə fəaliyyətini tələb edir. Dayanıqlı inkişafın üç istiqamət üzrə 17 qlobal məqsədi aşağıdakı sxemdə göstərilmişdir:




C. Dayanıqlı inkişafın istiqamətlər üzrə qlobal məqsədləri

**FƏALİYYƏT**

1. A şəklinə əsasən suallara cavab verin.
   a) Şəkildə göstərilən beynəlxalq tədbirlər dayanıqlı inkişafın hansı problemlərinin həllinə yönəlib?
   b) Belə tədbirlərin qlobal miqyasda əhəmiyyəti nədir?
2. B şəklinə əsasən tapşırıqları yerinə yetirin.
   a) Şəkildə təsvir edilən tədbirin ölkələr arasında ekoloji əməkdaşlıq üçün rolunu izah edin.
   b) Qlobal sessiyaların keçirilməsinin vacibliyinin səbəblərini sadalayın.
3. C sxeminə əsasən suallara cavab verin.
   a) Dayanıqlı inkişafın istiqamətləri bir-biri ilə necə əlaqəlidir?
   b) Şəkildə verilən istiqamət və məqsədlərin sxemini fərqli formada necə tərtib edərdiniz?
   c) Hansı problemin həllini 18-ci məqsəd kimi təklif edərdiniz?
   d) Təklif etdiyiniz məqsədin simvolu necə olardı?

# 6.3 İQTİSADİ DAYANIQLILIQ

## İZAHETMƏ

Ölkələrin iqtisadiyyatının inkişaf etməsi insanların daha yaxşı yaşaması ilə nəticələnir. Buna nail olmaq üçün əsas şərt iqtisadi dayanıqlılıqdır. Dayanıqlı inkişafın iqtisadi istiqaməti cəmiyyətin uzunmüddətli iqtisadi sabitliyini və rifahını təmin etməyə imkan verir. Bu istiqamət aşağıdakı məqsədləri əhatə edir:

**DAYANIQLI İNKİŞAFIN İQTİSADİ İSTİQAMƏTLƏRİ**

- Layiqli əmək və iqtisadi artım
- Məsuliyyətli istehsal və istehlak
- Sənaye, innovasiya və infrastruktur
- Bərabərsizliyin azaldılması
- Məqsədlər üçün tərəfdaşlıq



**A.** Hindistanda işçilərin əmək şəraiti



**B.** Almaniyada işçilərin əmək şəraiti



**C.** Elektron tullantıların emalı

İqtisadi artım ölkədə bütün sektorların yüksələn xətt üzrə inkişaf etməsidir. Dayanıqlı inkişafın təmin edilməsi müəyyən prinsiplərə əsaslanır. Resursların ağıllı idarə olunması, məhsuldarlığın artırılması, kiçik biznesin inkişafı və s. belə prinsiplərdəndir. Dayanıqlı inkişafın mühüm amillərindən biri də işçilərin əmək şəraitidir. İnsanlar üçün layiqli, yəni əlverişli əmək şəraitinin yaradılması onların rahat işləməsinə və qazanc əldə etməsinə imkan yaradır. İşçilərin əmək hüquqlarının qorunması və onların ixtisaslarının artırılması da layiqli əməyin əsas tələblərindəndir.

İnsanların təbii resurslardan daha ağıllı və qənaətlə istifadə etməsi, yəni "*Məsuliyyətli istehsal və istehlak*" dayanıqlı inkişafın əsas məqsədlərindən biridir. Sudan, enerjidən və xammaldan səmərəli istifadə istehsal prosesində ən vacib şərtdir. Hazır məhsullardan onların israfına yol vermədən qənaətlə istifadə etmək istehlak üçün mühüm əhəmiyyət kəsb edir. Təbii ki, həm istehsal, həm də istehlak prosesində tullantılar meydana gəlir. Son illər elektron tullantılarının (yararsız telefonlar, kompüterlər, batareyalar, məişət texnikası və s.) artması xüsusilə ciddi problemə çevrilib. Ona görə də tullantıların təkrar emalına zərurət yaranıb.

Dayanıqlı inkişafın iqtisadi istiqamətinin əsas məqsədlərindən biri də "*Sənaye, innovasiya və infrastruktur*"dur. Müasir sənaye müəssisələri və ekoloji cəhətdən təmiz



D. Tam robotlaşdırılmış texnologiya



E. Rio-de-Janeyro şəhəri

"*Məqsədlər üçün tərəfdaşlıq*" ölkələrin bilik, texnologiya, kapital axını və s. sahələrdə bir-biri ilə tərəfdaşlığını nəzərdə tutur. Bu əməkdaşlıq dayanıqlı inkişaf layihələrinin həyata keçirilməsini sürətləndirməklə yanaşı, qlobal problemlərin birlikdə həllinə də çox kömək edir.

texnologiyaların tətbiqi istehsalın daha səmərəli olmasına şərait yaradır. Dayanıqlı inkişafın təmin olunmasında yaşıl infrastrukturun gücləndirilməsi də əsas şərtdir. Güclü infrastruktur insanların təhlükəsiz yollara, keyfiyyətli su şəbəkələrinə, rəqəmsal xidmətlərə rahat çıxışını təmin edir.

"*Bərabərsizliyin azaldılması*" iqtisadi dayanıqlılığın beş məqsədindən biridir. Bu məqsəd insanların maddi gəlirləri və onlara göstərilən sosial xidmətlər arasında olan fərqi azaltmağı nəzərdə tutur. Buna görə əhalinin yoxsul təbəqəsinin gəlir səviyyəsinin yaxşılaşması tələb edilir. Xüsusi qayğıya ehtiyacı olanların və aztəminatlı ailələrin təminatı, sosial müdafiənin gücləndirilməsi və ayrı-seçkiliyin azaldılması və s. bu məqsədə daxildir. Şəhər və kənd əhalisinin yaşayış standartlarında fərqlərin azaldılması iqtisadi dayanıqlılığın təmin edilməsində xüsusi əhəmiyyətə malikdir.




F. Rio-de-Janeyro ştatında insanların gəlirlərinin bərabərsizliyi xəritəsi

**FƏALİYYƏT**

1. A və B şəkillərinə əsasən tapşırığı yerinə yetirin və suallara cavab verin.
   a) Ölkələrdə işçilərin əmək şəraitini müqayisə edin.
   b) Hansı müəssisə layiqli əmək şərtlərinə uyğundur? Fikrinizi əsaslandırın.
   c) Hansı müəssisədə iqtisadi artım daha güclüdür? Nə üçün?
2. C şəklinə əsasən suallara cavab verin və tapşırıqları yerinə yetirin.
   a) Texnoloji tullantıların həddindən artıq olması nə ilə bağlıdır?
   b) Şəkildə verilən məkanda olan texnoloji tullantılar hansı məqsədlər üçün istifadə edilə bilər?
3. D şəklindəki üsul istehsal prosesində hansı iqtisadi səmərəyə nail olmağa imkan verir?
4. E şəklinə və F xəritəsinə əsasən suallara cavab verin.
   a) E şəklindəki təsvirə əsasən Rio-de-Janeyroda insanlar yaşayış zonalarına görə bir-birindən necə fərqlənir?
   b) F xəritəsində verilən rayonlarda əhalinin gəlirlərinin fərqli olması hansı nəticələri doğurur?

Layihə

# 6.4 EKOLOJİ DAYANIQLILIQ

## İZAHETMƏ

Dayanıqlı inkişafın əsas istiqamətlərindən biri ekoloji dayanıqlılıqdır. Ekoloji dayanıqlılığın əsas prinsipi təbiətin özünü bərpaetmə gücünü qorumaq, indiki və gələcək nəsillərin ehtiyaclarını təmin etməkdir. Bu istiqamət quru və su ekosistemlərinin qorunmasını, təmiz su və sanitariya, iqlim dəyişikliklərinə qarşı mübarizə, sərfəli və təmiz enerji məqsədlərini əhatə edir.

Meşələrin qırılması, biomüxtəlifliyin azalması, torpaqların deqradasiyası və s. qurudakı ekosistemlərin pozulmasına səbəb olur. Quru ekosistemlərinin qorunması üçün biomüxtəlifliyin mühafizəsi, eroziyanın qarşısının alınması və torpaqlardan məsuliyyətli istifadə əsas şərtdir. Bu tədbirlər həm təbii tarazlığı qoruyur, həm də gələcək nəsillər üçün resursların tükənməsinin qarşısını alır.



**A.** Qeyri-qanuni balıq ovu



**B.** Uqandada içməli suyun əldə edilməsi



**C.** Rumıniyada sutəmizləmə zavodu

Dünya okeanı plastik tullantılarla, sənaye suları və kimyəvi maddələrlə dözülməz səviyyədə çirklənmişdir. Bu çirklənmə canlıların yaşayış mühitinə ziyan vuraraq qida zəncirinin pozulmasına səbəb olur. Su ekosistemlərinin qorunması üçün plastik tullantıların azaldılması, çirkab sularının təmizlənməsi və qanunsuz ovların qarşısının alınması çox vacibdir. "*Suda həyat*"ın əsas hədəflərindən biri də su nəqliyyatında müasir texnologiyaların tətbiq olunmasıdır.

Dayanıqlı inkişafın əsas məqsədlərindən biri "*Təmiz su və sanitariya*"dır. Bu məqsəd yalnız içməli su ilə təminatı deyil, həm də şirin su ehtiyatlarının qorunmasını nəzərdə tutur. Şirin su mənbələrinin təmiz qalması və onların təbii vəziyyətinin qorunub saxlanılması vacibdir. İnsanların istifadə etdikləri suyun təhlükəsizliyi onun tərkibində sağlamlığa zərər verə biləcək çirkləndiricilərin olmaması deməkdir. Suyun təhlükəsizliyi sanitariya xidmətləri ilə sıx bağlıdır. Sanitariya sistemləri suyun çirklənməsinin qarşısını alır və insanların gündəlik həyatda sağlam suya çıxışını təmin edir. Su ehtiyatlarının idarə olunması, çirkab sularının təmizlənməsi və təmiz suyun qorunması dayanıqlı inkişaf üçün çox vacibdir. Su resurslarının gələcək nəsillər üçün düzgün planlaşdırılması da bu prosesin bir hissəsidir.

Yaşadığımız dövrdə atmosferə atılan istixana qazlarının artması nəticəsində qlobal istiləşmə sürətlənir, ekstremal hava hadisələrinin sayı artır. Bu proses ekosistemlə-

Layihə

rin pozulmasına, buzlaqların əriməsinə, bunun nəticəində də su ehtiyatlarının azalmasına və s. səbəb olur. İqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün zərərli qazların emissiyalarının miqdarının azaldılması, enerji səmərəliliyinin artırılması və bərpa olunan enerji mənbələrinə keçidin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

| Ölkə/Birlik | Qlobal $CO_2$ emissiya payı | Əhalinin payı |
|---|---|---|
| Çin | 34% | 17,5% |
| ABŞ | 12% | 4,2% |
| Hindistan | 7,6% | 17,8% |
| Avropa İttifaqı | 6,4% | 5,6% |
| Rusiya | 5,3% | 1,8% |

**D.** Dünyada ən çox $CO_2$ emissiyası olan ölkələr (2023-cü il)

Enerji istehsalının böyük hissəsi təbii resursların tükənməsinə və havanın çirklənməsinə səbəb olur. Fosil yanacaqlardan asılılıq həm də ətraf mühiti çirkləndirir. Buna görə də təmiz, sərfəli və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi vacibdir. Enerji xidmətlərindən istifadənin hər kəs üçün əlçatan olması və enerji ötürülməsi zamanı itkilərin azaldılması da əsas hədəflərdəndir. Enerji infrastrukturunun yenilənməsi və daha qənaətcil texnologiyaların tətbiqi təmiz enerjiyə keçidi sürətləndirir, ekoloji yükün azalmasına kömək edir.



**E.** İslandiyada geotermal elektrik stansiyası

**FƏALİYYƏT**

1. A şəklinə əsasən suallara cavab verin.
   a) Balıq ovunun qanunla tənzimlənməsi nə üçün vacibdir?
   b) Okean və dənizlərdə balıq ovu ekosistemə necə təsir edir?
2. B və C şəkillərinə əsasən tapşırığı yerinə yetirin və suala cavab verin.
   a) Şəkilləri müqayisə edin.
   b) Şəkillərdəki vəziyyətin yaranma səbəbləri nələrdir?
3. D cədvəlinə əsasən tapşırığı yerinə yetirin və suallara cavab verin.
   a) Qlobal iqlim dəyişikliyinin təsirlərinə görə cədvəldəki ölkələri müqayisə edin.
   b) İqlim dəyişikliyinin azalması üçün bu ölkələr nə etməlidir?
   c) Əhali payına görə ən çox və ən az karbon emissiyası olan ölkələr hansıdır? Sizcə, bu nə ilə bağlıdır?
4. E şəklinə əsasən suallara cavab verin.
   a) Şəkildəki stansiyada enerji necə əldə olunur?
   b) Belə stansiyaların ekosistemin qorunması üçün əhəmiyyəti nədir?
   c) Şəkildə təsvir edilən stansiyalardan hansı ölkələrdə tikmək mümkündür?
   d) Azərbaycanda bu növ stansiyaları qurmaq mümkündürmü? Fikrinizi əsaslandırın.

Layihə

# 6.5 SOSİAL DAYANIQLILIQ

## İZAHETMƏ

Dayanıqlı inkişafın əsas istiqamətlərindən biri sosial sahədir. Sosial inkişaf cəmiyyətin təhsilinin, rifahının və sağlamlığının təmin olunması deməkdir. Sosial dayanıqlılıq həmçinin ədalətli idarəetmə, gender bərabərliyinin təmin olunması, insanların sülh və təhlükəsizlik şəraitində yaşaması məqsədlərinə xidmət edir. Hər kəsin təhsilə, səhiyyə və sosial xidmətlərə çıxış imkanlarının təmin edildiyi cəmiyyət daha güclü olur.
Cəmiyyətin inkişafı üçün təhsil və savadlılığın yüksəldilməsi mühüm şərtdir. Təhsilin əlçatanlığı təkcə fərdlərin gələcəyi üçün deyil, həm də cəmiyyətin rifahı və inkişafı üçün vacibdir. Savadsızlığın azaldılması yoxsulluğun və bərabərsizliyin azalmasına, sağlam və düşünən nəsillərin formalaşmasına gətirib çıxarır. Hazırda dünyada hələ də milyonlarla uşaq məktəbə gedə bilmir. Bu, əsasən, kasıb ölkələr üçün xarakterikdir. Dayanıqlı inkişaf təhsildə keyfiyyətin yüksəldilməsini, müəllimlərin sayının artırılmasını və məktəblərin maddi-texniki təminatının yaxşılaşdırılmasını tələb edir. Bu addımlar bütün uşaqların bərabər şəkildə təhsilə çıxışını təmin etməyə yönəlib.




**A.** Mozambikdə və Finlandiyada tədris

Dünyada yoxsulluğa son qoyulması sosial dayanıqlılığın əsas hədəflərindən biridir. Yoxsulluq gəlirlərin azlığı və maddi imkanların məhdud olması deməkdir. İnsan ehtiyac duyduğu təhsili, tibbi yardımı və yaxud qidanı ala bilmirsə, deməli, o, yoxsuldur. Hazırda dünyada təxminən 700 milyon insan gündə 2 dollardan az gəlirə malikdir. Bu isə hər on nəfərdən birinin minimum ehtiyaclarının qarşılanmadığı deməkdir. Kiçik sahibkarlığın dəstəklənməsi, əmək fəaliyyəti ilə məşğul olan insanların sayının artırılması və onların gəlirlərinin çoxalması yoxsulluğun azaldılmasına səbəb olur.

| Yoxsul ölkələr | Ortaillik gəlir (ABŞ dolları) | Varlı ölkələr | Ortaillik gəlir (ABŞ dolları) |
|---|---|---|---|
| Burundi | 250 | Lüksemburq | 125 000 |
| Somali | 400 | İsveçrə | 95 000 |
| Mozambik | 550 | Norveç | 90 000 |
| Niger | 600 | Sinqapur | 82 000 |

**B.** Ölkələrdə adambaşına düşən ortaillik gəlir

Layihə

Yoxsulluq insanın ümumi yaşayış səviyyəsinə təsir edən iqtisadi çətinlikdir. Aclıq isə qidalanma ilə bağlı problemdir. Hazırda dünyada təxminən 735 milyon insan aclıqdan əziyyət çəkir. Bu problemin əsas səbəbləri ərzaq çatışmazlığı, iqlim dəyişikliyi və siyasi münaqişələrdir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə görə, 2030-cu ilə qədər dünyada aclığın tam aradan qaldırılması əsas hədəflərdəndir. Bunun üçün kənd təsərrüfatında məhsuldarlığın artırılması və ərzaq israfının azaldılması tələb olunur.




**C.** Mozambik və Finlandiyada aclıq səviyyəsi (2023-cü il)

Cəmiyyətin gələcək inkişafı insanların fiziki və mənəvi sağlamlığından asılıdır. Sosial dayanıqlılığın əsas məqsədlərindən biri hər kəs üçün sağlam və təhlükəsiz həyat şəraitinin təmin edilməsidir. Bu məqsəd insanların təmiz və sağlam mühitdə yaşamasını, tibbi xidmətləri əldə etməsini və xəstəliklərin vaxtında qarşısının alınmasını nəzərdə tutur. Xüsusilə uşaq ölümlərinin azaldılması, anaların sağlamlığının qorunması və yoluxucu xəstəliklərlə mübarizə bu istiqamətin əsas hədəflərindəndir. Sağlamlığın qorunması üçün bütün ölkələrdə kifayət qədər həkim, tibb işçisi və müasir tibbi avadanlıqlarla təmin olunmuş xəstəxanaların olması xüsusi əhəmiyyət daşıyır. Tibbi xidmətlərin əlçatan olması təkcə insanların həyatını xilas etmir, həm də cəmiyyətin sosial və iqtisadi sabitliyinə birbaşa təsir göstərir. Əhalinin sağlamlığı isə dayanıqlı inkişafın davamlılığı və gələcək nəsillərin rifahı üçün əsas şərtlərdən biridir.




**2022-ci il**

**D.** Ölkələr üzrə həkimlərin sayı (hər 1000 nəfərə görə)

**FƏALİYYƏT**

1. A şəklinə əsasən tapşırığı yerinə yetirin və suallara cavab verin.
   a) 1-ci və 2-ci şəkilləri müqayisə edin.
   b) 1-ci və 2-ci şəkillərdə təsvir edilən proses nəyin nəticəsidir?
   c) Təhsil aldığınız məktəbi şəkildə verilənlərlə müqayisə etsəniz, hansı nəticəyə gələrsiniz?
2. B cədvəlinə əsasən ölkələr ortaillik gəlirlərinə görə bir-birindən nə üçün kəskin şəkildə fərqlənir?
3. C qrafikini təhlil edin.
4. D xəritəsinə əsasən suallara cavab verin.
   a) Hər 1000 nəfərə düşən həkim sayının çox və ya az olduğu ölkələr hansılardır?
   b) Ölkələrdəki həkim sayı ilə dayanıqlı inkişaf arasında hansı əlaqə var?

layihə

# 6.6 DAYANIQLI İNKİŞAFIN GƏLƏCƏYİ

## İZAHETMƏ

Dayanıqlı inkişafın gələcəyi dünyada sürətlə inkişaf edən texnologiyalardan asılıdır. Xüsusilə süni intellekt və yeni ekoloji yanaşmalar resurslardan daha səmərəli istifadə etməyə imkan yaradır. Tədqiqatçıların proqnozlarına görə, gələcəkdə cəmiyyətin inkişafı bütün sahələrdə daha səmərəli və məsuliyyətli yanaşmalara əsaslanacaq. Buna görə də dayanıqlı inkişafın gələcəyini düzgün təhlil etmək həm bugünkü, həm də gələcək nəsillərdən ötrü çox mühümdür.

Dayanıqlı inkişafda enerji keçidi əsas rol oynayır. Enerji keçidi fosil yanacaqlardan uzaqlaşaraq alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni tədricən artırmaqdır. Proqnozlara görə, gələcəkdə həm yaşayış məntəqələrində, həm də istehsal sahələrində bərpa olunan enerjidən (Günəş, külək, dəniz dalğaları, geotermal və s.) daha çox istifadə olunacaq. Hazırda bir çox sahələrdə enerji itkisi mövcuddur. Gələcəkdə isə insanlar güclü batareyalardan və enerjisaxlama sistemlərindən istifadə edərək istehsal olunan enerjidən daha səmərəli şəkildə faydalanacaqlar.




**A.** 2023–2033-cü illər üçün enerji proqnozu

### COĞRAFİ FAKT

*BƏƏ-də yerləşən "Şəms" günəş-elektrik stansiyasının gücü 100 MVt-dır. Stansiyanın əhəmiyyəti istehsal etdiyi enerji ilə təqribən 20 min evin elektrik tələbatını ödəyə biləcək səviyyədə qiymətləndirilir. Məlumatlara görə, layihənin tətbiqi ildə təqribən 175 min ton $CO_2$ emissiyasının qarşısını alır. Bu isə 1,5 milyon ağac əkilməsinə bərabər ekoloji fayda kimi izah edilir.*



Dayanıqlı inkişafın gələcək proqnozlarında iqlim razılaşmaları da mühüm rol oynayır. Bu razılaşmalar emissiyaların azaldılmasına, ətraf mühitin qorunmasına və təmizləyici texnologiyaların daha geniş yayılmasına şərait yaradır. Qlobal iqlim razılaşmalarının gerçəkləşməsi üçün ölkələrin səylərini birləşdirməsi çox vacibdir. Son illərdə emissiyaların azaldılması üzrə öhdəliklərə daha çox önəm verilir. Bir çox ölkələrdə "Sıfır emissiya" *(Net-Zero)* hədəfi əsas istiqamət kimi qəbul edilməkdədir. "Sıfır emissiya" hədəfi atmosferə buraxı-




**B.** 2050-ci ilə qədər qlobal temperatur artımı

Layihə

lan zərərli qazların mümkün qədər azaldılmasını ifadə edir. Bu yanaşma iqlim risklərinin azalmasına və dayanıqlı bir gələcəyin formalaşmasına şərait yaradır.

Gələcəkdə salınacaq dayanıqlı şəhərlərin qurulmasında yaşıl planlaşdırma mühüm yer tutur. Bu planlaşdırmada şəhərlərin daha güclü infrastruktura malik olması və ekoloji cəhətdən təmizliyi nəzərdə tutulur. Yaşıl sahələrin artırılması və enerjiyə qənaət edən binaların tikilməsi bu planlaşdırmanın əsas istiqamətlərindəndir. Bu gün dünyada bəzi şəhərlər yaşıl planlaşdırma prinsipləri əsasında yenidən qurulur. Futurist şəhərlər – gələcəyin şəhərləri yaşıl planlaşdırmanın real nümunəsidir. Belə şəhərlərdən olan Cənubi Koreyanın Sonqdo şəhərində günəş enerjisindən istifadə edilir. LED işıqlandırma və yağış sularının toplanılması kimi yaşıl sistemlərin tətbiqi insanların həyatını daha da rahatlaşdırıb. Bu şəhərdə məişət tullantıları boru sistemi vasitəsilə evlərdən toplanılaraq birbaşa təkrar emala yönəldilir.



**C.** Futurist şəhər – Sonqdo

Dayanıqlı inkişaf üçün gələcəkdə su ehtiyatlarının idarə olunması da çox mühümdür. Çünki iqlim dəyişikliklərinin su qıtlığına səbəb olması artıq reallıqdır. Buna görə də su ehtiyatlarının idarə olunması üçün planlaşdırma aparılmalıdır. Bu planlaşdırma dəniz suyunun duzsuzlaşdırılması, yağış sularının toplanılması, suyun təkrar istifadəsi, kənd təsərrüfatında itkisiz suvarma, suya az tələbatlı bitkilərin becərilməsi və s. üzrə nəzərdə tutulmuşdur. Belə yanaşmalar su ehtiyatlarının qorunmasına və gələcək nəsillər üçün davamlı istifadəsinə imkan yaradır.

Dayanıqlı inkişafda süni intellekt getdikcə əsas hərəkətverici qüvvəyə çevrilməkdədir. Süni intellekt məlumatları analiz edərək resursların daha səmərəli istifadə olunmasına imkan yaradır. Gələcəkdə bu texnologiyalar sayəsində sənaye, kənd təsərrüfatı və s. sahələrdə idarəetmə daha dəqiq və səmərəli olacaq. Bu yanaşma məhsuldarlığın artırılmasına və resurslardan daha ağıllı istifadəyə yönəldilmişdir.




**D.** Süni intellektlə işləyən aqrorobot

## FƏALİYYƏT

1. A qrafikinə əsasən suallara cavab verin.
   a) Verilən illər ərzində enerji növlərindən istifadə necə dəyişir?
   b) Enerji növlərindən istifadənin belə dəyişməsi gələcəkdə nə ilə nəticələnə bilər?
2. B xəritəsinə əsasən suallara cavab verin.
   a) Hansı ərazilərdə qlobal temperatur artımının daha sürətlə baş verəcəyi proqnozlaşdırılır?
   b) Temperatur artımının sürətini azaltmaq üçün hansı tədbirlərin görülməsi vacibdir?
3. C şəklinə əsasən suallara cavab verin.
   a) Şəkildə Sonqdo şəhərində hansı tədbirlərin həyata keçirildiyi daha çox nəzərə çarpır?
   b) Şəhərdə aparılan dəyişikliklər hansı problemlərin qarşısını alır?
   c) Gələcəkdə şəkildə təsviri verilən futurist şəhərlərin artması hansı nəticələr doğura bilər?
4. D şəklinə əsasən suallara cavab verin.
   a) Süni intellekt və sensorlarla işləyən aqrorobotların hansı üstünlükləri var?
   b) Sizcə, süni intellekt gələcəkdə resursların daha səmərəli istifadə olunmasına necə təsir göstərə bilər?

Layihə

# 6.7 AZƏRBAYCANDA İQTİSADİ VƏ EKOLOJİ DAYANIQLILIQ

## İZAHETMƏ

Bütün ölkələrdə dayanıqlı inkişaf sahəsində beynəlxalq standartların nəzərə alınması zəruridir. Bu standartlar ölkələrin iqtisadi inkişafı, ətraf mühitin qorunması və sosial vəziyyəti əsasında formalaşan göstəricilərinə əsaslanır. Həmin göstəricilər ölkələrin inkişaf səviyyəsini və gələcək istiqamətlərini müqayisə etməyə imkan verir. Azərbaycan da bu proseslərə aktiv şəkildə inteqrasiya olunur.




**A.** Dayanıqlı inkişaf xəritəsi (2025-ci il)

Ölkəmiz BMT-nin 2015-ci ildə keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. Azərbaycanda bu proses iqtisadi, ekoloji və sosial istiqamətlərdə həyata keçirilir. Son təhlillərə görə, ölkəmiz dayanıqlı inkişaf göstəriciləri baxımından yüksəksəviyyəli ölkələr sırasında yer alır.

Dayanıqlı inkişafda əsas məqsədlərdən biri olan *"İqtisadi artım və layiqli əmək şəraiti"* ölkəmizdə sənaye və kənd təsərrüfatı sahələrinin inkişafı, məşğulluğun artırılması və əmək şəraitinin yaxşılaşdırılması vasitəsilə həyata keçirilir. Enerji sektorunda həyata keçirilən genişmiqyaslı layihələr iqtisadi artıma, yeni iş yerlərinin yaradılmasına və dövlət gəlirlərinin artırılmasına mühüm töhfə verir. Neft və qaz gəlirləri digər sahələrin inkişafı üçün maliyyə əsaslarını formalaşdırır. Ölkəmizin kənd təsərrüfatında da dayanıqlı inkişafa əsaslanan üsullar tətbiq edilir. Məsələn, innovativ yaşıl texnologiyaların tətbiqi, suvarmada damcı və pivot (çiləmə) suvarma sistemlərinə keçid və s.

İqtisadi inkişafın davamlı olması üçün innovasiyaların tətbiqi və infrastrukturun gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Dayanıqlı inkişafın "*Sənaye, innovasiya və infrastruktur*" məqsədi məhz iqtisadiyyatın müasirləşdirilməsi, texnologiyaların tətbiqi və istehsal sahələrinin inkişafını nəzərdə tutur. Məsələn, Sumqayıt Sənaye Parkında kimya, metallurgiya və maşınqayırma sahələrində yüksək texnologiyaya əsaslanan istehsal tətbiq edilir.



**B.** Sumqayıt Sənaye Parkı

Dayanıqlı inkişafın ekoloji istiqamətində "*İqlim dəyişikliklərinə qarşı mübarizə*" ən mühüm məqsəddir. Azərbaycan bu istiqamətdə dünya ölkələri ilə sıx əməkdaşlıq edir. 2024-cü ildə ölkəmizdə keçirilən "COP-29" sammitində iqlim dəyişikliklərinə qarşı mübarizə əsas müzakirə mövzusu olmuşdur. Sammitdə bütün ölkələrdə emissiyaların azaldılması ilə bağlı qərar qəbul edilmişdir. İnkişaf etməkdə olan ölkələrdə iqlim dəyişiklikləri ilə mübarizə üçün maliyyə dəstəyinin artırılması da burada qərara alınan öhdəliklərdəndir.

Layihə

"*Sərfəli və təmiz enerji*" məqsədinə uyğun olaraq Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafına diqqət yetirilir. Ölkəmiz günəş və külək enerjisi potensialına malikdir. Azərbaycanda bu sahənin inkişafı məqsədilə müxtəlif layihələr həyata keçirilir. Son illərdə "Qaradağ", "Suraxanı" və s. günəş-elektrik stansiyaları, həmçinin "Yaşma", "Xızı-Abşeron" kimi külək-elektrik stansiyaları istifadəyə verilmişdir. Külək və günəş enerjisinin eyni ərazidə istehsalına əsaslanan "Qobustan" hibrid-elektrik stansiyası artıq fəaliyyət göstərir. Burada həmçinin bioqazdan da enerji əldə olunur. Bu enerji mənbələrindən istifadə tezliklə neft və qazdan asılılığın azaldılmasına, zərərli tullantıların minimuma endirilməsinə səbəb olacaq.




**C.** Azərbaycanda külək enerjisi potensialı



**D.** Qobustan hibrid-elektrik stansiyası

Dayanıqlı inkişafın "*Təmiz su və sanitariya*" məqsədi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Çünki Azərbaycan su ehtiyatları baxımından məhdud imkanlara malikdir. Ölkəmizdə suyun böyük hissəsi transsərhəd çaylarından əldə edilir. Bu səbəbdən su ehtiyatlarının səmərəli idarə edilməsi xüsusi əhəmiyyət daşıyır.

Ölkə üzrə "ağıllı su" sistemlərinin tətbiq olunması nəzərdə tutulur. Bu sistemlər suvarma, içməli, yağış və tullantı sularının səmərəli idarə edilməsini nəzərdə tutur. Kiçik su-elektrik stansiyalarının tikintisi də su ehtiyatlarından səmərəli istifadənin həlli yollarından biridir. Dağ çayları və kanallar üzərində qurulan bu stansiyaların bərpa olunan enerji istehsalında özünəməxsus yeri var. Kiçik SES-in ətraf mühitə mənfi təsiri də azdır.



**E.** Kəlbəcərdə kiçik SES

**FƏALİYYƏT**

1. A xəritəsinə əsasən tapşırıqları yerinə yetirin və suala cavab verin.
   a) Xəritəyə əsasən dayanıqlı inkişaf standartlarının daha çox nəzərə alındığı ölkələri müəyyən edin.
   b) Dayanıqlı inkişaf səviyyəsinin ölkələr üzrə qeyri-bərabər paylanmasının səbəbləri nə ola bilər?
   c) Aşkar etdiyiniz səbəblərə əsaslanaraq Azərbaycanın bu xəritədəki mövqeyini müzakirə edin.
2. Mətni oxuyun və suallara cavab verin.

*Sumqayıt Texnologiyalar Parkında kənd təsərrüfatı üçün müasir pivot suvarma sistemləri istehsal edilir. Torpağın dairəvi şəkildə suvarılmasını təmin edən bu sistemləri hazırlamaq üçün ABŞ-nin aparıcı şirkətlərinin təcrübəsi öyrənilmişdir. Pivot sistemləri torpağın şoranlaşmasının qarşısını alır və bitkilər üçün optimal nəmlik yaradır. Bu isə məhsuldarlığın artmasına imkan verir. Belə sistemlərin tətbiqi həm iqtisadi səmərəliliyi, həm də su resurslarının qorunmasını dəstəkləyir.*

   a) Mətndə dayanıqlı inkişafın hansı istiqamətlərindən söhbət gedir?
   b) Bu istiqamətlər hansı məqsədləri əhatə edir?
   c) Mətndə bəhs edilən üsulun ölkəmiz üçün əhəmiyyəti nədir?

Layihə

# 6.8 AZƏRBAYCANDA SOSİAL DAYANIQLILIQ

## İZAHETMƏ

Dayanıqlı inkişafın sosial istiqaməti əhalinin həyat keyfiyyətinin yüksəldilməsini, təhlükəsiz və rahat yaşayış mühitinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət sosial sahə üzrə müəyyən məqsədlərə əsaslanır. Azərbaycanda bu məqsədlərin həyata keçirilməsi inkişafa yol açır.




**A.** Qarabağ Regional DOST Mərkəzi




**B.** Son 10 ildə tikilən yeni məktəblər

Azərbaycanda "Yoxsulluğa son" və "Bərabərsizliyin azaldılması" sosial məqsədlərinin həyata keçirilməsində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) mərkəzlərinin fəaliyyəti böyükdür. Bu mərkəzlər əhaliyə sosial təminat, məşğulluq və sosial dəstək xidmətlərinin əlçatan şəkildə təqdim olunmasına imkan yaradır. Bundan başqa, mərkəzlər hər kəsə bərabər imkanların yaradılmasına və regionlararası sosial fərqlərin azalmasına xidmət edir.
Azərbaycanda dayanıqlı inkişafın sosial istiqamətində "Keyfiyyətli təhsil" və "Yaxşı səhiyyə və rifah" məqsədlərinə xüsusi diqqət yetirilir. Son illərdə ölkənin müxtəlif regionlarında, xüsusilə işğaldan azad edilmiş ərazilərdə yeni məktəblər və tibb müəssisələri tikilir, yaxud bərpa olunur. Məsələn, 2018–2020-ci illərdə əhalinin sayının az olduğu yaşayış məntəqələrində modul tipli məktəblərin qurulmasına üstünlük verilmişdir. 2020-ci ildən sonra isə yeni məktəblərin tikintisi genişləndirilmiş və bu proses sosial inkişaf baxımından strateji əhəmiyyət kəsb etmişdir. Bununla yanaşı, məktəblərin maddi-texniki bazası gücləndirilmiş, müasir tədris və rəqəmsal avadanlıqlarla təchizat genişləndirilmişdir. Azərbaycanda tibbi infrastrukturun dayanıqlılığı müasir tibb mərkəzlərinin yaradılmasını və xəstəxanaların modernləşdirilməsini əhatə edir. II Qarabağ müharibəsindən sonra səhiyyə sahəsində görülən işlər işğaldan azad edilmiş ərazilərdə daha böyük vüsət alıb. Ölkənin bütün regionlarında olduğu kimi, son illər bu ərazilərdə də yeni xəstəxanalar tikilir. Bu xəstəxanalarda yeni tibbi avadanlıqlar və elektron səhiyyə xidmətləri tətbiq olunur.



**C.** Xankəndi şəhər xəstəxanası

Dayanıqlı inkişafın sosial istiqamətində mühüm məqsədlərdən biri "Dayanıqlı şəhərlər və icmalar"dır. Burada məqsəd yaşayış məntəqələrinin rahat və təhlükəsiz şəkildə inkişaf etdirilməsidir. Yaşayış məntəqələrinin planlaşdırılması, ictimai məkanların yenilənməsi və xidmətlərin səmərəli təşkili bu məqsədin reallaşdırılmasında mühüm rol oynayır.

Layihə

Şəhərlərin planlaşdırılması sosial istiqamətin dayanıqlılığını artırır. Parklar və ictimai məkanlar şəhər mühitində sosial rahatlıq yaradır. Yeni piyada və velosiped yollarının salınması daha sağlam və ekoloji cəhətdən təmiz həyat tərzini təşviq edir. Nəqliyyat sistemlərinin səmərəli təşkili şəhər həyatını daha da rahatlaşdırır. Elektriklə işləyən nəqliyyat vasitələrindən istifadə havaya atılan zərərli qazların azalmasına səbəb olur və şəhər mühitinə müsbət təsir göstərir. Məsələn, Bakı–Sumqayıt və Bakı–Gəncə elektrik qatarları hər gün minlərlə sərnişinə xidmət edir. Azərbaycanda rəqəmsal texnologiyaların tətbiqi şəhər mühitində, həmçinin nəqliyyatda idarəetmənin səmərəliliyini artırır. Bu yanaşma xidmətlərin keyfiyyətinin yüksəldilməsi və dayanıqlı inkişafın texnoloji əsaslarının möhkəmlənməsi üçün çox zəruridir.

"Ağıllı şəhər" və "ağıllı kənd" layihələri də dayanıqlı inkişafın bu məqsədinə xidmət edir. Belə məntəqələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılır. Məsələn, Cəbrayıl rayonunun Horovlu kəndi "ağıllı kənd" prinsipi əsasında qurulmuşdur. Kənddə yaşayış evləri və sosial obyektlər günəş panelləri, qaz, su, internetlə təmin edilmişdir. Horovludakı tarixi su kəhrizləri də müasir texnologiyalarla bərpa edilərək rəqəmsal nəzarətə alınmışdır. Həmçinin kəndin idarəetməsində Coğrafi İnformasiya Sisteminin (CİS) tətbiqi də nəzərdə tutulur.



**D.** Horovlu kəndi

"*Dayanıqlı şəhərlər və icmalar*" məqsədində icma anlayışı insanların yaşadıqları məntəqədə sosial və mədəni əlaqələrin qurulmasını ifadə edir. İcmalar, əsasən, kənd və şəhərlərdə formalaşır. İctimai məkanlar, mədəni tədbirlər və birgə fəaliyyətlər cəmiyyətdə ünsiyyəti gücləndirir. Bu münasibətlər sosial həmrəyliyi artırır və insanların yaşadıqları mühitə bağlılıqlarını möhkəmləndirir. Nəticədə icmaların inkişafı sosial dayanıqlılığa mühüm töhfə verir.

**FƏALİYYƏT**

1. Azərbaycanda dayanıqlı inkişafın istiqamətlərinə uyğun olan görülən işləri müəyyən edərək cədvəli tamamlayın.

| İqtisadi dayanıqlılıq | Ekoloji dayanıqlılıq | Sosial dayanıqlılıq |
|---|---|---|
| | | |

2. B qrafikinə və mətnə əsasən suallara cavab verin.
   a) Yeni tikilən məktəblərin sayı hansı illərdə daha çox olub? Səbəbini izah edin.
   b) Son üç ildə yeni məktəblər, əsasən, hansı iqtisadi rayonlarda tikilib?
   c) Yeni məktəblərin tikintisi dayanıqlı inkişafın "*Keyfiyyətli təhsil*" məqsədinə xidmət edirmi? Fikrinizi əsaslandırın.
3. D şəklinə əsasən tapşırıqları yerinə yetirin.
   a) Şəklə əsasən "ağıllı kənd" layihəsini təsvir edin.
   b) Qarabağ və Şərqi Zəngəzurda yaşayış məntəqlərinin "ağıllı kənd" və "ağıllı şəhər" prinsipləri əsasında yenidən qurulmasının səbəblərini izah edin.

Layihə

# DƏRİNLƏŞDİRMƏ AİLƏ BİZNESİNƏ QAYĞI

İqtisadi inkişafa nail olmaq üçün yalnız iri zavodlar tikmək və böyük layihələri reallaşdırmaq kifayət etmir. Çox vaxt inkişaf ailədən, kənddən və kiçik icmadan başlayır. Məhz bu ideyaya əsaslanaraq 2016-cı ildə Azərbaycanda ABAD (Ailə Biznesinə Asan Dəstək) modeli yaradılmışdır.



**A.** Astaralı ABAD üzvü



**B.** Gəncəli sənətkar




**C.** Satışın təşkili

ABAD-ın yaradılmasının əsas səbəbi ailə biznesinin zəif bazar imkanları ilə üzləşməsi olub. Bir çox ailə keyfiyyətli məhsul istehsal etsə də, onu geniş bazara çıxarmaq imkanına malik deyildi. ABAD bu boşluğu doldurmaq məqsədilə yaradıldı. Hazırda bir sıra rayonlarda bəzi ailələr ev şəraitində meyvə qurudulması, mürəbbə və yerli məhsullardan digər qidaların hazırlanması ilə məşğul olur. Bu fəaliyyətlər əvvəlcə kiçikmiqyaslı olsa da, zamanla ailə gəlirinin artmasına və yerli istehsalın güclənməsinə şərait yaranır. Nəticədə dayanıqlı inkişafın *yoxsulluğun azaldılması, iqtisadi artım* və *layiqli əmək* məqsədləri həyata keçir.

Regionlarda ailə təsərrüfatları, əsasən, yerli xammaldan istifadə edir. Meyvə və kənd təsərrüfatı məhsullarının emalı israfın azalmasına və məhsulun dəyər qazanmasına imkan verir. Bu isə *məsuliyyətli istehsal və istehlak* məqsədinə uyğun olan yanaşmadır. ABAD yalnız qida istehsalına deyil, xalçaçılığa, suvenir və digər əl sənətləri sahələrinə də dəstək verir. Belə ki, ailələr istehsalda istifadə olunan müasir avadanlıqlarla təmin edilir və onların iş prosesinə tətbiqi praktik şəkildə öyrədilir. Bu da milli sənətkarlığın qorunmasına və ailələrin müxtəlif sahələr üzrə gəlir qazanmasına imkan verir.

ABAD ailə təsərrüfatları məhsulların bazara çıxarılması prosesində də birbaşa iştirak edir. Ailələr məhsulların saxlanılması, qablaşdırılması və sertifikatlaşdırılması proseslərinə cəlb edilir. Eyni zamanda məhsulların daşınması və satış məkanlarına çatdırılması da ABAD-ın dəstəyi ilə həyata keçirilir. Beləliklə, ABAD ailə təsərrüfatlarını gücləndirərək iqtisadi, sosial və mədəni dəyərləri birlikdə qoruyan dayanıqlı inkişaf yanaşmasının real təbliğatçısına çevrilir.

**FƏALİYYƏT**

1. Mətnə əsasən suallara cavab verin.

*Lənkəranda Sultanovlar ailəsi süd məhsullarının istehsalı ilə məşğul olur. Onlar həyətyanı sahələrində qurduqları kiçik süd məhsulları emalı sexində nehrə yağı, pendir, şor, süzmə, qatıq, qaymaq və s. təbii ağartı məhsulları istehsal edirlər. Sultanovların məhsulları əvvəllər daha çox cənub rayonlarında satılırdı. Ailə ABAD-a qoşulduqdan sonra isə artıq "Sultan süd" brendi adı altında məhsullarını bütün iri marketlər şəbəkəsində satışa çıxara bilir.*

a) Sultanovların ABAD-a qoşulduqdan sonra məhsullarını ölkənin iri marketlərinə çıxara bilmələrinin səbəbi nədir?
b) Bu ailə dayanıqlı inkişafın hansı məqsədlərini həyata keçirir?
c) Yaşadığınız ərazidə fərdi ailə təsərrüfatları varmı? Onlar hansı fəaliyyətlə məşğul olurlar?

2. C şəklinə əsasən suala cavab verin və tapşırığı yerinə yetirin.

a) Şəkli şərh edin.
b) ABAD-ın satış mərkəzləri ailə biznesinə necə dəstək verir?

Layihə

# DƏYƏRLƏNDİRMƏ

**1** Sxemə əsasən dayanıqlı inkişafın istiqamətlərinə uyğun olan məqsədləri qruplaşdırın.

I. İQTİSADİ İSTİQAMƏT | II. EKOLOJİ İSTİQAMƏT | III. SOSİAL İSTİQAMƏT




**2** Qrafikə əsasən tapşırıqları yerinə yetirin və suallara cavab verin.




a) Qrafiki şərh edin.
b) Son illər hansı enerji növləri üzrə payın artması müşahidə edilir?
c) Bu artım dayanıqlı inkişafın hansı istiqamətinə uyğun gəlir? Cavabınızı əsaslandırın.
d) Enerji istehsalında bərpa olunan mənbələrin artması iqlim dəyişmələri ilə mübarizədə nə üçün vacib hesab olunur?
e) Qrafikdə müşahidə olunan dəyişikliklər dayanıqlı inkişaf üçün kifayətdirmi? Fikrinizi izah edin.
f) Qrafikdə fosil yanacaqların hələ də əsas pay olduğu görünür. Bu vəziyyətdə bərpa olunan enerjiyə keçidin qarşısında duran əsas çətinlik nədir?

## ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

**1.** Cədvələ əsasən suallara cavab verin və tapşırıqları yerinə yetirin.

| Göstəricilər | Layihə A | Layihə B |
|---|---|---|
| İllik iqtisadi gəlir (mln. dollar) | 4,2 | 6,8 |
| Yeni iş yerlərinin sayı (nəfər) | 70 | 150 |
| İllik su sərfiyyatı (min $m^3$) | 120 | 280 |
| Enerji mənbələrinin payı (%) | 80 (bərpa olunan) | 30 (bərpa olunan) |
| İllik $CO_2$ emissiyası (min ton) | 6 | 18 |

a) Hansı layihə dayanıqlı inkişaf məqsədlərinə daha uyğundur?

b) Hansı layihə uzunmüddətli perspektivdə ekoloji problemlərə səbəb ola bilər?

c) Yerli idarəetmə orqanının nümayəndəsi olsaydınız, hansı layihənin icrasına üstünlük verərdiniz? Seçiminizi ən azı iki göstərici ilə əsaslandırın.

d) Layihə B-də bərpa olunan enerjinin payı 30%-dən 70%-ə yüksəldilərsə, bu dəyişiklik enerji sərfiyyatı, ətraf mühit və iqtisadi səmərəliliyə necə təsir göstərə bilər? Fikrinizi izah edin.

e) Təqdim olunan layihələrin göstəriciləri hansı dayanıqlı inkişaf məqsədləri ilə əlaqəlidir?

**2.** Situasiya mətnini oxuyun. Suallara cavab verin və tapşırıqları yerinə yetirin.

*K iqtisadi rayonunda sututumlu istehsal sahəsinə malik yeni sənaye müəssisəsinin yaradılması planlaşdırılır. Layihənin həyata keçirilməsi nəticəsində illik iqtisadi gəlirin artacağı və yeni iş yerlərinin açılacağı gözlənilir. Lakin müəssisənin fəaliyyəti su sərfiyyatının artmasına, istehsal tullantılarının çoxalmasına və ətraf mühitə əlavə yük düşməsinə səbəb ola bilər. Buna görə layihə həyata keçirilərkən dayanıqlı inkişaf prinsiplərinin nəzərə alınması vacib hesab olunur.*

a) Layihənin iqtisadi baxımdan hansı üstünlükləri var?

b) Layihənin ekoloji baxımdan yarada biləcəyi riskləri müzakirə edin.

c) Mövcud şərtlər nəzərə alınmaqla layihə dayanıqlı inkişaf prinsiplərinə uyğun hesab oluna bilərmi? Cavabınızı əsaslandırın.

**3.** Qrafikə əsasən tapşırıqları yerinə yetirin və suallara cavab verin.

a) İfrat yoxsulluq şəraitində yaşayan insanların sayı hansı illərdə azalmağa başlayıb?

b) Bunun səbəblərini izah edin.

c) Qrafikdə göstərilən dəyişikliklərin dayanıqlı inkişafla əlaqəsini izah edin.

d) Sizcə, yoxsulluq şəraitində yaşamayan insanlar yoxsulluq şəraitində yaşayan insanlara necə təsir edə bilərlər?




Layihə

# SÖZLÜK

## "AĞILLI ŞƏHƏR"



Texnologiya vasitəsilə idarə olunan şəhər modelidir. Enerji, nəqliyyat və kommunal xidmətlər rəqəmsal sistemlərlə tənzimlənir.

## AKTOR

İqtisadi və sosial proseslərdə iştirak edən tərəfdir. Dövlət, beynəlxalq təşkilat, şirkət və vətəndaş aktor ola bilər.

## ANTİQLOBALİZM

Qloballaşma prosesinə qarşı çıxan ideya və hərəkatdır. Qlobal iqtisadi və siyasi təsirlərə tənqidi yanaşmanı ifadə edir.

## AVTOMATLAŞDIRMA



Az insanın iştirakı ilə, yaxud insan iştirakı olmadan avtomatik qurğular və proqramlar vasitəsilə əməliyyatların yerinə yetirilməsidir. İstehsal, xidmət və idarəetmə sahələrində tətbiq olunur. Robotlar və süni intellekt sistemləri bu prosesdə mühüm rol oynayır.

## BEYNƏLXALQ TİCARƏT

Ölkələr arasında mal və xidmətlərin alqı-satqısıdır. İxrac və idxal bu prosesin əsas istiqamətlərini təşkil edir.



## BƏRABƏRSİZLİK

Gəlir və imkanların qeyri-bərabər bölüşdürülməsidir. Sosial və iqtisadi fərqlər artır.

## DAYANIQLI İNKİŞAF

Gələcək nəsillərin imkanlarını məhdudlaşdırmadan bugünkü ehtiyacların ödənilməsidir. İnsanların ehtiyacları təmin edilərkən gələcək nəsillərin də öz ehtiyaclarını ödəmək imkanları nəzərdə tutulur.

## DAYANIQLI ŞƏHƏR

Ətraf mühitə uyğun salınan və sosial baxımdan balanslı inkişaf edən şəhərdir. Resurslardan səmərəli istifadə edilir. Yaşıl zonalar və ictimai nəqliyyat sistemləri inkişaf etdirilir. Uzunmüddətli və təhlükəsiz urbanizasiya modelidir.

## EKOLOJİ TARAZLIQ

Canlı və cansız mühit arasında mövcud olan təbii uyğunluqdur. Təbiətdə su, hava və torpaq kimi təbii komponentlərin daim hərəkətdə olması və canlıların bu proseslərdə iştirak etməsi tarazlığı qoruyur.

## ELEKTRON TULLANTI



İstifadəyə yararsız olan elektron cihazlardır. Mobil telefonlar, kompüterlər, televizorlar, məişət texnikası və batareyalar bu qrupa daxildir.

## ENERJİ QITLIĞI

Enerji resurslarının tələbatı ödəmək üçün kifayət etməməsidir. Əhalinin artması və istehsal sahələrinin genişlənməsi enerjiyə olan tələbatı yüksəldir.

## ENERJİ TƏHLÜKƏSİZLİYİ

Dövlətin enerji resurslarına olan tələbatı fasiləsiz, iqtisadi cəhətdən əlverişli və uzunmüddətli dövrdə təminetmə qabiliyyətidir. Enerji infrastrukturunun müasir standartlara uyğunlaşdırılması təhlükəsizliyin gücləndirilməsinə xidmət edir.

## ƏMƏK BÖLGÜSÜ

İstehsal prosesində fəaliyyətlərin insanlar, qruplar, müəssisələr və ərazilər arasında bölüşdürülməsidir. Əmək bölgüsü nəticəsində hər bir ərazi və ya təsərrüfat sahəsi müəyyən fəaliyyət üzrə ixtisaslaşır. Məkan miqyasına görə coğrafi əmək bölgüsü və beynəlxalq əmək bölgüsü aparılır. Coğrafi əmək bölgüsü istehsalın ölkə daxilindəki müxtəlif ərazilər arasında bölüşdürülməsidir. Təbii şərait, resurslar və əhalinin yerləşməsi və s. bu bölgünü formalaşdırır. Məsələn, bir bölgədə kənd təsərrüfatı, digər bölgədə isə sənaye üstünlük təşkil edə bilər. Beynəlxalq əmək bölgüsü isə ölkələr arasında istehsalın və xidmətlərin bölüşdürülməsidir. Hər bir ölkə öz təbii və iqtisadi üstünlüklərinə uyğun məhsul istehsal edir. Bu proses beynəlxalq ticarətin inkişafına şərait yaradır və dünya təsərrüfat sistemini formalaşdırır.

Layihə

## ƏMƏK RESURSLARI

Əqli və fiziki sağlamlığı yerində olan əmək qabiliyyətli əhalidir. Bu qrupa müəyyən yaş həddində olan şəxslər – iqtisadi fəaliyyətin əsas iştirakçıları daxildir. Uşaqlar və pensiya yaşına çatmış şəxslər, adətən, əmək resurslarına aid edilmirlər.



## FUTURİST ŞƏHƏR

Gələcəyin texnologiyalarına əsaslanan şəhər modelidir. İnnovativ tikililər və ağıllı sistemlərlə xarakterizə olunur. Enerjidən səmərəli istifadəyə və ekoloji balansa önəm verilir.



## HASİLAT

Təbii sərvətlərin yerin təkindən və ya səthindən çıxarılması prosesidir. Neft, qaz və filiz hasilatı buna nümunədir. Hasilat sənayesi bir çox ölkələrin iqtisadiyyatında mühüm yer tutur.



## İXTİSASLAŞMA

Hər hansı məhsulun və ya xidmətin istehsalında müəssisə, iqtisadi rayon və ya ölkənin üstünlük qazanmasıdır. Bu zaman həmin məhsulun istehsalı artdığına görə daxili tələbatdan da artıq məhsul əldə oluna bilər. Məhsulun artıq qalan hissəsi digər rayonlara və ya ölkələrə satılır.

## İQTİSADİ SEKTORLAR

İqtisadi fəaliyyət sahələrinin bölgüsüdür. I sektor təbii resursları, II sektor emal prosesini, III sektor məhsulların bazara çıxarılması və istehlakçılara çatdırılmasını, IV sektor elmi tədqiqatlar, yüksək texnolgiyalar və innovasiyaları, V sektor isə qərarvermə və strateji istiqamətləndirmə fəaliyyətlərini əhatə edir. Bu bölgü inkişaf səviyyəsini təhlil etməyə imkan verir.

## İMMİQRANT

Başqa ölkəyə gələn və həmin ölkədə yaşayan şəxsdir. İş, təhsil, təhlükəsizlik, yaxud ailə səbəbləri ilə başqa dövlətə gələn miqrantlar onları qəbul edən ölkənin əmək bazarında və sosial həyatında iştirak edirlər. İmmiqrantların cəmiyyətə uyğunlaşması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.



## İNFLYASİYA

Müəyyən dövrdə ölkədə, yaxud qlobal miqyasda mal və xidmətlərin ümumi qiymət səviyyəsinin artmasıdır. İnflyasiya nəticəsində pulun alıcılıq qabiliyyəti azalır və əhalinin real gəlirləri aşağı düşür. İnflyasiya yoxsulluğun artmasına, sosial gərginliyə və iqtisadi sabitliyin pozulmasına səbəb ola bilər.

## İNFRASTRUKTUR

İqtisadi, yaxud sosial fəaliyyət üçün zəruri olan obyekt və xidmətlər sistemidir. İnfrastruktur iki əsas hissəyə bölünür: istehsal infrastrukturu və sosial infrastruktur. İstehsal infrastrukturu iqtisadi fəaliyyətə birbaşa xidmət edən sahələri əhatə edir. Nəqliyyat, rabitə, enerji təchizatı və suvarma sistemləri bu qrupa daxildir. Bu infrastruktur istehsal və ticarətin səmərəli təşkili üçün mühüm əhəmiyyət daşıyır. Sosial infrastruktur isə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir. Təhsil, səhiyyə, mədəniyyət və sosial təminat müəssisələri bu sahəyə daxildir.



Layihə

## İNVESTİSİYA

Gələcəkdə gəlir əldə etmək məqsədilə iqtisadiyyata qoyulan vəsaitdir. Həmin vəsait yeni müəssisələrin yaradılmasına və istehsalın genişlənməsinə imkan verir. Daxili və xarici investisiyalar iqtisadi artımı sürətləndirir. Uzunmüddətli inkişaf üçün vəsait qoyulması vacib şərtdir.

## İSTEHLAK

İnsanların ehtiyaclarını ödəmələri üçün mal və xidmətlərdən istifadə etmələridir. İqtisadi fəaliyyətin son mərhələsini təşkil edir. Gəlir səviyyəsi, qiymətlər və reklam istehlaka təsir göstərir. Cəmiyyətin həyat səviyyəsinin əsas göstəricilərindən biridir.

## KAPİTAL

İqtisadi fəaliyyətdə istifadə olunan maddi və maliyyə ehtiyatlarının məcmusudur. İstehsal prosesində tətbiq olunan avadanlıq, texnika, tikililər və pul vəsaitləri kapitala daxildir. Kapital məhsul və xidmət istehsalının genişlənməsinə imkan yaradır. İqtisadi inkişafın əsas amillərindən biridir. Texnoloji yeniliklər kapitalın səmərəliliyini artırır və istehsalın həcminə müsbət təsir göstərir.

## KƏND TƏSƏRRÜFATI

Bitkiçilik və heyvandarlıq məhsullarının istehsalıdır. Qida təminatında mühüm rol oynayır. İqlim, torpaq və su ehtiyatları bu sahənin inkişafına təsir göstərir. Bir çox ölkələr üçün əsas məşğulluq sahəsidir.



## KİBERTƏHLÜKƏSİZLİK

İnformasiya sistemlərinin və rəqəmsal məlumatların kibertəhdidlərdən qorunmasını təmin edən tədbirlər toplusudur. İnternet şəbəkəsindən istifadənin artması kiberhücumların çoxalmasına səbəb olur. Şəxsi və məxfi məlumatların qorunması kibertəhlükəsizliyin əsas məqsədlərindən biridir. Dövlət qurumlarına, bank sistemlərinə və mühüm infrastruktur obyektlərinə edilən hücumlar ciddi təhlükə yarada bilər. Bu sahədə güclü təhlükəsizlik sistemlərinin qurulması və istifadəçilərin qaydalara riayət etməsi çox vacibdir.

## KRİPTOVALYUTA



Rəqəmsal formada mövcud olan virtual pul vahididir. Şifrləmə texnologiyasına əsaslanır. Ənənəvi bank sistemindən fərqli olaraq mərkəzləşdirilməyib. Onlayn ödəniş və investisiya vasitəsi kimi istifadə olunur.

## QƏRARVERMƏ SEKTORU *(QUINARY)*

İqtisadiyyatın ən yüksək və ən ixtisaslaşmış xidmət sahəsidir. Bu sektor cəmiyyət üçün strateji qərarların verilməsini, yüksək səviyyəli bilik və innovasiya, həmçinin liderlik və idarəetmə ilə bağlı fəaliyyətləri əhatə edir.

## QİDA TƏHLÜKƏSİZLİYİ



İstehlak edilən qidanın sağlam və təhlükəsiz olmasıdır. Qida istehsalı, daşınması və saxlanılması nəzarət tələb edir. Sanitariya və keyfiyyət standartları bu sahədə əsas şərtlərdəndir və insan sağlamlığının qorunması ilə birbaşa bağlıdır.

## QİDA TƏMİNATI

Əhalinin kifayət qədər və davamlı qida ilə təmin olunmasıdır. Qida məhsullarının istehsalı, əldə edilməsi və əhali arasında paylanılması bu anlayışa daxildir. Kənd təsərrüfatı istehsalı, beynəlxalq ticarət, logistika və saxlama infrastrukturunun inkişafı qida təminatının artırılmasında mühüm rol oynayır. Ərzaq ehtiyatlarının düzgün idarə olunması vacibdir. Qida təminatı əhalinin qidalanma imkanlarına, qiymət sabitliyinə və ölkənin sosial-iqtisadi dayanıqlılığına birbaşa təsir göstərir.

## LAYİQLİ ƏMƏK



Təhlükəsiz və sağlam şəraitdə yerinə yetirilən işdir. İşə görə ədalətli əməkhaqqı və sosial təminat verilir. İşçilərin hüquqlarının qorunmasını nəzərdə tutur. Sosial rifahın əsas şərtlərindən biridir.

## LOGİSTİKA

Məhsulların daşınması, saxlanılması və vaxtında çatdırılmasının təşkili prosesidir. Ticarət və istehsal zəncirinin vacib hissəsidir. Nəqliyyat və anbar sistemlərini əhatə edir. Xərclərin azaldılmasına kömək edən prosesdir.

Layihə

## MARKETİNQ

Məhsul və xidmətlərin bazarda tanıdılması və satışı üzrə fəaliyyətlər sistemidir. Bazar araşdırması, reklam və qiymət siyasəti bu sahəyə daxildir. İstehlakçı tələbatının öyrənilməsinə əsaslanır. Müəssisələrin rəqabət qabiliyyətini artırır.

## MƏRKƏZ–PERİFERİYA




Dünya iqtisadiyyatında ölkələrin inkişaf səviyyəsinə görə bölgüsünü izah edən sosial-iqtisadi modeldir. Bu modelə görə, dünya mərkəz və periferiya regionlarına ayrılır. Mərkəz ölkələr yüksək texnologiyaya əsaslanan istehsala, güclü maliyyə resurslarına və qərarvermə imkanlarına malik olur. Periferiya ölkələrdə isə, əsasən, xammal resursları və ucuz işçi qüvvəsi üstünlük təşkil edir.

## MƏSULİYYƏTLİ İSTEHSAL

Təbiətə və cəmiyyətə zərər vermədən həyata keçirilən istehsaldır. Resurslardan səmərəli istifadəni nəzərdə tutur. Tullantıların azaldılmasına yönəlir. Dayanıqlı inkişaf prinsiplərinə uyğun həyata keçirilir.

## MİKROPROSESSOR



Elektron qurğularda məlumatı emal edən əsas hissədir. Kompüter və digər rəqəmsal cihazların işləməsini təmin edir. Əmrlər qəbul və icra olunur. Müasir informasiya texnologiyalarının əsasını təşkil edir.

## MİQRASİYA

İnsanların bir ölkədən digər ölkəyə və ya bir ərazidən başqa əraziyə hərəkət etməsidir. Miqrasiya müxtəlif səbəblərə görə — iş, təhsil, təhlükəsizlik və s. amillər səbəbindən baş verə bilər. Bu proses nəticəsində immiqrantlar ölkəyə gələn şəxslər, emiqrantlar isə ölkədən gedən şəxslər hesab olunur.

## RƏQƏMSAL İQTİSADİYYAT

İnformasiya və kommunikasiya texnologiyalarına əsaslanan iqtisadi sistemdir. Elektron ticarət və onlayn xidmətlər də bu sahəyə daxildir. Rəqəmsal platformalar iqtisadi əlaqələri genişləndirir.

## SƏNAYE İNQİLABI



Əl əməyinin maşın istehsalı ilə əvəzlənməsi nəticəsində xarakterizə olunan tarixi mərhələdir. XVIII əsrdə İngiltərədə başlamış bu mərhələdə fabrik və zavodlar yaranmış, şəhərləşmə və iqtisadi artım sürətlənmişdir.

## SOSİAL ƏDALƏTSİZLİK

Cəmiyyətdə hüquq və imkanların ədalətsiz bölgüsüdür. Gəlir, təhsil və səhiyyə sahəsində fərqlər yaradır. Sosial gərginlik və narazılığa səbəb ola bilər. Dövlət siyasəti bu fərqlərin azaldılmasına yönəldilir.

## TEXNOLOGİYA

İstehsal, yaxud xidmət sahələrində istifadə olunan üsul və vasitələrdir. Elmi biliklərin praktik tətbiqini əhatə edir. Yenilik və səmərəliliyin əsas mənbəyidir. İqtisadi inkişafın sürətinə təsir göstərir.

## TEKSTİL SƏNAYESİ

Parça, iplik və geyim istehsalı sahəsidir. Yüngül sənayenin əsas istiqamətlərindən biridir. Xammal kimi pambıq, yun, kətan, ipək və sintetik liflərdən istifadə edir. Bir çox ölkələr üçün ixrac və məşğulluq baxımından əhəmiyyətlidir.



## TRANSMİLLİ ŞİRKƏT

Bir neçə ölkədə fəaliyyət göstərən iri şirkətdir. Qlobal iqtisadiyyatda mühüm rol oynayır. Texnologiya və kapitalın beynəlxalq hərəkətinə təsir göstərir. Dünya bazarlarında rəqabət mühitini formalaşdırır.

## ÜDM (ÜMUMİ DAXİLİ MƏHSUL)

Ölkədə bir il ərzində istehsal olunan bütün məhsul və xidmətlərin ümumi dəyəridir. İqtisadi inkişafın əsas göstəricilərindən biridir. ÜDM artımı iqtisadi fəallığın yüksəlməsini göstərir. Məhsul istehsal edən ölkələr arasında müqayisə üçün istifadə olunur.

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ RAYONLARI

Miqyas 1 : 2 200 000



Miqyas 1 : 20 000 000

# DÜNYANIN EKOLOJİ PROBLEMLƏRİ




- Səhralar
- Səhralaşma təhlükəsi olan ərazilər
- Tropik meşələr
- Məhvolma təhlükəsi olan tropik meşə bölgələri
- Sənaye üçün istifadə olunan meşə bölgələri
- Torpaqların kompleks pozulması
- Su hövzələrində suyun çirklənmiş bölgələri
- Okeanlarda basdırılmış sənaye tullantıları
- Neft tullantıları ilə daha çox çirklənmiş okean suları
- Daha çox çirklənmiş çaylar
- Bakı — Atmosferin sənaye ilə çirklənməsi
- Ən iri sənaye qəzaları
- Çernobıl — Faciəli nüvə qəzaları
- Nevada — Nüvə silahının sınaq yerləri
- 1986 — İri qəzaların tarixləri




Nəsli kəsilməkdə olan quş və məməli heyvan növlərinin miqdarı

layihə

**BURAXILIŞ MƏLUMATI**

Ümumi təhsil müəssisələrinin 9-cu sinifləri üçün
coğrafiya fənni üzrə dərslik (2-ci hissə)

Tərtibçi heyət:

Müəlliflər
Famil Ələkbərov
Nərminə Seyfullayeva
Şərafət Hüseynli
Mahir Sərkərli
Ramil Rzayev

Redaktor
Servet Karabağ – Qazi Universitetinin professoru, coğrafiya elmlər doktoru

Dil redaktoru Əsgər Quliyev, Aida Quliyeva
Bədii redaktor Eldəniz Xocayev
Texniki redaktor Zeynal İsayev
Dizayner Eldəniz Xocayev
Üz qabığı Taleh Məlikov
Rəssam Elmir Məmmədov
Korrektor Aqşin Məsimov

Rəyçilər
Mirnuh İsmayılov – coğrafiya üzrə fəlsəfə doktoru, dosent
Mərifət Eyyubova – Vətən İdman Liseyi, coğrafiya müəllimi
Şəfiqə Hümbətova – coğrafiya üzrə fəlsəfə doktoru
Ülviyə Qasımova – coğrafiya üzrə aparıcı məsləhətçi

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı bir hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-550-10-8

Hesab-nəşriyyat həcmi: 10. Fiziki çap vərəqi: 11. Səhifə sayı: 88.
Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^{1}/_{8}$. Şrift və ölçüsü: Segoe 11pt.
Ofset çapı. Sifariş____. Tiraj: 1 600. Pulsuz. Bakı – 2025

**Pilot siniflərdə istifadə üçün nəzərdə tutulur.**

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 03.12.2025

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"CN Poliqraf" MMC (Bakı ş., Şərifzadə küş., 29/31).

Layihə

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.
İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin. Sizə təhsildə uğurlar arzulayırıq!



Layihə